FƏRHAD XUBANLI



# BƏXTİYAR VAHABZADƏ YARADICILIĞI VƏ ŞAGİRDLƏRİN MİLLİ RUHDA TƏRBİYƏSİ MƏSƏLƏLƏRİ

*Azərbaycan Respublikası*
*Təhsil Nazirliyi*
*Azərbaycan Müəllimlər İnstitutunun*
*Qazax filialı*

**Fərhad XUBANLI,**
*pedaqoji elmlər namizədi,*
*dosent*

2346/1

# Bəxtiyar Vahabzadə yaradıcılığı və şagirdlərin milli ruhda tərbiyəsi məsələləri

(metodik vəsait)

Azərbaycan Müəllimlər İnstitutunun
Qazax filialının Elmi Şurasının
qərarı ilə çap olunur.

M.F.Axundov adına
Azərbaycan MKK
Kitabxanası

"Adiloğlu" nəşriyyatı
Bakı - 2005

Rəyçilər
Rüstəm Rüstəmzadə,
*filologiya elmlərii doktoru, professor*

Arif Veyisov,
*pedaqoji elmlər namizədi, dosent*

Elmi redaktor
Şəmistan Mikayılov,
*pedaqoji elmlər doktoru, professor*

Redaktor
Nəriman Əbdülrəhmanlı

Bədii redaktor
İlqar Xubanlı

Korrektor
Sənan Fərhadoğlu

Kompüter işi:
Oqtay Əhmədov

***Müəllif kitabın çapında göstərdiyi maddi və mənəvi köməyə görə təəssübkeş ziyalı Təbriz YADİGAROVA minnətdarlığını bildirir.***

Xubanlı F. Bəxtiyar Vahabzadə yaradıcılığı və şagirdlərin milli ruhda tərbiyəsi məsələləri. *(Metodik vəsait).* *Bakı, "Adiloğlu" nəşriyyatı, 2005, 170 s.*

**Metodik vəsaitdə Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, xalq şairi Bəxtiyar Vahabzadənin yaradıcılığı pedaqoji təfəkkür işığında araşdırılır, eyni zamanda şairin əsərlərinin orta məktəblərdə tədrisi milli ruhda tərbiyə nöqteyi-nəzərindən tədqiq edilir.**

A $\frac{4705034000}{121\text{-}2005}$ qrifli nəşr

© "Adiloğlu" nəşriyyatı



# MÜƏLLİFDƏN

Azərbaycan xalqının fəxri, milli mücahid, şair-alim Bəxtiyar Vahabzadə haqqında çox yazılıb, çox xoş sözlər deyilib. İnanırıq, bundan sonra da xeyli elmi-tədqiqat işləri aparılacaq, neçə-neçə məqalə və kitablar nəşr etdiriləcəkdir. Buna onun yaradıcılıq inkişafındakı hər yeni keyfiyyət dəyişikliyi əsas verir. Şagird, tələbə, müəllim və gənclərin istifadəsinə verilən bu kitabda məqsəd şairin ədəbi əsərlərinin hər hansı sənətkarlıq məziyyətlərindən danışmaq deyil. Bu, filoloji tədqiqatın işidir. Bizim fikrimiz Bəxtiyar Vahabzadənin yaradıcılığını oxuculara pedaqoji təfəkkürün işığında təqdim etməkdir. Ümidvarıq ki, Bəxtiyar qəlbindən, Bəxtiyar qələmindən cücərən dəyərli fikirlər təkcə bu günlərimiz yox, gələcəyimiz üçün də böyük əhəmiyyət kəsb edəcək. Şairin əqidəsindən, məsləkindən bütövlükdə ömürlüyündən ibrət götürən gənc nəsil xeyli zənginləşəcək, ondan gərəkli bilgilər əldə edəcək. Çünki xalqının taleyini, vətənin tarixini təkcə tarix kitablarından deyil, o tarixi yaradanların əməllərindən və əsərlərindən də öyrənirlər. Bunlar saxtalaşdırılması mümkün olmayan mənbələrdir.

Belə deyirlər ki, "Tanrı yer üzünə göndərdiyi müqəddəsləri üç qismdə yaradıb: Peyğəmbər, alim və şair donunda". Bu müqəddəs ömür paylarından sonuncu ikisinin özündə şərəflə yaşadan B.Vahabzadəni örnək kimi gələcək nəsillərə təqdim etmək lazımdır. Bir pedaqoq-alim kimi deyərdim, nəinki lazımdır, hətta gənc nəsli Bəxtiyar nümunəsində tər-

biyə etməyə ciddi ehtiyac duyulur. Çünki tərbiyədə nümunənin böyük rolu təcrübədə çoxdan təsdiq edilmiş həqiqətdir. "Əxlaqi nümunə, müsbət əxlaqi keyfiyyətlərə malik insanların fəzilətli hərəkətləri əxlaq tərbiyəsində həqiqətən müstəsna rol oynayır. Fəzilətlərin tərbiyəsinə müsbət əxlaqi numunənin göstərdiyi təsirin mexanizmi son dərəcə sadə və qüvvətlidir. Müsbət nümunə insanın hisslərinə, zehninə, qəlbinə və psixikasına birbaşa, bilavasitə və həm də əyani surətdə təsir göstərir. Bu nümunəni qavramaq üçün xüsusi fikirləşməyə, iradə qüvvəsi sərf etməyə artıq ehtiyac qalmır. Müsbət əxlaqi nümunə çox vaxt birbaşa və müstəqil surətdə əqidə və inama çevrilir*".

Gənc nəslin təlim-tərbiyəsində, milli mənlik şüurunun formalaşıb, inkişaf etməsində, vətəndaşlıq duyğularının oyanmasında B.Vahabzadənin həyatı, elmi-pedaqoji, ictimai-siyasi fəaliyyəti - bütövlükdə şəxsiyyəti böyük təsir gücünə malikdir. Çünki ədib sağlığında klassikləşən şairlərdəndir. O səbəbə məktəbəqədər tərbiyə müəssisələrində, orta ümumtəhsil məktəblərində, habelə, digər təhsil ocaqlarında çalışan hər bir müəllim, tərbiyəçi, valideyn bu ünvana üz tutub, ondan yaradıcı surətdə bəhrələnməli, istifadə etməlidir. Biz bu tövsiyəni edəndə, təkcə pedaqoji müşahidə və qənaətlərimizə əsaslanmırıq, həm də mötəbər mənbələrə, nüfuzlu şəxslərin fikrinə, ictimai rəyə söykənirik. Şairin sevimli tələbəsi, millət vəkili, professor, Azərbaycan MEA-nın müxbir üzvü Nizami Cəfərov yazır: "Geniş xalq kütləsi və ilk növbədə gənclik B.Vahabzadəyə təkcə millətin böyük şairi, yaxud millət vəkili olaraq deyil, həm də mənəvi müəllimi (millətin müəllimi) kimi müraciət edərək, ondan müxtə-

---

** Bax: Z.Göyüşov. Fəzilət və qəbahət. Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1972, səh.408*



lif suallara cavab, məsləhət istəyir*".

Bu istiqamətdə N.Cəfərovun fikrini inkişaf etdirən akademik Bəxtiyar fonemeninin təsir gücünü belə dəyərləndirir: "Onun hələ gərgin fəaliyyəti bir yana, təkcə adı (Bəxtiyar Vahabzadə!) gəncliyə milli ruh vermiş şagirdləri, xüsusilə, tələbələri gələcək mübarizəyə səfərbər etmişdir**".

Odur ki, hazırladığımız vəsaitdə şagirdləri Bəxtiyar şəxsiyyətində, Bəxtiyar fəaliyyətində və Bəxtiyar yaradıcılığında tərbiyəvi, təqdirəlayiq, nümunəvi hər nə varsa, onu görməyə, ondan bəhrələnməyə istiqamətləndirməkdir.

---

** Bax: N.Cəfərov. Bəxtiyar Vahabzadə. "Azərbaycan" nəşriyyatı, Bakı, 1996, səh.50*

*** Yenə orada. Səh.54*

# I FƏSİL:

## Bəxtiyar Vahabzadə yaradıcılığı və şagirdlərin milli şüurunun formalaşdırılması məsələləri

Məşhur pedaqoqlar, şair və yazıçılar milli tərbiyəni xalqın tərəqqisində, intibahında mühüm şərt hesab etmişlər. Milli ruhda tərbiyə üçün öncə uşaq və gənclərdə milli mənlik şüuru formalaşdırılmalıdır. Milli mənlik şüurunun tərkib hissələri, komponentləri çoxdur. Görkəmli pedaqoq - alimlər Y.Talıbov və Ə.Ağayev yazırlar ki, "Milli mənlik şüuru millətin varlığı, özünəməxsusluğu, milli özünüdərk və özünütəsdiqinin, milli ləyaqətinin və ümumbəşəri keyfiyyətlərin məcmusudur. Milli mənlik şüurunun komponentlərinə millətin varlığı, mənəviyyatı, dili, xarakteri, adət və ənənələri, psixologiyası, mədəniyyət bütövlüyü, sosial-siyasi həyatın bütün sahələri daxildir".

Deyilən vacib komponentlərin məktəblilərin mənəviyyatında və davranışında təzahürü tərbiyə işi ilə məşğul olan hər kəsdən böyük ustalıq, xüsusi hazırlıq tələb edir. Bu, çox ciddi məsələdir. Milli mənlikdən məhrum olmaq mənsub olduğun xalqın dünəni, bu günü və gələcəyindən ayrı düşmək deməkdir. Türk xalqının böyük oğlu Mustafa Kamal Atatürk çıxışlarının birində demişdir: "Əgər dünyanın bizə hörmət etməsini istəyiriksə, hər şeydən əvvəl özümüzün, öz məmləkətimizə və öz millətimizə olan hörmətimizi həyatda hisslərimizlə sübut edək və başa düşək ki, milli mənliyi olmayan millətlər başqa millətlərin ovuna çevrilir".

Problem bu qədər ciddi və aktual olduğundan, Bəxtiyar Vahabzadə həyat və fəaliyyətinin bütün mərhələlərində tərbiyə işinin bu mühüm sahəsinə xüsusi önəm verməklə, geniş ictimaiyyətin nəzər-diqqətini bu sahəyə yönəltmişdir.



Bəxtiyar Vahabzadə çağdaş Azərbaycan poeziyasının istedadlı nümayəndələrindən biridir. Şair çoxşaxəli, əzəmətli bir yaradıcılıq yolu keçmişdir. Bu yolun bir qolu səhnəmizdən keçib, bir qolu ədəbi tənqidin təfəkkürlə müşayiət olunub, digər qolunda onun lirik "mən"i Azərbaycanımızı dolaşaraq, sərhədlərimizi aşıb, uzaq ellərə yetişib. Bu mənalı ömür yolu nə qədər çox istiqamətli olsa da, Bəxtiyar adlı bir ünvanda qovuşur: alim Bəxtiyar, şair Bəxtiyar, ictimai-siyasi xadim Bəxtiyar və s. Akademik Y.Qarayevin sözləri ilə desək, "Bəxtiyar xalqa poeziya ilə xidməti alim və müəllim xidməti ilə tamamlayır".

Heç şübhəsiz, bunların hər birisi ayrı-ayrılıqda bir insan ömrünün yüküdür. Bir insan ömründə bu yükləri birlikdə daşımaq əzəmətli olduğu qədər ağırdır. Buna yalnız dözüm, polad iradə və istedad sayəsində nail olmaq mümkündür. Sual olunur: Bəxtiyar ömürlüyündə bu qollardan hansı daha görümlü yerdə durur? Bunlardan birini digərindən fərqləndirmək çətin olsa da, bu barədə xeyli fikir formalaşıb. Xalq şairi Nəbi Xəzri yazır: "B.Vahabzadəni təbiət şair yaradıb. Poeziya elə bil, onun üçün, o da poeziya üçün doğulub... Mən heç cür təsəvvür edə bilmirəm ki, əgər yer üzündə şairlik sənəti olmasaydı da, o, yenə şer yazacaqdır, bayatı deyəcəkdir, nəğmə qoşacaqdır".*

Akademik Yaşar Qarayev isə şair Bəxtiyarı belə dəyərləndirir: "Bu gün çox zirvəli Azərbaycan poeziyasında Bəx-

---

***Bax: Azərbaycanın Bəxtiyarı. "Azərbaycan" nəşriyyatı, Bakı, 1995, səh. 43.**

tiyar zirvəsi təkrarsız qranit-qaya zirvəsi kimi, bütün cinahlardan görünür".*

Bəxtiyar zirvəsinə uzanan bu mənalı ömür yolunda həssas oxucu gah çılğın Bəxtiyarı, gah aşiq Bəxtiyarı, gah da ağrıları ilə baş-başa qalan qayğılı, düşüncəli Bəxtiyarı və nəhayət ağsaqqal, müdrik Bəxtiyarı görür.

Dağlar qoynunda dünyaya göz açan bu türk oğlu doğulduğu gündən bəri yol gedir. Bu yol "Bir məsləkin düz yolu, haqqın yolu"dur. Bu yolda, heç şübhəsiz, şairi müşayiət edən söz ordusudur. Bu ordu ölkələr zəbt etmək üçün yox, haqqın, ədalətin, bütövlükdə Azərbaycanımızın səsini dünyaya çatdırmaq üçün gedir... Niskildən qubarlanmış ürəkləri isitmək, alınmış, tapdanmış hüquqları qaytarmaq üçün gedir.

Yox, yox! Şair haqqında bu xoş sözləri dalbadal sadalamaqla, nə sübuta çalışmayaq ki, o, ancaq gözəl şairdir və bu sahədə daha çox diqqəti cəlb edir. Onda biz elm sahəsində fundamental tədqiqatlar aparmış bir alimin rolunu unutmuş olarıq. Sadəcə olaraq, tədqiqatımızın istiqaməti Bəxtiyar poeziyasından getdiyindən, o səbəbə biz bu əsərimizdə böyük şəxsiyyətin həyat və fəaliyyətinə, keçdiyi möhtəşəm yaradıcılıq yoluna ən çox şair müstəvisindən baxacağıq.

B.Vahabzadə bu ədəbi yola çıxanda, nə qədər məsul, həm də şərəfli bir işə girişdiyini yaxşı bildiyindən, şairin kimliyini, onun qarşısında duran vəzifəni belə bədii formula edirdi:

***Şair - Fikirlərin çırpınan seli,***
***Şair - Həqiqətin müğənnisidir.***

***Bax: Bəxtiyar Vahabzadə. Foto-kitab. Bakı, "Azərbaycan" nəşriyyatı, 1995, səh. 118.**



***Şair - Təbiətin danışan dili,***
***Şair - Cəmiyyətin üsyan səsidir.***
***Şair - Zəmanənin, əsrin vicdanı,***
***Şair - Tarixlərin şərəfi, şanı.***
***Şair - Bu dünyaya zamanın sözü,***
***Şair - Həqiqətin, haqqın güzgüsü.***

Bütün bu ciddi tələblər şairin təbiət qarşısında, cəmiyyət içərisindəki yeri və rolunu çox aydın göstərir. Sözünü həmişə üzə deyən, açıq-saçıq danışmaqdan çəkinməyən şair Bəxtiyar ömrünün bütün mərhələlərindən ancaq ürəyinin, vicdanının səsinə qulaq asıb, ağlına arxalanıb:

***Ağılsız işimi bildiyim yerdə***
***Mən ən ağıllıyam, ən ağıllıyam.***

"Ağıl - şəxsiyyətin bundan böyük mənəvi sərvəti yoxdur. Bunsuz - istedad axıra qədər açılmamış, əsas mənəvi və əxlaqi enerjisi gerçəkləşməmiş qalır" (Yaşar Qarayev).

Şair bu böyük mənəvi sərvətin misilsiz güc və qüdrətini nəsillərin təcrübə işığında belə şərh edir:

***Qədim ulu babamız,***
***Gücünə güvənirkən,***
***Məğlub olub min kərə,***
***Əqlinə güvənirkən,***
***Həmişə qalib gəlib***
***Özündən güclülərə.***

Şair B.Vahabzadə müstəsna xilqətdir. Hər cür sünilik, sxolastik hər nə varsa, onun xarakterinə, əməllərinə yaddır.

Onda hər bir hərəkət təbii və təmizdir. Güləndə də, ürəklə gülər, ağlayanda da, ürəklə ağlayan bu türk kişisi: "Yalnız ürəklə də öləcəyəm mən," - deyir.

B.Vahabzadə sözün həqiqi mənasında milli təəssübkeşdir, millət fədaisidir. Bu bəşəri hisslər şairin müxtəlif illərdə yazdığı əsərlərinə səpələnib, misralarına hopub, şerlərinin mayasını təşkil edir. Bu məsələdən bəhs edərkən, tədqiqatçılar haqlı olaraq yazırdılar ki, "B.Vahabzadənin iyirmi, otuz il əvvəl yazdığı şerlərində eyni pafos - milli köləliyə qarşı üsyan və milli özünüdərk çağırış ruhu hakimdir". Şairin əsərləri ilə tanış olan həssas oxucu öncə onun şerlərinin ritmində millətinə, vətəninə, keçmişinə min tellərlə bağlı bir ziyalının ürək çırpıntılarının eşidir. Bu səs, heç şübhəsiz, çoxlarını səfərbərliyə alır, narahat edən problemlər ətrafında bir daha düşünməyə təhrik edir.

Milli təəssübkeşlik geniş anlayışdır. Onu şərtləndirən amillərdən biri öz ana dilini sevmək, onu hər cür təcavüzdən qoruyub, qayğısına qalmaqdır.

Sual olunur ki, B.Vahabzadə ana dilinin üstündə nə üçün bu qədər əsir? Onun səbəbləri çoxdur, ancaq bir neçəsini qısaca belə şərh etmək olar. Öncə qeyd edək ki, bu dilin başı çox müsibətlər görüb. Ən dəhşətlisi budur ki, bu dil öz evindən, öz vətənindən qovulmuş, uzun əsrlər boyu bu dildə danışmaq, yazmaq qadağan edilmişdir. Dilimizə edilən təcavüz tarixdə xalqımızın ən böyük faciələrindən biri idi. "Axı, dil millət ola bilməyin mühüm şərtidir. Bunu aşağıdakı misralarda görürük:

***Dilimiz yasaq oldu,***
***Ruhumuz qəlbimizdə***
***Əbədi dustaq oldu.***



Dilin yasaq olması söz haqqının yasaq edilməsi demək deyilmi? Bəlkə də bütün azadlıqların ən önəmlisi budur. Çünki dilsiz nə tarixi öyrənə bilərik, nə də dilimizin əmrlərini. Buna görə də B.Vahabzadə dildən bəhs edərkən:

***Biz beləcə yaşardıq,***
***Yaşamadıq, süründük -***
***Əməlimizdə deyil,***
***Sözümüzdə göründük, -***

deyərək bağrına vurulan dağlara dünyanın kar olduğunu, bu müsibətlərə biganə qaldığını deyib, hayqırır"*.

İkincisi, şair demişkən:

***İlk mahnımız laylanı anamız öz südüylə***
***İçirir ruhumuza bu dildə gilə-gilə.***

Əsrlərdən bu dil yasaq edilsə də, dilini sevən kəslərin amalına sədd çəkə bilmədi, ağalar. Analar beşik başında körpələrinə bu dildə layla çaldı, oxşadı, dilini açdı. Nənələr bu dildə bayatısını qoşdu, nağıllarını söylədi. Ərənlər bu dildə qonaq qarşılayıb, bu dildə də düşmənə nifrət və qəzəbini yağdırdı. Beləcə, "Xalq öz komasında, öz əməlində yaşatdı dilini, varlığını da". O səbəbə ana dilimiz nəsildən-nəsilə, əsirdən-əsrə addıya-addıya bu günümüzə gəlib çatdı:

***Bu dil əcdadımızın bizə miras verdiyi***
***Qiymətli xəzinədir.***

---

***M.Halistin Kakul. Bəxtiyar Vahabzadənin "Hörümçək tor bağladı" şeri haqqında. "Ortadoğu" dərgisi, 1993, 28 noyabr.**

Bəli, bu dil ona görə qiymətli xəzinə, milli sərvətdir ki, orada xalqımızın neçə min illik ədəbiyyat, incəsənət və digər mədəniyyət nümunələri saxlanılır, ağrı-acıları yuva salıb, qəhrəmanlıqla dolu səhifələri cərgələnir. Şair demişkən: "Ürəklərə yol açan Füzulinin sənəti yaşayır".

Daha sonra məşhur dilçi alim Tofiq Hacıyevin sözləri ilə desək, - "Fərhad üçün külüng, Koroğlu üçün misri, Topçubaşov üçün bıçaq nədirsə, şair üçün də ana dili odur".

Uzun illər məşəqqətdən sonra ana dilimizə qismən sahib olsaq da, çox təəssüf ki, bu dilin şirəsini, tamını layiqincə bilmədik, müqəddəsliyini qorumadıq, əvəzində ögeyləşdirdik də, heç şübhəsiz, dilə dəyən zərbənin bir tərəfi uzaqlardan olsa da, digər ucu içimizdən idi. Ötən əsrin 30-cu illərindən başlamış, 90-cı illərə qədər bir sıra respublika rəhbərlərindən tutmuş bir çox ziyalı saydığımız digər təbəqənin nümayəndələri bu sahədə məsuliyyət daşıdıqlarını unutmuş, yuxarıların tapşırıqlarına kor-koranə qulluq göstərənlərə çevrilmişdilər. Belə hallarda şair doğma dilin taleyinə və müqəddəratına yabançı olan hər cür laqeydliyə, biganəliyə amansız oldu. Onu milli sərvət, müqəddəs nemət sanıb, dərk etməyənlərə anlatdı ki:

***Bu dil - bizim ruhumuz, eşqimiz, canımızdır,***
***Bu dil - bir-birimizə əhdi-peymanımızdır.***
***Bu dil - tanıtmış bizə bu dünyada hər şeyi,***
***Bu dil - əcdadımızın bizə qoyub getdiyi***
***Ən qiymətli mirasdır. Onu gözlərimiztək***
***Qoruyub, nəsillərə biz də hədiyyə verək.***

Bəri başdan onu qeyd edək ki, bütünlükdə Bəxtiyar poeziyası, onun şair tərcümeyi-halı, fəaliyyəti məhz bu milli ehtirasla aşılanan vətəndaşlıq amalının ifadəçisi və daşıyıcısıdır. Bu, onu göstərir ki, B.Vahabzadənin dil qarşısında tarixi xidmətləri əvəzsizdir. Ömrü boyu bu amala xidmət edən şair təkcə elmi-pedaqoji fəaliyyəti ilə kifayətlənməyib, insan qəlbinə daha tez yol tapan poeziyaya üz tutdu, sözün gücünə arxalandı. Müraciət hər hansı zümrəyə, təbəqəyə yox, bütöv millətə edildiyindən, vəzifənin nə qədər qlobal, ciddi və məsuliyyətli olduğunu göstərir. Çünki eşqimiz olan bu dil vətən, millət və torpaq sevgisinin başlanğıcıdır. Şair bu sevginin işığında ruhumuzun ötürücüsü, dərd və sevincimizin tərcümanı olan bu dilin şəxsi həyatımızda, cəmiyyətdəki misilsiz xidmətlərini poetik tərzdə şərh edir. Mənəviyyatı kasıb, milli ruhu sönük adamlara ana dilinin nə qədər ülvi, gərəkli olduğunu misraların səfində belə nişan verir:



***Övladları yer üzünə səpələnsə,***
***Pərən-pərən düşənlərin***
***Vəhdətidir ana dili,***
***Bu dünyanın***
***Hansı uzaq bucağında səslənirsə,***
***O bucağı mənim üçün***
***əzizlədən ana dilim!***
***Məni ana Vətənimin***
***Bütün oğul-qızlarına***
***Qohum edən ana dilim!***
***Sən gözlərə görünməyən***
***bir telsən ki,***
***Yol açmısan keçmişimdən gələcəyə,***
***Ana yurdun öz ruhunu***
***keçirirsən -***
***Bu nəsildən o nəsilə,***

*Bu ürəkdən o ürəyə.*
*Öz dərdimi, sevincimi*
*Dodağımda çağladanım,*
*Məni ana Vətənimə,*
*Bügünümə,*
*Sabahıma, dünənimə bağladanım.*

Təqdirəlayiq haldır ki, B.Vahabzadənin həyat və yaradıcılığında dilə məhəbbət, anaya məhəbbətlə bir yerdədir. Onun nəzərində bunların hər ikisi ərişi-arğacdır, biri-digərindən keçdiyindən ayrılmazdır. O səbəbə hər ikisi şair üçün doğma və əzizdir.

*Savadsızdır,*
*Adını da yaza bilmir*
*Mənim anam...*
*Ancaq mənə,*
*say öyrədib,*
*ay öyrədib,*
*il öyrədib.*
*Ən vacibi:*
*Dil öyrədib*
*Mənim anam...*
*Bu dil ilə tanımışam*
*Həm sevinci,*
*Həm də qəmi...*
*Bu dil ilə yaratmışam*
*Hər şerimi,*
*Hər nəğməmi.*

Bütün bu deyilənlər şair B.Vahabzadənin ana dilinə



hüsn-rəğbətinin az bir hissəsidir. Bütövlükdə "onun poeziyasında doğma ana dilinə dərin bir məhəbbət duyulur" (İlyas Əfəndiyev).

Bu xidmətləri ilə B.Vahabzadə M.Axundov cığırları ilə addımlayıb, sələflərindən N.Nərimanov kimi şəxsiyyətlərlə bir orbitdə qovuşur. Vaxtilə ana dilinin böyük tərbiyəvi əhəmiyyətindən bəhs edərək Nərimanov da yazmışdır: "Ana dili! Nə qədər rəfiq, nə qədər ali, hissiyyat-qəlbiyyə oyandıran bir kəlmə! Nə qədər möhtərəm, müqəddəs, nə qədər əzəmətli bir qüvvə! Ana dili! Bir dil ki, mehriban bir vücud öz məhəbbətini, şəfqəti-madəranəsini sənə o dildə bəyan edibdir. Bir dil ki, sənə hələ beşikdə ikən laylay şəklində öz ahəng və lətafətini sənə eşitdirib, ruhun ən dərin guşələrində nəqş bağlayıbdır"*.

Bəxtiyar Vahabzadə təkcə ana dilinin vurğunu deyil, həm də bu dildə böyük sənət əsərləri yaradanların, onun qədir-qiymətini bilib, keşiyində duranların da vurğunudur. "Şəhriyarı ona görə dəhşətli məhəbbətlə sevir ki, Heydər babaya nəhayət, həmin dildə salam göndərib" (**Tofiq Hacıyev**).

Doğma ana dilinə, bütövlükdə onun keşiyində duranlara belə sonsuz sevgi və qayğıları ilə Bəxtiyar Vahabzadə neçə-neçə qəlblərə yol tapır, könüllər fəth edir. Bu sevgini insanlarda çoxaltmaq üçün toxum kimi ürəklərə səpir. Niyyət saf və sağlam olduğu üçün öz bəhrəsini əlbəttə, verir: "Bir insanın öz xalqına və öz doğma dilini dəlicəsinə sevə bilmək qabiliyyətini mən Bəxtiyar Vahabzadədən öyrəndim" (**Ə.Şmide**).

---

***.Bax: Nərimanov N. Məqalələr və nitqlər. I cild, Azərnəşr, 1971, səh. 98-99.**

O da bəllidir ki, dünəninə sadiq, keçmişinə bağlı olmayan, öz doğma dilini sevməyən, onda danışmağı özünə ar bilən "fasonlu ədəbazlar" bütün zamanlarda şairin qarğış və nifrət oxuna hədəf olub:

***Ey öz doğma dilində danışmağı ar bilən,***
***fasonlu ədəbazlar***
***Qəlbinizi oxşamır, qoşmalar, telli sazlar***
***Bunlar qoy mənim olsun,***
***Ancaq Vətən çörəyi sizlərə qənim olsun.***

Mənəviyyatı kasıb belə nadanlar anlamırlar ki, dil, qoşma, bayatı, nağıl, dastan və telli sazlar babalardan əmanət qalmış milli-mənəvi dəyərlərimizin saxlanc yeri və bu günümüzə ötürücüləridir. Bir də onu unudurlar ki, "Doğma dildə kamil danışmaq insanın böyük ləyaqətidir" **(M.İbrahimov).** Odur ki, şair bir daha gənc nəslə bəyan edir ki, bu ləyaqətdən məhrum olan insanlar nə qədər miskin, yoxsul və şərəfsizdir.

Şerin müasir dəyəri bütün vətəndaşları ana dilinin həmişə fəal təəssübkeşi olmağa çağırır. Bu deyilənlər onu göstərir ki, Bəxtiyar Vahabzadənin bədii düşüncə tərzi, poetik təfəkkür mədəniyyəti də təbiətcə millidir. Elə buradaca görkəmli yazıçı Çingiz Aytmatovun şair haqqında dediyi aşağıdakı məşhur kəlamları xatırlamaq yerinə düşərdi: "Bu, müstəsna dərəcədə zəruri haldır ki, sən övladı olduğun xalqın nitq hissəsində fel olmağı bacarasan, xalqının canlı dil məmarlığına öz töhfəni verə biləsən. Bununla yanaşı, Vahabzadənin poetik təfəkkür mədəniyyəti daha üstün mahiyyət kəsb edir və millilikdən ümumbəşəri fövqə qalxır"*.

***Bax: Azərbaycanın Bəxtiyarı. "Azərbaycan" nəşriyyatı, Bakı, 1994, səh. 189.**



B.Vahabzadə ana dilinə məhəbbətini oxucularına təkcə zəngin poeziyasının qanadlarında çatdırmırdı. Özünə borc sandığı bu işi gündəlik fəaliyyətində - oxucu məktublarına cavab verməkdən tutmuş, rəsmi dövlət dairələrindəki çıxışlarında da nüayiş etdirirdi. Bu baxımdan, şairin əlifbamızın başına gətirilən oyunlara etirazı təqdirəlayiqdir. O, türkdilli xalqların əlifbasının kirillə əvəz edilməsini milli ləyaqətimizin tapdanması hesab edir. Millətin növbəti tarixi haqsızlığına dözməyən şair-publisist öz üsyankar səsini ucaldır: "Sovet İttifaqında yalnız türk-müsəlman millətlərinin əlifbası kiril ilə əvəz olunur. Heç Stalin və Mikoyana deyən olmayıb ki, əlifba dəyişmək millətlərin xeyrinədirsə, bəs, erməni və gürcü əlifbasını niyə dəyişmədiniz". Cavabı özündə əksini tapan sorğularla keçmişin qaranlıq səhifələrinə işıq salıb, dilimizə, mədəniyyətimizə edilən xəyanətin köklərini məntiqi dəlillərlə aşkarlayır.

234611

Çoxlarının xatirindədir. "1989-1990-cı dərs ili üçün tədris planları"nda Azərbaycan dilinin tədrisinə verilən saatların miqdarı rus dilinin xeyrinə azaldılmışdır. Xarici dillərin, o cümlədən, rus dilinin tədrisində siniflər iki qrupa bölündüyü halda, bu qayda Azərbaycan dilinin tədrisinə tətbiq edilmirdi. Bir sözlə, qərəzli, milli-etik normalara zidd, xeyli nöqsanları özündə əks etdirən tədris proqramına hamıdan öncə şair B.Vahabzadə etirazını bildirdi. Görkəmli dilçi-alim Yusif Seyidov və digər professor həmkarları ilə birgə MK-ya və Təhsil Nazirliyinə rəsmi müraciət etdilər. Şükürlər olsun ki, narahatçılıq əbəs getməyib, öz müsbət nəticəsini verdi. Belə ki, gənc nəslin milli şüurunun formalaşmasına mane olan çəpərlər nisbətən ortadan götürüldü. B.Vahabzadənin ictimai fəaliyyətində tez-tez rast gəldiyimiz belə hallar onu göstərir ki, şair ömrü boyu ana dilinin müdafiəçisi olub. Dillə bağlı

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

hər hansı qalmaqalda heç kəsə güzəşt getməyib. Öz mövqeyini açıq, səmimi və lazım gələndə, kəskin bildirib. Bunu oxucu məktublarına verdiyi cavablar da təsdiq edir.

Culfa rayonunda övladlarını orta məktəbdə rus bölməsinə qoymuş ixtisasca həkim olan bir valideyn şairdən uşaqların məktəbini dəyişib-dəyişməməsi barədə məsləhət istəyir. Həmin valideynə şairin cavabı belədir: "Yox, əzizim, mən sənin düşündüyün mənada gələcəyi görənlərdən deyiləm. Əgər belə olsaydı, mən də sənin kimi balalarımı və nəvələrimi Bakı şəraitində rusdilli məktəbə verərdim. Mən bunu eləməmişəm. Amma sən bir şeyi unudursan ki, ana dili millətin namusudur. Namus isə paltar deyil ki, onu havaya və fəslə görə dəyişəsən. El demişkən - namusu itə atıblar, it yeməyib. Amma yeyənlər var.

...Sizə məsləhətim budur ki, yenə havaya görə iş görəsiniz, çünki özünüz yazırsınız ki, sizin gələcəyə inamınız yoxdur. İnamınız yoxdursa, xalqın namus və qeyrəti olan ana dilini istədiyiniz zaman, istədiyiniz dilə dəyişə bilərsiniz. Sizin kimilər bundan ötrü dərd çəkməyə bilər. O ki qaldı mənə, mənim böyük Füzuliləri, Sabirləri və Üzeyir bəyləri olan xalqımın gələcəyinə də, onun dilinə və mədəniyyətinə də inamım çox böyükdür.

Siz hələ ən adi bir həqiqəti bilmirsiniz ki, ana dili vaxta görə seçilməməli, ana dili olduğuna görə, bütün dillərdən seçilməli və sevilməlidir*".

Bütün bu deyilənlərlə yanaşı, B.Vahabzadə ana dilimizdə ögey münasibəti digər sahələrdə də aşkarlayır. Bir pedaqoq kimi haqlı olaraq mövcud tədris müəssisələrində ana dilimi-

***Bax: Vahabzadə B. Şənbə gecəsinə gedən yol. Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1991, səh.227-228.**



zin tədrisi və təbliği sahəsində aparılan elmi-metodiki işlərin də yarıtmaz olduğunu qeyd edir. Yazır ki, hazırkı tədris üsulu ilə ana dilimizə məhəbbət oyadıb, onu gənc nəslə sevdirə bilmərik: "Bizim məktəblərimizdə dil öyrənməyi qrammatikadan başlayırlar. Bu cansıxıcı qrammatika şagirdlərdə dilə məhəbbət oyatmır, əksinə onu bezdirir. Savadsız ana, nənələrimizin bizə ana dilində danışmağı məgər qrammatika vasitəsi ilə öyrətmişlər?

Dili qrammatikadan çox uşaqların hər gün təmasda olduqları məişət və mühitlə bağlı canlı danışıq və dialoqlar əsasında öyrətməyi daha səmərəli olmazmı?"*

Ana dilinin təbliği sahəsindəki bu yenilik axtarışları bir pedaqoq kimi onun fəaliyyətinin əsas məzmununu təşkil edir. Bir müəllim kimi çoxillik məktəb təcrübəmə əsasən deyə bilərəm ki, müasir standart proqram və dərsliklərlə ana dilimizin estetikasını, onun şəhdi-şirəsini bütün çalarları ilə şagirdlərə çatdırmaq mümkün deyil. Onun üçün müəllimlərin əl-qolunu bağlayan şablon iş üsullarından imtina edib, pedaqoq və psixoloqların birgə səyi ilə yeni üsul və vasitələr axtarılıb tapılmalıdır.

Şairin həyat və fəaliyyətindən, şer və poemalarından misal gətirdiyimiz nümunə və parçalarda B.Vahabzadənin ana dili uğrunda mübarizəsini qabartmaqda məqsəd heç də o deyil ki, guya o illərdə dilini sevən, qoruyan təkcə Bəxtiyar idi. Əsla yox. Bəri başdan onu qeyd edək ki, Bəxtiyar kimi milli təəssübkeşlər 50-70-ci illərdə, əlbəttə, çox az idi. Hətta onları barmaqla saymaq olardı. Ancaq o da bir həqiqətdir ki, bir çox ziyalılar, sənət-söz əhli və digər təbəqədən olan vətəndaşlar da ana dilini sevir, ona olan sayğılarını bu və ya digər

***Bax: Yenə orada, səh. 151**

formalarda bildirirdilər. Etiraf etməliyik ki, o zamanlar ana dili sevgisinə uzanan bu yollarda hər hansı qırmızı işıq yandıqda, çoxları qorxub dayanar, tərəddüd edib, bu yoldan çəkinərdi. Bəziləri də bu sevgini öz işlərində yaşatmağı üstün tutardı. Ancaq onlardan fərqli olaraq, B.Vahabzadə bu yollardakı hər cür təqib və təzyiqlərdən qorxmayıb "Ana dili meydanına" atıldı. "Sabirin, Şəhriyarın şerdə qeyrət yolunu" cəsarətlə davam etdirdi. Bu cürətli hərəkətləri ilə şair Bəxtiyar klassik sələflərinin ruhunu təkcə poeziyasında yox, həm də kəskin vətəndaşlıq mövqeyində, əməllərində yaşadırdı. Əlbəttə, bu, böyük hünər idi. Bax, bu böyük hünərin işığında Bəxtiyar Vahabzadə çoxlarından seçilirdi. Bütün çətinliklərə baxmayaraq, zamanın siyasi, ictimai ziddiyyətlər burulğanından keçən yolda şairin qazandığı, heç şübhəsiz, itirdiklərindən çox idi. "Bəxtiyar Vahabzadənin bütün əsərlərinin canına, qanına hopmuş ana dili konsepsiyası da onun şairliyinə həqiqi vətəndaş, siyasi xadim titullarını əlavə etmişdir, desək, heç də yanılmarıq" **(Gəray Fəzli).**

Şair B.Vahabzadə təkcə dilimizin yox, həm də Azərbpycanımızın, onun təbiətinin musiqisinin milli təmsilçisidir. S.Vurğundan sonra bu missiyanı şərəflə daşıyanlardan bəlkə də birincisi məhz B.Vahabzadədir. Bunu bizə dəməyə təkcə şairin poeziyası əsas vermir. Bu varislik bir neçə mənbədən start götürür. S.Vurğun kimi onun da elmi-pedaqoji, ictimai-siyasi fəaliyyəti təqdirəlayiqdir. Şairin digər sələflərinin ideyaları, güneyli, quzeyli hər iki Azərbaycanın milli istiqlal və azadlıq amalı onun bir şəxsiyyət kimi formalaşmasına təsir göstərdi.

S.Vurğunun milli-ictimai düşüncə tərzi, bədii təfəkkür ənənəsi öz əksini bu və ya digər formada B.Vahabzadə poeziyasında tapdı. S.Vurğun dünyaya "Azərbaycan" monoloqu



ilə xitab etdi. B.Vahabzadə isə dünyada "Azərbaycan oğlu" olması ilə fəxr etdi:

***Kökün üstə bitmişəm,***
***Şöhrətim var, şanım var.***
***Mənim gələcəkdə də***
***Öz əhdi-peymanım var.***
***Azərbaycan oğluyam.***

B.Vahabzadənin Azərbaycan oğlu olmasını təkcə özümü deyir? Yox, bunu şairin əsərlərinin qayəsi, Vətən qarşısındakı misilsiz xidmətləri, Vətən torpağının hər qarışı, gülü-çiçəyi, zümzüməli bulaqları, sərv boylu çinarları da söyləyir:

***Şerimin mayası - bu qaynar nəfəs -***
***Sənin öz çiçəyin, sənin öz barın.***
***Şerimdə dil açıb danışmırmı bəs,***
***Sənin bulaqların, göy çinarların?***
***Mən həm bakılıyam, həm lənkəranlı***
***Gəncəli, qubalı, həm naxçıvanlı,***
***Şəkili,***
***Şirvanlı***
***Qarabağlıyam.***
***Bütöv Vətənimə, bütöv bağlıyam.***
***Mən sənin qoynunda gəldim cahana,***
***Özün bəxş elədin Azərbaycana.***

Vətəndə doğulub kiminsə oğlu olmaq təbiidir. Ancaq Vətən oğlu olmaq hər kəsə qismət olmur. Bu şərəfi ancaq vətən özü bəxş edər. Bir də ki, Vətən uğrunda ölməyə gələnlər buna nəsib ola bilər.

B.Vahabzadəni S.Vurğunla müqayisə etməkdə məqsədimiz heç də birincini göylərə qaldırıb, ideallaşdırmaq deyil, axı, B.Vahabzadənin şəxsiyyəti, həyat və fəaliyyətinin bütün göstəriciləri belə bir müqayisə aparmağa imkan verir. Bu, onun halal haqqıdır. Bir də biz nə karəyik, bu adları bizdən öncə böyük şəxsiyyətlər qoşalaşdırıb. Güneyli ustadımız Şəhriyar xalq şairi S.Rüstəmə göndərdiyi məktubda gör nə yazırdı:

***Qardaşların gözündən öp,***
***Bəxtiyarın üzündən öp,***
***Səmədin də sözündən öp,***
***Mən də təkəm, sizə qurban***
***Tək canım hamuza qurban..!***

Ötən əsrin 50-ci illərinin ortalarından etibarən S.Vurğunun işini elmdə, mətbuatda, publisistikada, xüsusən də, poeziyada davam etdirmək şərəfli B.Vahabzadəyə nəsib oldu. Bunu şairin ictimai-siyasi fəaliyyətinin məzmununda və şəxsi tərcümeyi-halında S.Vurğunla səsləşən konkret məqamlar da təsdiq edir. S.Vurğunun 1945-ci ildə cəmi 6-7 şeri işıq üzü görmüş bir şairdə istedad və ümid qığılcımlarını görüb, Yazıçılar İttifaqına qəbul olunmasını təklif etdi və poeziya zirvələrinə gedən yollarda xeyir-dua verib, uğurlar arzuladı. Eyni xidməti 20-30 ildən sonra B.Vahabzadə təkrar etdi. Belə ki, yaradıcılıq aləminə kövrək qədəmlərini atan gənc yazarlara kömək əlini uzatdı. Öz faydalı məsləhət və göstərişləri ilə onlara poeziya yollarında düzgün istiqamət verdi. Təkcə gənclərəmi? Yox, digər qələm yoldaşlarının da yaradıcılığına həssas münasibət bəsləyib, həmkar köməyini əsirgəmədi; oxuculara təqdim etmək, ön söz yazmaq, uğurlu yol



arzulamaq, açıq məktub yazmaq - bütün bunlar B.Vahabzadənin çoxsahəli fəaliyyətinin əsas isiqamətlərindən biri idi. Heç şübhəsiz, bu seçimdə şairin əsas götürdüyü bircə ölçü vahidi vardır, o da istedaddır. İstedadı vaxtında görüb, üzə çıxarmaq xalqın gələcəyinə işıq tutmaq kimi xeyirxah bir işdir. Əlbəttə, bu günlər qazandığı yaradıcılıq uğurlarına görə bir çox qələm əhli ustad Bəxtiyara minnətdardır.

B.Vahabzadənin S.Vurğunla ünsiyyətini ifadə edən bir detalı da xatırlamaq olar. Məlum olduğu kimi, B.Vahabzadənin elmi tədqiqat işi üçün mövzu axtarışında yenə seçim S.Vurğun oldu. Elmin zirvəsinə uzanan yolun iki mərhələsi də (namizədlik və doktorluq) S.Vurğunun yaradıcılığı idi. Elmi-tədqiqat prosesində gənc Bəxtiyar ustadda yaxşı nə varsa, götürürdü, görmək istədiyi, ancaq rast gəlmədiklərini də özündə əks etdirməyə çalışırdı.

Əlbəttə, bu müqayisənin fonunda, oxucu klassik ənənələrə möhkəm bağlı, nəsillərin estafetini ləyaqətlə daşıyan B.Vahabzadəni görür və "Köküm üstə bitmişəm, şöhrətim var, şanım var" - deyən şairin qürrə və fəxarətinə sevinir, səmimiyyətinə inanır. Elə bu inamın işığında da söykəndiyimiz mənəvi sərvət və dayaqlarımızı lap aydın görür.

Onu da qeyd edək ki, B.Vahabzadənin böyük vətəndaşlıq amalı, xalqına namuslu xidməti, təkcə sələfləri ilə yox, müasirləri ilə müqayisə edəndə də, diqqəti çəkir, açıq surətdə fərqlənir.

B.Vahabzadənin **"Azərbaycan oğluyam"** və bu silsilə şerlərindən bəhs edəndən sonra akademik Mirzə İbrahimov yazırdı ki, "biz Bəxtiyar Vahabzadə yaradıcılığının əsas məzmununu, onun leytmotivini təşkil edən məsələyə yaxınlaşmış oluruq. Bu, Vətən eşqi, Vətən mövzusudur. Şair özünü bir insan kimi dərk etməsini, bir vətəndaş kimi formalaş-

masını, əsərlərinin ruhunu Vətən eşqinin ürəyinə dolması ilə bağlayır:

***Yurdum, Vətənim, şöhrətim, andım,***
***Bir vaxt ki, sənin eşqinə yandım,***
***Bildim ki, əsil insanam, insan!***
***Bildim ki, nədir istəyim, arzum bu cahanda.****

Şerdə vətəndaşlıq hissi çox güclü ifadə olunmuşdur. "Vətən və Vətəndaşlıq - bədən və ruh kimi bir-birini tamamlayan iki mövcudiyyət şairin bütün əsərlərinin poetik cövhərini təşkil edir" **(Aydın Məmmədov).**

"Vətəndaş! Nə gözəl səslənir bu söz". Əgər belə olmasaydı, bu sözü şerinin sərlövhəsinə, kitabının titul səhifəsinə çıxarmazdı. Bu söz şairin təkcə poeziyası üçün yox, bütöv yaradıcılığı üçün xarakterikdir. B.Vahabzadə vətəndaşlıq əzminə yiyələnmiş insanı kamil, ləyaqətli və qeyrətli sanır:

***Vətəndaş!***
***Nə gözəl səslənir bu söz,***
***Vətən əbədidir,***
***Gedərgiyik biz.***
***İnsan qüdrətlidir öz vətənində,***
***Bilirik, dünyaya biz niyə gəldik.***

Bəli, şair həyatı boyu dünyaya hansı missiya ilə gəldiyini unutmadı:

---

***Bax: Azərbaycanın Bəxtiyarı. "Azərbaycan" nəşriyyatı, Bakı, 1995, Səh.9.**



***O bizi yaradan,***
***Biz ona bəndə,***
***Yaradan uğrunda ölməyə gəldik.***

Əgər:
***Ölməyi bacarmasaq,***
***Vətən ölər, Vətənçün.***

Şairin gəldiyi poetik qənaət belədir. Vətəndaşlıq hissi insanın hərtərəfli inkişafının mühüm komponentlərindən biri olduğundan, şair bu hissə həmin xalqın mənəvi tərəqqisinin göstəricisi kimi baxır. Əhalinin bütün təbəqələrindən olan insanlarda bu hiss formalaşıb, möhkəm əqidəyə çevrilməyibsə, o ölkə, xalq tərəqqi edə bilməz. Vətəndaşlıq hissi sönük adamdan heç bir vətəndaş fədakarlığı, vətəndaş igidliyi gözləmək olmaz. Odur ki, şair çoxillik fəaliyyətində xalqımızda bu hissin erkən oyadılması naminə bütün təsirli vasitə və yollardan istifadə edirdi.

B.Vahabzadə bütün yaradıcılığı boyu gənc nəslə anladır ki, vətəndaş olmaqdan öncə, müstəqil vətənin olmalıdır. Vətəni olan sözün böyük mənasında Vətəndaşdır. Vətənsiz insan qürursuz, hüquqsuz bir varlıqdır. Bu hüquq ancaq vətən uğrunda mübarizələrdə qazanılır:

***Öz yurdumda qul olub, əsr yarım əyildim,***
***Mən vətəndaş deyildim!***
***Vuruşdum gecə-gündüz, vuruşdum səhər-axşam,***
***Bayraq qalxdı...***
***Mən bu gün***
***Vətəndaşlıq almışam!***

Şairə görə vətəndaşlıq insanlığın başlıca şərtidir. Dünyanın dəyərli adamı olmaq üçün ilk növbədə öz Vətəninin vətəndaşı olmalısan.

B.Vahabzadə Vətənin, vətəndaşlığın nə demək olduğunu təkcə poeziyasının ecazkar dili ilə yox, həm də təmkinli publisist qələmi ilə də aydınlaşdırmağa çalışır: "Dünyaya göz açdığım zaman ilk dəfə ayağımızı basdığımız torpaq - Ana Vətəndir. Sonralar min ölkəyə gedə bilər, min ölkənin suyunu içib, havasını uda bilər, neçə-neçə torpağın müvəqqəti sakini ola bilərik. Lakin bu torpağın, bu ölkənin heç biri bizə doğma torpağımızı əvəz edib, Ana Vətən ola bilməz... Vətən yalnız torpaq deyil, Vətən, hər şeydən əvvəl, mənəvi keyfiyyətləri ilə bu torpağın üstündə yaşayan xalqın dili, tarixi, mədəniyyəti, adət-ənənəsi, bir sözlə, ruhu və psixologiyası ilə Vətəndir. Vətənə bu mənəvi keyfiyyətləri ilə bağlanmış adam Vətəni uğrunda hər fədakarlığa, hətta ölümə də gedə bilər" **("Ömürdən səhifələr").**

Göründüyü kimi, şair Vətəni təkcə coğrafi ərazi, doğulduğu məkan kimi yox, daha geniş anlamda təqdim edir. Vətənə şair müstəvisindən belə bir baxış əlbəttə, onun müqəddəsliyini, toxunulmazlığını gənc nəsil qarşısında bütün incəlikləri ilə açıb göstərir. Bəli, Vətən öncə yaddaşdır. Xalqımızın mənəvi-əxlaqi həyat təcrübəsi, adət-ənənəsi bu yaddaşda toplanıb. Bu yaddaşı hər cür erroziyadan qorumaq milli əxlaqi sərvətdən məhrum olmaq deməkdir. Vətən tarixdir! Xalqın tarixi taleyi bu səhifələrdə həkk olunub. Bu tarixi unutsaq, bütövlükdə keçmişimizin üstündən xətt çəkmiş olarıq. Vətən vicdandır! Bu vicdandan məhrum olma, ən azı şərəfsizlikdir.

B.Vahabzadə təkcə vətəndaşın kimliyini, vətənin nələrdən ibarət olduğunu anlatmaqla kifayətlənmir. Onun vətən



sevgisinin bir qatında vətən uğrunda fədakar mübarizə ruhu hakimdir. Buna görədir ki, Vətəni yox, öz şəxsi mənfəəti üçün çalışan nadanların başında tufan qopartmaqdan ötrü şer ordusuna çox ciddi tapşırıqlar verir:

***Sən atəş ol, sən od ol,***
***yandır da sən, yox da sən,***
***ildırım ol, çox da sən,***
***Göstər öz işığında bu dünyaya özünü,***
***Bir an yumma gözünü,***
***Həm gör sən, həm də göstər!..***
***Sən düşün dərin-dərin, düşündür dərin-dərin***
***Vətənini, elini danan tüfeylilərin***
***Vətənçin yox,***
***Manatçın yanan tüfeylilərin***
***yumruğa dön başında.***
***Keşikçi ol bu yurdun torpağında, daşında.***

1964-cü ildə yazdığı **"Mənim şerim"** adlı bu əsəri ilə şair B.Vahabzadə özünün vətəndaşlıq lirikasının ideya istiqamətini bir daha bəyan etdi. Şair oxucusuna təkcə vətənin sayıq keşikçisi olmağı təlqin etmir. O, vətənə heyranlıqla vurulmağı da tövsiyə edir:

***Əmin kimi vurul, oğlum,***
***Bu Vətənin***
***Torpağına, daşına sən!***
***Vurul dedim!..***
***Bu sözdəki hikmət ilə yaşa oğul,***
***Zaman-zaman...***
***Mən deyərdim, yaşamayır***

***Vurulmayan!***
***Vurulanda biz həyata***
***Bənd oluruq,***
***Doğularkən vurulmuruq***
***Vurulanda, doğuluruq!..***

Yalnız Vətənə vurulanlar, dəlicəsinə sevənlər onun mənasını dərk edir, müqəddəs olduğunu anlayır. Beləläri yenidən doğulub, Vətənin oğlu olurlar. Onlar əsil vətəndaşı adi insanlardan ayırır, şərəflini şərəfsizdən seçə bilir. Bəs, vurulmaq nə zaman mümkündür? Vətən amalın, məsləkin olanda. İmanına güvənəndə, inamına inananda. Bir amala, bir məsləkə qulluq edənlər vüqarlı, əyilməz olurlar. Axı, inam kortəbii olanda davamsız olur. İçəridən gəlib, əqidəyə çevriləndə, ömrü uzanır. Şair övladlarının simasında bu günkü gəncliyi mənəvi bütövlüyə səsləyir:

***İstəyirəm, yaşayasan əsgər kimi...***
***Sən nəyinsə keşiyini çəkə-çəkə...***
***Vüqarını əyməyəsən,***
***Tək vətənin qarşısında***
***Əyiləsən əsgər kimi!***
***İstəyirəm, sən alışıb,***
***sən yanasan,***
***əsgər kimi.***

Şairin fikrincə, Vətəni əsgər kimi sevib, onun keşiyini çəkməkdən böyük şərəf yoxdur. Bu bədii ümumiləşdirmə yüksək poeziya nümunəsi olmaqla bərabər, əsil aqil kəlamıdır.

Bəxtiyar ünvanlı belə məfkurəli şerlərin əxlaqi dəyəri, təsir qüvvəsi böyükdür. Gənclərin vətəni milli sərvət kimi qorumaq məsuliyyətini artırır, onun fəal təəssübkeşi olmağa hazırlayır.



Əgər biz B.Vahabzadəni təkcə Azərbaycanı düşünən vətəndaş olduğunu zənn etsək, səhv olarıq. Bu onun vətəndaş kimi fəaliyyətinin ancaq bir istiqamətidir. "Atamdan çox öz çağımın övladıyam," - deyən şair dünyada baş verən irili-xırdalı bütün hadisələrə də biganə qala bilmir.

B.Vahabzadə bir şair, vətəndaş, pedaqoq kimi Vətənini sevib və digər xalqların da Vətəninə hörmətlə yanaşmaqla bərabər, gənc nəsli də bu ruhda tərbiyə etməyin qayğısına qalır. Onların hiss və duyğularını təkcə poeziyanın ecazkar dili ilə oyatmır, həm də publisist qələminin gücü ilə də şüur və qəlblərə nüfuz edir.

B.Vahabzadənin Vətən məhəbbətinin bir layında yaralanmış, paralanmış Vətənin tarixi taleyi durur. Vətənin başına gətirilən müsibətləri anladığı ilk gündən onun səbəblərini, tarixi köklərini aşkarlayıb, gənc nəslə çatdırmaq üçün mötəbər mənbələrə üz tutdu, biganəliyin tozu basmış tarixin səhifələrini vərəqlədi, yatmış yaddaşları silkələdi. Ən çətini və şərəflisi o idi ki, şair bunların hamısını milli məsələdən, müstəqillikdən danışmağın, yazmağın yasaq edildiyi bar zamanda etmişdir. Ən başlıcası, tarixin köksündə yara kimi qalan "Gülüstan" müqaviləsini poemasının sərlövhəsinə gətirib, Azərbaycanı hərraca qoyanları lənətlədi.

Ötən əsrin 50-60-cı illərində sovetlər qızğın tərənnüm ediləndə, gənc Bəxtiyarın içində başqa hisslər baş qaldırırdı. Bu hiss və düşüncələr repressiya ab-havasını poeziyaya gətirdi. Belə ki, şair 1958-ci ildə yazdığı **"Gülüstan"** poemasını 23-26 oktyabr 1960-cı ildə o vaxtkı Nuxa, indiki "Şəki fəhləsi" qəzetində çap etdirdi. Heç şübhəsiz, qəzet əl-əl res-

publikanı gəzsə də, rəsmi dairələr tərəfindən çox pis qarşılandı. Elə bununla da, şairin özünün dediyi kimi, ağır və əzablı günləri başlandı. Bu hadisədən bir qədən öncə şairin yenicə nəşr olunan **"Köklər, budaqlar"** kitabının oxunması rəsmi qaydada qadağan edildi, kitabxanalardan yığışdırıldı. **"Gülüstan"** poeması və ana dili haqqında yazdığı şerləri tənqidə hədəf oldu, üstəlik, şair haqqında böhtan dolu məqalələr də çap edilməyə başlandı. Haqsızlığın dərəcəsinə bax?! Keçmişin qaranlığına işıq tutmaq üçün şam kimi alışıb yanasan, gilə-gilə əriyəsən, bunu da sənə qəbahət sayalar. Bütün məhdudiyyətlərə baxmayaraq, şairin belə cürətli hərəkəti, əlbəttə, o dövrdə özünüdərkə gedən yolda atılan addımlardan biri idi. Çox təəssüf ki, bu addımlar, qeyd etdiyimiz kimi, təhqir və təqiblərlə qarşılansa da, şairi qorxutmadı. Əksinə, dünyagörüşündəki bəzi tərəddüdləri dağıtdı, düzgün yolda olduğuna inamını artırdı.

Bizcə, "Gülüstan" poemasının yazılma səbəblərini, əsərlərin ideya-bədii qayəsini, ictimai-siyasi əhəmiyyətini gənc nəslin daha yaxşı başa düşməsi, şairin vətəndaş yanğısını dərindən duyması üçün tarixin bəzi məqamlarını göz önünə gətirmək lazımdır.

Məlum olduğu kimi, "Gülüstan" müqaviləsi 1813-cü il oktyabrın 13-də Qarabağın Gülüstan kəndində bağlanmışdır. Müqavilənin 3-cü maddəsində yazılırdı: "Şah Əlahəzrətləri özünün Əlahəzrət Ümumrusiya İmperatoruna səmimi dostluğunun sübutu üçün həm öz adımdan, həm də İran taxtının Ali vərəsələri adından (aşağıdakı) xanlıqların Rusiya İmperiyasının mülkiyyətinə məxsus olduğunu təntənəli şəkildə qəbul edir. İndi Yelizavetpol adı ilə əyalətə çevrilmiş Qarabağ və Gəncə, həmçinin, Rusiya İmperiyasının hökmranlığında olan Şəki, Şirvan, Dərbənd, Quba, Bakı və Talış xanlıqlarını həmin xanlıqların torpaqları ilə birlikdə..."



Müqaviləni Rusiyanın Gürcüstandakı Baş Komandan və müvəkkil Nikolay Rtişev, İran Dövlətindən müvəkkil Əbülhəsən xan imzaladılar. Hələ bu, Azərbaycanı didib-parçalamaq azmış kimi, bir az sonra 1828-ci il fevralın 10-da İranın Türkmənçay kəndindəki müqaviləyə əsasən, İrəvan xanlığı və Naxçıvan xanlığı Rusiya İmperiyasının tam mülkiyyətinə verildi. Müqaviləni Rusiya tərəfindən Əlahiddə Qafqaz korpusunun komandanı general İvan Paskeviç, şah Əlahəzrətləri tərəfindən şahzadə Abbas Mirzə imzaladı.

Dəhşətə bax: "Tərəflər kim idi? Hər ikisi yad!" Biri Azərbaycanın başı üstə qılınc tutan, digəri vuran tərəfi. Bu murdar əllər birləşərək təkcə coğrafiyamızı yox, həm də mənəviyyatımızı, əlifbamızı yarı böldü. Onun maddi və mənəvi dayaqlarını məhv etdi. Milli qürurunu sındırıb, özünü özündən uzaqlaşdırmağa, tarixini saxtalaşdırmağa məcbur etdi. Azərbaycan artıq yer üzündən, tarix səhnəsindən silinmək təhlükəsi ilə qarşılaşmışdı. Bütöv millət miqyasında heysiyyətə, izzət-nəfsə təcavüz tarixin ən böyük ədalətsizliyi idi. Ancaq bütün təzyiq və işgəncələrə baxmayaraq, Vətənini, xalqını bütöv azad, müstəqil görmək istəyən oğullar tapılırdı. Tapılsa da, çox təəssüf ki, həmin oğullar zaman-zaman susdurulub, məhv edilirdi. Əlbəttə, bu çoxqatlı itkilər indi də şairin içində çoxsaylı ağrılar yaradır, hüşunu ərşə qaldırır. B.Vahabzadə "Gülüstan" və "Türkmənçay"dan sonra Qırmızı ordunun yürüşü ilə Azərbaycanı, bütövlükdə Turanın böyük bir hissəsini zəbt edən quruluşun dağılacağına, xalqının istiqlala qovuşacağına inanırdı (ancaq sonralar özünün etiraf etdiyi kimi, bu qədər tez olacağına yox). Əgər inanmasaydı, əsl vətəndaşlıq qeyrət və cəsarəti göstərərək, hələ Sovet inzibati-amirlik rejiminin tüğyan etdiyi bir vaxtda sələflərinin

haqq səsini yenidən ucaltmazdı:

*Bəs, hanı həqiqət, bəs hanı qanun?*
*Böyükdür bu yurdun tarixi, yaşı.*
*Bəs, hanı köksünə sərhəd qoyduğun*
*Bir vahid ölkənin iki qardaşı?*
*Görən, bu hicrana, bu müsibətə*
*Onların sözü nə, sualı nədir?!*
*Bu xalq, əzəl gündən düşüb zillətə,*
*Öz doğma yurdunda yoxsa kölədir?*

Öz tutarlı, kəskin mühakimələri ilə təcavüzkarları haqq-ədalət məhkəməsinə çəkən şair bəşəri ideyaları uca tutaraq, yer üzündə hər cür təcavüzə, qul psixologiyasına qarşı çıxır. Xalqının halal haqqının, hüquq və mənliyinin müdafiəsi üçün və Vətənin bütövlüyü naminə hər bir vətəndaşı mübarizəyə çağırır:

*Hanı bu ellərin mərd oğulları?*
*Açın bərələri, açın yolları*
*Bəs, hanı bu əsrin öz Koroğlusu -*
*Qılınc Koroğlusu, söz Koroğlusu?*

Babaların qılınc kölgəsində saxladığı əmanətə - Vətənə xəyanət edildiyi üçün onun oğullarını qeyrətsizlikdə günahlandırır:

*Babaların şəni, şərəfi, əlbət,*
*Bizə əmanətdir, böyük əmanət...*
*Yoxmu qanımızda xalqın qeyrəti?*
*Belə saxlayarlar bəs, əmanəti?*



Göründüyü kimi, fikrin ictimai-siyasi meydanı çox genişdir. Vətənin bütövlüyü uğrunda mübarizəyə sənətkar müdaxiləsi daha kəskin və qətidir. Uzun illər insanlara dostluq, əmin-amanlıq və sülh müqaviləsi kimi yeridilən hər iki bağlantının əsl mahiyyətini açıb göstərdi. İran despotunun, Rus İmperiyasının müstəmləkəçilik, işğalçılıq siyasətini pisləməklə qəflət yuxusunda olanları oyatdı. Ozamankı bürokratik aparatın, ənənəvi cahilliyin maskasını yırtdı. Bu, böyük bir xalqın tarixi faciəsinə imza atan "Eynəkli cənabla, təsbehli ağa"ların bu günkü nəvələrini təşvişə saldı. O illərdə "böyük qardaşa" yad demək, məkrli qonşuların iç üzünü açıb, xalqa çatdırmaq, əlbəttə, həyatı ölüm təhlükəsi qarşısında qoymaq idi. Bu baxımdan, poema təkcə B.Vahabzadə yaradıcılığının yox, bütövlükdə Azərbaycan poeziyasının nailiyyəti idi. Əsər kitabxanalardan tez yığışdırılsa da, onu ürəklərdən götürmək mümkün olmadı. Az bir zamanda əldən-ələ gəzərək onu sevənlərin də, istəməyənlərin də diqqətini cəlb etdi, könüllərə yol tapdı. Bu məsələdən danışarkən, Nizami Cəfərov əsərin təsir gücünü, ictimai-siyasi nüfuzunu belə dəyərləndirir: **"Gülüstan"** Azərbaycan poeziyasının 30-cu illərdən sonra kifayət qədər ucadan deyilmiş, bəlkə də ilk namuslu sözü idi ki, poetik təfəkkürün sərhədlərindən kənara çıxıb, ümumən, milli ictimai düşüncəni silkələdi. Yalnız məsələdən o qədər də hali olmayan geniş xalq kütləsi, milli ziyalılar deyil, dövrün "ideologiya generalları" da şairin cəsarətinə heyran qaldılar. Və xalq bundan sonra öz şairini daha diqqətlə (!) "oxumağa" başladı"*.

Digər tədqiqatçılar isə **"Gülüstan"** poemasının ictimai-

***Cəfərov N. Bəxtiyar Vahabzadə. "Azərbaycan" nəşriyyatı. Bakı, 1996, səh.30.**

siyasi əhəmiyyətindən, tərbiyəvi rolundan danışarkən haqlı olaraq B.Vahabzadəni M.Ə.Sabirlə müqayisə edirlər: **"Gülüstan"** poemasını ideya baxımından çağdaş poeziyamızın heç bir əsəri ilə müqayisə etmək olmaz. Bu əsər azadlıq uğrunda milli mübarizəmizin rəmzinə çevrilərək, xalqımızın bütöv bir nəslini bu ruhda tərbiyə olunmasında misilsiz rol oynamışdır. Bu mənada, **"Gülüstan"** poemasının dəyərini Abbas Səhətin vaxtilə Sabir yaradıcılığına verdiyi qiymətlə müqayisə etmək olar. Əgər Sabir "beş illik müddətində İran məşrutəsinə bir ordudan artıq xidmət etmişdir"sə, "Gülüstan" poeması son bir neçə ildə Azərbaycan xalqını azadlıq uğrunda mübarizəyə səsləmiş və hazırlamışdır"*.

Bu əvəzsiz xidmətləri ilə B.Vahabzadə nəinki xoşbəxt, həm də nəsillərə nümunə olmağa layiqdir. Doğrudur, bu hadisədən sonra geniş xalq kütləsi, ictimaiyyət xeyli təlimatlansa da, respublikanın ictimai-siyasi həyatında nəzərə çarpacaq elə bir yenilik hiss edilmirdi. Əksinə dövlət məmurları hər iki müqavilənin "tarixi əhəmiyyəti"ndən danışaraq, Rusiyada elə "qohumluğ"umuzun 150 illiyini bayram edirdilər. Bu simasızlığa, riyakarlığa dözməyən şair yenidən bu mövzuya qayıdıb, silsilə şerlərini yazdı. İndi o, bir az da irəliyə gedərək, baiskarları uzaqda yox, onların bir ucunun da içimizdə olduğunu nişan verdi:

***Tapdamaq olarmı haqqı bu qədər,***
***Yüz əlli ildir ki, soyurlar bizi,***
***Bu heç,***
***Bizə bayram etdirirlər***

***Bax: Ələkbərli Ə. Nəsillərlə yanaşı. "Ədəbiyyat" qəzeti, 29 may 1992-ci il.**



***Tarixdə ən böyük faciəmizi.***
***Vətəni satmışıq... Buna yanmıram,***
***Ağır bir qədərlə üzbəüz olduq.***
***Ona yanıram ki, o gün bu bədnam***
***Alverin dəllalı özümüz olduq.***

Bu acı etiraf ilə ortaya çıxan şair vətən naminə alışıb yanır. "Həqiqətin üstünə yalanlar kölgə saldı" - deyir. Bu kölgə dünyanın gözünü kor etdiyindən, ötən yüz əlli ildə Vətən yaralarını görmədi. Ən pisi budur ki, mövcud müsibətlərdən qurtulmaq əvəzinə hərrac bazarında Vətənin dəllalı özümüz olduq. Bu dəllallıq Bəxtiyarı Füzulidən də pis vəziyyətə salır:

***Bu necə Vətəndir?***
***Görmədim üzünü***
***Çatsam da bu yaşa.***
***Ömründə bir dəfə***
***Bəs, salam verməzmi***
***Qardaş da qardaşa?!***
***Bu qəmim, bu dərdim***
***Dağlardan ağırdı,***
***Arazın suyuna qarışıb***
***axıram.***
***Füzuli həsrətlə qürbətdən***
***Vətənə baxırdı,***
***Mən isə***
***Vətəndən Vətənə baxıram.***

Onu da qeyd edək ki, mövcud diktatura rejiminə və bu rejimin başında duran Moskvaya və o zamankı respublika rəh-

bərliyinin iradəsizliyinə qarşı etirazını şair təkcə bu əsərində, yəni "Gülüstan"da bildirmir, fəndgirliyə əl atıb, müxtəlif mövzularda yazdığı şer və poemalarında mübarizəsini davam etdirirdi. Bu üsul şairi ona edilən hücumlardan qorumaq üçün ədəbi sipər idi. Başına gələnləri sonralar şair belə xatırlayırdı: "Fikrimi və beynimi gəmirən, məni narahat edən fikir və duyğularımı çox zaman tarixə və yaxud başqa ölkələrə keçirməklə ifadə edirdim. Tarixi mövzuda yazdığım **"Dar ağacı" (1972), "Fəryad" (1981-1984)** pyeslərini, **"Yollar-oğullar" (1963)** poemasını müxtəlif mövzulara həsr etdiyim **"Amerika gözəli" (1982), "Mərziyyə" (1984), "Bağışlayın, səhv olub" (1983)** poemalarımın, xarici ölkələrə səyahət təəssüratı əsasında yazırdım. **"Latın dili" (1967), "Şairləri öldürürlər" (1978), "Haydpark" (1978), "Ehramların önündə" (1959), "Açıq şəhər" (1960), "Ələddinin çırağı" (1959), "Külək-ot" (1976), "Dan yeri" (1972), "Qara qutu" (1975)** və s. kimi onlarla şerlərimin əsas hədəfi müasir həyat və içimdə yaşadığım totalitar rejim idi. Onu da deyim ki, bu əsərlərin əsas qayəsi bəzi hallarda rəsmi dairələr tərəfindən anlaşılmış, uzun illər təqib edilmişəm, adım "qara" siyahıya salınmış və məhrumiyyətlərə məruz qalmışam. O illərdə hər gün, hər ay həbs olunacağımı gözləmiş, bütün bunlarla yanaşı, tutduğum həqiqət yolundan sapmamışam".*

B.Vahabzadə Vətənin dərdini çəkən, vətən naminə yaşayıb-yaradan sənətkardır. Bunun üçündür ki, onun vətəndaş narahatlığı, vətəninə olan sonsuz ehtiram, məhəbbət, həssaslıq və qayğı təkcə poeziyasında yox, müsahibələrində, çıxış və publisistik yazılarında öz əksini tapır. Paralanmış vətənin ağrılı taleyi onu həmişə narahat edib, düşündürür. İçində baş

***Bax: Vahabzadə B. "Şənbə gecəsinə gedən yol". Bakı, Azərnəşr, 1991, Səh. 272.**



qaldıran və cavabı tilsimə düşmüş "nə üçün"lərlə baş-başa qoyub: "Niyə Berlini iki yerə bölən beton hasarlar götürüləndə, biz bunu yeni təfəkkürün təzahürü kimi qiymətləndirib, alqışladığımız halda, vahid Azərbaycanı iki yerə bölən sərhəd dirəkləri götürüləndə, bu, xuliqanlıq və ekstremist hərəkət adlanır?". "...Niyə biz haqlı ikən haqsız olduq? Kimdir bizi haqsız eyləyən? və nə üçün? nə üçün? nə üçün?..."

Şairi həyatı boyu rahat buraxmayan bu suallara ən çox zaman-zaman buraxdığımız səhvlərin mayasında cavab tapmaq olar.

B.Vahabzadə sözün həqiqi mənasında böyük vətənpərvərdir. Onda vətənpərvərlik bir neçə dərin qaynaqlardan bəhrələndiyi və tarixi ənənələrə bağlı olduğu üçün bu qədər əzəmətli və möhtəşəmdir. Vətənpərvərlik onun qanına ana südü ilə daxil olub, ana laylası ilə ruhuna hopub. Duyğuları sazın meydan havalarının üstündə köklənib. Daha sonra yaradıcılığında vətənpərvərlik sənətkarın ilham və parlaq istedadı ilə müşayiət olunduğundan, bu qədər qabarıq görünür. Şair nə qədər iş görsə də, yenə özümü vətənə borclu sanır. Elə xalqına münasibətdə onda tez dəyişən, süni heç nə yoxdur. O, əqidəsinin yolçusudur. Bu yol sevən könüllərdən, narahat ürəklərdən, Vətən torpağının hər qarışından keçdiyindən, vətənpərvərlik bu qədər güclüdür. Yazının bu yerində Vətən fədaisinin Azərbaycan Televiziyası ilə çıxışından bir məqamı xatırlamaq istəyirəm. Çox mətləblərdən sonra Vətən sevgisindən qürurla danışdı: "İndi mən ölümdən qorxmuram, çünki məndən sonra Vətən qalır" - dedi və fikrini öz şerindən aşağıdakı misralarla tamamladı:

***Dünya quru bir səs***
***Qəm çəkməyə dəyməz,***

*Yüz-yüz itən olsun,*
*Min-min də bitən var.*
*Şükür eyləyəlim ki,*
*Bizlərdən həm əvvəl,*
*Həm sonra Vətən var.*

Vətənə məhəbbəti bundan gözəl, bundan səmimi ifadə etmək olarmu?! Fikir verin, "şükür eyləyəlim" zərif ifadəsinin içindən Vətən sevgisi necə süzülüb keçir. Vətənə vurulan o qədər yaraların müqabilində şair yenə də nikbindir. Çünki uğrunda yüz-yüz oğulları şəhid olsa da, əvəzində min-min doğulanı var. Buna görə, heç bir qüvvə onu bizdən ala bilməz.

Bəxtiyardan yazan müəlliflər doğru olaraq qeyd edirlər ki, Azərbaycan şairin yaradıcılığında "zamanı təmsil edən surət və simvoldur". Odur ki, şair gələcək həyat yolunu düzgün müəyyənləşdirmək üçün tez-tez bu ədəbi-əxlaqi yaddaşa üz tutur.

Akademik Yaşar Qarayev yazırdı: "İntibah üç ünvana qayıtmaq əlaməti altında baş verir: tarixə, ekologiyaya bir də milli soya, kökə və təkrarsızlığa"*. Çox təəssüflər olsun ki, son illərdən tarixə qayıdış yollarında hərəkət birtərəfli olmuşdur. Belə ki, bu vaxtadək sifarişlə yazılmış, saxta tarix öyrənməklə məşğul olumuşuq. Bu uydurma tarix xalqımızı öz doğma kökündən ayıraraq ögeyləşdirdi. Beləcə "Öz kökünü bilməyən gözü küllü bir millət" başqalarına qulluq göstərə-göstərə milli ruhu aşındırdı. Şikəst ölkənin mənəvi şikəst övladları tariximizi öz arşını ilə ölçməyə başladı. Mövcud təhqir və böhtanlara dözməyən şair B.Vahabzadə hələ dikta-

***Bax: "Azərbaycan" jurnalı. 1990-cı il, № 11 səh. 183**



tor rejiminin hökm sürdüyü zamanda etiraz səsini ucaltdı. Silsilə əsərləri ilə, o cümlədən, "Hörümçək tor bağladı" şeri ilə bu rejimin törətdiyi faciələri şərh etdi:

***Tariximiz danıldı,***
***Uydurma tarix ilə***
***Kimliyimiz anıldı.***

- acı həqiqəti ilə ortaya çıxıb fəryad etdi. Fil qulağında yatanları anlatmağa çalışdı ki, tarixi inkar, tarixi unutqanlıq başımıza çox bəlalar gətirəcək. Nə qədər ki, həqiqi tariximizi, kimliyimizi bilməyəcəyik, bu ara tarixin yazılmamış ağ səhifəsi olaraq qalacaqdır. Sözünü davam etdirən şair düşmənin məkrli siyasətini çox aydın şərh edir. Bizi məhv etmək üçün ilk növbədə tariximiz danıldı. "Satqınların hiyləsindən neçə kərə, tarix endi zirvələrdən dərələrə", "Bu yerdə yaltaqlıq və xəyanət meydan sulayır və cəsarət qılıncının qəbzəsində hörümçək tor bağlayır" **(M.Halistin Kukul).**

Düşmənin qurduğu tor daha dəhşətlidir. İlmələri böhtan və yalandan hörülmüş bu torun o üzündə vətənin min-min illik tarixi dumanlı görünür. Xalqına, millətinə edilən haqsız nifrət və qəsd bəzən şairi qəhərləndirir. Belə məqamlarda bir vətəndaş kimi poetik düşüncələrə dalır:

***Bu gün qula dönmüşəm, dünən mən bir şah ikən,***
***Yoxmuş məni bir doğan, yoxmuş məni bir əkən...***
***Bu torpağa düşmüşəm haradansa mən dünən?***
***Min-min illik tarixim unudulmuş, ay Allah.***

Təbiətən narahat, çılğın, qeyrətli və cəsarətli Bəxtiyar poeziyasındakı bu bədbin notlar nədir? Filoloq alim Sərxan

Abdullayev şairin keçirdiyi psixoloji, ruhi sarsıntılara belə aydınlıq gətirir: "Bu bədbin əhval, mərsiyyə ruhu yalnız sərt, fəlakətli reallıqlardan gələn bir səda deyil, həm də dünyanı dolduran yalan, böhtan zülmətində həqiqəti deməyə gücü çatmayan, həmişə ötkəm və mərdanə Bəxtiyar sözünün şəhidliyidir, güclü olduğu qədər də zəif və zərif olan bədii sözün, "Sosialist realizminin"" faciəsidir".*

Bu deyilənlər xalqın faciəsinin, onun bu hala düşməsi səbəbinin çox az bir hissəsi olduğundan, digər təsir, təzyiq və təcavüzlərin də ünvanı çoxdur. Şair nə qədər qəhərlənsə də, bu eybəcərliklərə öz mənəvi nikbinliyi ilə üstün gələ bilir. O, öz poetik düşüncələrində dəqiqdir. İrili-xırdalı bir çox əsərlərində, çıxış və məruzələrində tarixin bəzi qaranlıq məqamlarına aydınlıq gətirməklə, səbəbləri, baiskarları zərgər ustadlığı ilə bir-bir oxucularına təqdim edir. Tarixi unutqanlıq! Faciəmizin əsas səbəblərindən biri. Odur ki, şair unutqan insanları əxlaqi-mənəvi mövqedən mühakimə etməklə bərabər, bu eybəcər halın insan həyatında törətdiyi fəsadları şerlərində poetik cərgələndirir. Göstərir ki, unutqanlıq üçün nə xalq, nə Vətən, nə də tarix var. Nəinki tarix, hətta onları gələcək də düşündürmür.

B.Vahabzadənin bu mövzuda bir neçə şeri olsa da, ancaq biz oxucuların diqqətini təkcə **"Unutqanlıq"** şerinə cəlb etməklə kifayətlənirik. Şair, görkəmli maarifçi, pedaqoq-ədib Ömər Faiq Nemanzadənin 1906-cı ildə yazdığı məqalədən aşağıdakı parçanı şerinə epiqraf seçir: "Bu sadəliyimiz səbəbi ilə cümləmiz qonşu ermənilərlə yenə qədəm sayaq üzrə sülhanə rəftar edib, rahat və arxayın olmağı vəz və bəyan

---

***Bax: Abdullayev S. Sözün gücü və gücsüzlüyü. "Yeni fikir" qəzeti, 1992, 23 yanvar**



edirdik və bu surətlə millətimizin gözünü bağlayıb... uçuruma sarı hazırlayırdıq.

İndi lazımdır ki, bunlardan ibrət alıb gələcəkdə aldanmamağa çalışaq". Bu seçimlə şair şerin ideya və ictimai pafosunu dərinləşdirir, mətləbin şərhini xeyli asanlaşdırmış olur:

***...Erməni zülmündən yüz ildən bəri***
***Daşdan daşa dəydi bu xalqın başı.***
***Unutdu çəkdiyi müsibətləri***
***Niyə oğurlandı onun yaddaşı!***

Şair gənc nəslə bir daha bəyan edir ki, erməni düşmənlərimiz qarı olduğu qədər, utanmaz və usanmazdır. Onlar tarix boyu zəif cəhətlərimizi yaxşı bildiyindən həmişə də məkrli məqsədlərinə nail olublar. Başı daşlardan-daşlara dəymiş bu millət çəkdiyi zillətdən indi də nəticə çıxarmır:

***...Utanmaz, usanmır bəd əməlindən,***
***Bəladdir unutqan xislətimizə.***
***Bilir, dədəmizin onun əlindən***
***Çəkdiyi zillətlər dərs olmur bizə.***
***Bu yalan xisləti gəlin tərk edək,***
***Tarixi dərsləri daha dərs edək.***
***Tərk edək unutqan soyuqqanlığı,***
***Unudaq keçmişə unutqanlığı.***

Şair unutqanlıq girdabında çabalayanları həmişə ayıq-sayıq səsləyir. Unutqan xislətimiz bir çox milli-mənəvi dəyərlərimizi parçaladı, onu tarixin qaranlıqlarına qərq etdi. İndi biz gələcəyə hansı üzlə gedirik?

*Daima gözümüzün önündə dursun*
*Keçilən yollarda xeyir-şərimiz.*
*Bu günü unutsaq, sabah, biri gün*
*Bizi bağışlamaz nəvələrimiz.*
*Dedim, silinməsin bu qan, bu qada,*
*Bir də, güllə izi dağ-daşımızdan,*
*Yalnız bu günə yox, biz sabaha da*
*Güzgü tutmalıyıq yaddaşımızdan.*

Göründüyü kimi, şair hər hansı mövzudan söhbət açarkən, təkcə ona bir sənətkar kimi yox, həm də vətəndaş kimi nəzər salır və onun mahiyyətinə məhz bu nöqtədən aydınlıq gətirir. Tarixi unutqanlığın, biganəliyin ağrı-acılarını özündə yaşadan misralar, əlbəttə, bizi düşündürür, öz hərəkətlərimizə mənəvi gözlə yenidən baxmağa hazırlayır.

Heç şübhəsiz, tarix B.Vahabzadənin yaradıcılığında hər hansı zaman kəsiyi deyil, bu anlayış obrazıdır. Şairin poetik müsahibəsində qarşı tərəf olduğundan, sənətkarın milli, ictimai idealı ilə bilavasitə bağlıdır. Fikrimizin təsdiqi üçün sözü yenə akademik Yaşar Qarayevə veririk: "Elə buna görədir ki, Bəxtiyar Vahabzadə üçün ayrıca bir "tarixilik" anlayışı yoxdur; ayrıca bir ənənəvi "milli xarakter", ayrıca bir müasir "intellektual qəhrəman" yoxdur. Onun üçün yalnız eyni vahid yekparə varlıq - müqəddəs, əbədi Azərbaycan vardır. Azərbaycan burada məhz tarix və proses kimi, həm mənşə, həm də gələcək kimi, beşik, ocaq, yuva və ana kimi tərənnüm olunur. Belə bir Vətən rəmzi xalqın mənəvi tamlığını və böyüklüyünü daha dərindən duymaqda, dünyaya tanıtmaqda şairə kömək edir".*

***Bax: Azərbaycanın Bəxtiyarı. "Azərbaycan" nəşriyyatı, Bakı,1995, səh. 61**



Şair Azərbaycanın dünəni, bu günü və sabahı ilə bağlı məsələlərə təkcə münasibət bildirmir. Mövcud problemlərə, irili-xırdalı bütün takt və hadisələrə çox zaman üsyankarcasına yanaşır. Yad havalarına oynayanları "qınından çıxıb, qınını bəyənməyənləri" söz davasına çəkərək poetik sillə vurur. Bu baxımdan İranda Azərbaycan xalqının milli varlığını danan, xalqımızı farsların tör-töküntüsü hesab edən "alim" milliyyətcə azərbaycanlı olan Yəhya Zəkaya verdiyi cavab xarakterikdir:

*Mən yaxşı bilirəm, məqsədin nədir,*
*Uydurma tarixin məramı nəymiş.*
*Nəsimi, Füzuli, Xətai, Sabir*
*Səncə, Firdovsinin yetirməsiymiş.*
*Sənin şanın hanı, şərəfin hanı?*
*Əyilmə özgəyə öz mənzilində*
*Nənən bayatını, anan laylanı*
*Niyə çağırmadı bəs, fars dilində?*
*...Dayaq olmalıykən öz elinə sən,*
*Elin kürəyində bir bıçaq oldun.*
*Sən igid olmalı, ər olmalıykən*
*Özgənin əlində oyuncaq oldun.*
*...qatma yad mayası sən öz nehrənə,*
*Söymə təndirinə, söymə təhnənə,*
*Özgə məhləsindən sən öz məhlənə*
*Belə cani-dildən ulama, Yəhya.*

Əlbəttə, öz tarixinə, mədəniyyətinə, adət-ənənələrinə bütövlükdə soy-kökünə isti münasibəti olmayan hər kəs hansı mənəvi qürurdan danışa bilər.

İnsan və tarix B.Vahabzadənin yaradıcılığında ötəri hal

olmadığından, bu motivlər onun təkcə poeziyasında yox, digər janrlarda yazdığı əsərlərdə də aparıcıdır. Şairə görə, tarixi dərk etmək, özünü anlamaq deməkdir. Məşhur Ç.Aytmatov bu cəhətinə görə də B.Vahabzadəyə yüksək qiymət verir: "Şair öz əsərlərində tarixi müasirlik qədər yaşada bilir".

Şair tarixi yaşatmaq üçün zaman-zaman tarixin dərinliklərinə enir, mənsub olduğu xalqın ictimai-siyasi və sosial-mənəvi yaddaşını qurdalayır. Həyat tərzimizə, tariximizə ləkə salan nöqsan və mənfilikləri bir daha xatırlamaqla, müasir gəncliyi tarixin acı dərslərindən öyrənməyə çalışır. Bizim keçmişimizdən uzaq düşməyə haqqımız yoxdur, əgər belə bir addım atsaq, əlbəttə, gələcəyimizi düzgün müəyyənləşdirə bilməyəcəyik. Məşhur Amerikan filosofu C.Santayananın sözləri ilə desək: "Öz keçmişini xatırlamayan şəxs yenidən yaşamağa məhkumdur". Bu baxımdan, şair-dramaturqun **"Dar ağacı", "Fəryad", "Özümüzü kəsən qılınc"** əsərləri diqqəti cəlb edir.

**"Dar ağacı"** pyesində əsrlərin o üzündə Azərbaycanın başına gətirilən müsibətlərin səbəb və mənbələri açıqlanır. Milli mücadilə tariximizin ən dramatik, ən ağrılı məqamlarından biri təsvir olunur. Millətin müstəqilliyi və torpaqlarımızın bütövlüyü naminə işğalçı ərəblər Babəki dara çəksə də, onun qarşısında gücsüz oldular. Məlum olduğu kimi, əsərdə hadisələrin gedişi prosesində Babəkin özü yox, kölgəsi, teyfi iştirik edir. "Əsərin sonrakı səhifələrində bu ruhun qəhqəhələri eşidilir. Harada təslimçilik ovqatı, qorxaqlıq və satqınlıq meylləri baş qaldırsa, Babəkin ruhu orada peyda olur və yenə də onun teyfi görünür. Bu ruh və teyf ölməzlik rəmzi kimi Vətən torpağını hərraca çıxaranları daima səksəkədə saxlayır, vəzifə hərislərinin, var-dövlət düşkünlərinin Vətənlə müqayisədə bir kor qəpiyə dəyişmədiyini bir tövbə



və ayə kimi onlara xatırladır"*. Təkcə xatırlatmır, həm də özgənin təşəkkürünü qazanmaq üçün özünə düşmən kəsilir, müqəddəs ocağa, doğma torpağa sədaqəti, sevgisi olmayan Aqşinin aqibətinə gülür. Önəmli tərəf budur ki, Babəkin qeybdən gələn gülüş səsləri xəbər-xəbərdarlıq kimi qəbul edilir. Bunun nəticəsidir ki, buraxılmış səhvlər etiraf olunur. Bu da Aqşinin etirafı: "Mən öz Vətənimə qarşı vuruşanda, ölü olmuşam. Hökmdar oldum, yenə ölü idim. Ölüm qarşısında dirildim. İndi mən ruhən dirilib, cismən ölümə gedirəm". Bu məqamda Aqşin oxucu və tamaşaçının nəzərində artıq satqın yox, səhvlərini görüb oyanan, daxilən təmizlənməyə cəhd edən bir obraz kimi canlanır. Ölümqabağı bu etiraf, heç şübhəsiz, hər bir oxucu və tamaşaçını düşündürür, tutduğu əməlləri, gördüyü işləri yenidən saf-çürük eləməyə təhrik edir.

Yuxarıda qeyd edildiyi kimi, intibahda ikinci məqam ekologiyadır. Əlbəttə, burada "ekologiya" məfhumu geniş anlamda götürülür. Söhbət təkcə təbiətin ekologiyasından yox, milli ruhun, yaddaşın ekologiyasından gedir. Bu baxımdan, şairin əsərləri milli ruhun, yaddaşın ekologiyasını araşdırmaq sahəsində etibarlı mənbə və ciddi tarixi faktdır.

İntibah üçün üçüncü ünvana qayıtmaq da xalqımıza çətin oldu. Bunun bir neçə səbəbi olsa da, ən başlıcası bu idi ki, "Milli öüzünüdərk, kökə, ilkinliyə qayıdış yollarında hər hansı cəhd vəzifəli məmurların dilində saxtakarlıqla təkrarlanan "dostluq", "beynəlmiləlçilik" şuarları ilə dəf edilirdi".** Yetmiş illik saxta siyasət, qondarma diplomatiya mil-

***Bax: Məmmədli M. Bəxtiyar Vahabzadə - İstiqlal şairi. "Azərbaycan" jurnalı. 2004, №3, səh. 174**

****Bax: Məmmədov M. Yaddaş tarixinin tədqiqi. "Azərbaycan" jurnalı,1989, №6. səh, 182**

li ruhun iflicləşməsi prosesini daha da sürətləndirdi. Nəticədə doğma xalq öz milli soy-kökündən aralı düşüb, ögey ananın övladları olduq.

Bu, bir həqiqətdir ki, soy-kökündən uzaq düşmək cəmiyyəti uçuruma aparır. Milli-mənəvi bünövrəni laxladıb, yerləyeksan edir. Odur ki, şair poeziyasını məhz bu bünövrəyə söykəyib, bütün yaradıcılıq fəaliyyətində şer rübabını milli özül üstündə köklədi.

*Kö**küm üstə bitmişəm,***
***Şöhrətim var, şanım var***
***Mənim gələcəklə də***
***Öz əhdi-peymanım var.***
***Azərbaycan oğluyam.***
***At belində doğuldum***
***Zamanın qazanında***
***Neçə dəfə dağ oldum.***
***Mənim damarlarımda***
***Gur sellər çağlamışdır,***
***Anam cəngilər üstə***
***Məni qundalamışdır.***

Şerdə milli hiss aparıcıdır, xalqa, doğma torpağa, kökə bağlılıq daha əyanidir. Başqa sözlə, elə bu bağlılıq bütün səmimiyyəti ilə misralara hopub. Fikir verin, "Kök və budaq şairin təsəvvüründə insan və torpaq birliyi qədər müqəddəsdir. Kökə bağlı olan insan həm də Vətənin zirvəsidir, onun təcəssümüdür. Bu birlik və vəhdət qırıldıqda, Vətən kimi isə itirir" **(Vaqif Yusifli).** Kökünə qırılmaz tellərlə bağlanan şairin şerləri də sözsüz ki, öz kökü üstə boy atmışdır. Xalq ruhunun ifadəçisi olan həmin şerlər gənc nəslə bir çox əxlaqi



fəzilətlər təlqin edir. İnsanın mənəvi ucalığı, xalqın bütövlüyü, onun cismani və mənəvi əsarətdən xilas olmaq haqqı, xalqın tarix və psixologiyasına, zəngin mənəvi sərvətlərinə hörmət, qayğı və s. Hərgah kökümüzə, mənəviyyatımıza uzanan yolların yolçusu olmasaq, qarşılaşacağımız mərhumiyyətləri şair belə bəyan edir:

***İnsan oğlu dəm tutanda hər dəmə***
***Söz rəngini dəyişərmiş, heç demə.***
***Hər nigahsız doğulana bic demə,***
***Öz kökündən ayrılanlar bic olur.***

Əgər bu deyilənlərə vicdani borc, əxlaqi məsuliyyət kimi vaxtında əməl etməsək, əlbəttə, intibaha gedən yollar bizdən uzaq düşəcəkdir. Önəmli tərəf budur ki, şair B.Vahabzadə bu mühüm tapşırıq və nəsihəti, digər əxlaqi məziyyətləri təkcə oxucularına yox, həm də qələm yoldaşlarına və başqa sənət adamlarına da edir. Bu baxımdan, onun sevimli şairi Zəlimxan Yaqubun "Biz bir eşqin butasıyıq" kitabına yazdığı rəydən aşağıdakı misralar diqqəti cəlb edir: "İstərdim ki, mənim qələm yoldaşım kökdən bərk yapışıb, bu ənənə zəminindən dünyanın müasir mənzərəsinə bir az da yaxından boylansın. O zaman onun şerlərində köklə, ənənə ilə bərabər yeni dünyanın yeni ahəngi daha çox səslənir"*.

Şairi narahat edən problemlər bəzən poetik janrın hüdudlarına sığmayanda, publisisik məqalələri, müsahibə və çıxışları ilə oxucuların ürəyinə yol tapır. Nəinki oxucuların ürəyinə yol tapır, hətta müvafiq idarə və təşkilatlar qarşısında mə-

---

***Vahabzadə.B. Şənbə gecəsinə gedən yol. Bakı, Azərnəşr, 1991, səh.330.**

sələ qaldırıb, ayrı-ayrı məsul şəxsləri daha ayıq, diqqətli olmağa çağırır. Akademiyanın hesabat iclasındakı çıxışından: "Buna necə dözmək olar ki, hələ də Azərbaycan tarixinin, ədəbiyyat tarixinin, elm və incəsənət tarixinin işlənib hazırlanmış vahid konsepsiyası yoxdur və bu konsepsiyanın olmaması çoxcildli tarix kitablarımızın ortaya çıxarılmasına ciddi əngəl törədir. Çünki hər sahənin tarixini yazan, məsələyə vahid konsepsiyadan yanaşmır, hərə bir söz deyir...

...Bizim tarix elmimizin vahid konsepsiyasının olmaması ilə bağlı Azərbaycan xalqının təşəkkül probleminə toxunmaq istəyirəm. İndiyə kimi bu məsələ "qapalı" olduğundan, biz ona toxunmaqdan çəkinmişik.

Təşəbbüsləri də ehkamçı mövqelərdən çıxış edən yoldaşların açıq və ya gizli göstərişi ilə yarımçıq qoymuşuq. Etnogenez problemi üzrə dəfələrlə seminarlar və ya "komissiya" adı altında toplaşmışıq. Amma nəticədə heç bir iş görülməmişdir...

...İndi üzümü sizə tuturam, tarixçi qardaşlarım, nə vaxtaqədər siz xalqımız üçün deyil, xanzadyanlar üçün işləyəcəksiniz"*.

Şair iftixarla yazır ki, "Tarixin amansız keçidlərində böyük bir ənənə yaratmışıq biz". Bugünkü gənclik həmin ənənə ilə yaxından tanış olsun. Öyrənib xalqının gücünə, qüdrətinə inansın. Ər kişilərin timsalında özünü dərk etsin. Axı, özünüdərk yollarında insan kamilləşərkən, cəmiyyətin gərəkli üzvü olur.

Şairə görə, bu mühüm göstəriş və tapşırıqlara əməl etmək təkcə yaddaş və tarix qarşısında övladlıq borcumuzu ödəmək

***Vahabzadə B. Şənbə gecəsinə gedən yol. Bakı, Azərnəşr, 1991, səh. 155-156.**



kimi başa düşülməməlidir. Bu işin həm də böyük tərbiyəvi əhəmiyyəti var. Biz xalqın tarix boyu yaratdığı mənəvi dəyərlərə sədaqət və ehtiram bəsləməklə, bugünkü və gələcək nəslə örnək oluruq. Tarix, soy-kök, əski mənəvi dəyərlərlə bağlı fikirlər təkcə öz ruhu, qaynağı ilə seçilən şair B.Vahabzadənin sözü yox, həm də zamanın böyük sözü hesab edilməlidir.

Bütün bu deyilənlər xalqının intibahı, milli dirçəlişi naminə B.Vahabzadənin gördüyü çoxsahəli işlərin az bir hissəsidir.

B.Vahabzadə poeziyasında soy-kökə ehtiram və milli-mənəvi dəyərlərimizə hörmətlə yanaşmaq baxımından, onun muğamlarımızla bağlı mətləbləri də heyrət doğurur. Şairin **"Muğam"** poeması Azərbaycan musiqi mədəniyyətimizin şah əsərlərindəndir. Sənətkarın muğam mövzusuna müraciət etməsi bu musiqi janrının estetik təbiətindən, onun sirlərindən xeyli xəbərdar olduğunu bir daha təsdiq edir. Görünür, şair muğamların fəlsəfi mənasını açmaq, onları bədii söz sənətinin dilinə çevirmək üçün xeyli musiqi əsərləri oxuyub, görkəmli sənətkarlarla həmsöhbət olub.

Muğam mövzusunda poema yazmağa B.Vahabzadənin mənəvi haqqı var. Əvvəla, şair bu mövzuda irili-xırdalı bir neçə şer yazsa da, muğamın hikməti haqqında sözünü deyə bilməmişdi. Muğam dəstgahlarımızın haqqında geniş poetik söz açmaq üçün, heç şübhəsiz, iri həcmli əsərlər yazmaq gərəkdir.

İkincisi, B.Vahabzadə Şərq musiqi mədəniyyətində öz dəsti-xətti, izi, yol-ərkanı olan bir xalqın oğludur. Ötən əsrin birinci yarısında muğamlarımıza gah köhnəlik, gerilik damğası vurmaq, onun "tuti" dilini birdəfəlik susdurmaq istəyənləri musiqimizin vurğunu B.Vahabzadə cavabsız qoya bil-

məzdi. Və nəhayət, "**Muğam**" poeması ehtiyacdan yaranıb, bu sehrli aləmin daşıdığı məna və mətləbləri gənc nəslə daha dərindən öyrətmək ehtiyacından yazılıb. Doğrudur, zəngin muğam mədəniyyətimiz, tar ifaçılığı, eləcə də, digər çalğı alətlərimiz və s. barədə dövrü mətbuatda xeyli yazı və bilgilər verilir. Nədənsə muğamlarımızdan insan taleyinin əks-sədasını göstərən, tarixin digər izlərini əks etdirən elmi və bədii yazıları, əsərlərə çox az rast gəlinir, bir çox hallarda isə unudulur.

Önəmli tərəf budur ki, şair B.Vahabhadənin "**Muğam**" poemasında təkcə muğamın tərbiyəedici, dəyişdirici rolundan, onun estetik təsirindən yox, həm də bu ecazkar sənət növünün ideya-emosional məzmunundan və digər möcüzələrindən də ətraflı danışılır. Poemada göstərilir ki, muğamda bir xalqın min illik iztirabları, əzəməti, məğrurluq və vüqarı əbədiləşib:

***Bir xalqın tarixi -***
***Tarixin yolu***
***Enişi, yoxuşu, iztirab dolu...***
***Səslənir muğamın pərdələrində,***
***Söhbəti aşkarda,***
***Sirri dərində...***
***Zilində - elə bil, od qalanıbdır,***
***Yanğına dözməyib havalanıbdır,***
***Bəmində - yanğını keçirmək üçün***
***Fikirlər, xəyallar yuvalanıbdır.***

Bəli, muğam tarixdir, qan yaddaşıdır. Azərbaycan xalqının ruhunu, qəlbini, mənəvi keçmişini öyrənmək üçün tarix - xronologiya kitablarını oxumaq azdır. Öncə onun musiqisinə



üz tutmaq gərəkdir. Çünki musiqi "sözün deyə bilmədiyi sözü deyir". O səbəbə şair oxucularına məsləhət görür ki:

***Tanımaqmı istəyirsən***
***Görmədiyin bir xalqı sən?***
***Əvvəl onun nəğməsinə sən qulaq as,***
***onu öyrən.***
***Öz sözünü, sorğusunu***
***Xalq yaşadır nəğməsində,***
***Tarixin bir dövrü yatır***
***Bir bəmdəki "ah" səsində.***

Bu fikri şair başqa bir yazısında publisist dillə belə inkişaf etdirir: "Buna görə də muğamlara yalnız bədii hisslərimizi oxşayan, bizə zövq verən musiqi parçaları kimi deyil, həm də xalqımızın keçdiyi yollardan xəbər verən tarix kimi, bizi düşündürən, ruhumuzu təlatümə gətirən, bizi haradasa gözəl bir dünyaya qanadlandıran dərin məzmunlu bir kitab kimi baxmalıyıq"*.

Şair poemada ayrı-ayrı muğamlardan "Şur", "Çahargah", "Segah", "Rast"dan söz açır. Hər birinin tarixi taleyini düşünür. Onlardan gah qəm nağılı, gah da nəşəli dastan söyləyir. Muğamların bəziləri öz qaynaqlarını el havalarından, el sözündən götürdüyündən, haqlı olaraq şair poemada muğamları bayatılarla, xalq mahnıları ilə bağlamağı lazım bilib:

***Çahargahın pərdələri...***
***Müxalifdə...***
***Hücum! Hücum!***

---

***Bax: Vahabzadə B. Sadəlikdə böyüklük. Bakı. "Yazıçı", 1978. səh. 188.**

*Ərənlərin nərəsinə*
*Yer titrədi, göy gurladı.*
*Uca dağlar dua verib*
*Ərənləri uğurladı!*
*Düşmən qaçır, bizimkilər təqib edir*
*Mənsuriyyə: qələbədir, təntənədir:*
*"Əzizim sözə qaldı*
*Bir şirin sözə qaldı*
*Yad qovuldu dağlardan*
*Yurd yenə bizə qaldı..."*

Daha sonra "Bəlkə... hasar pərdəsidir çahargahın? Səs düzümü" - deyən şair qalalarla muğamlar arasında da yaxınlıq, bir doğmalıq görür. Axı, qalalar da muğam kimi etibarlıdır, unutqan deyil. "Bu qalalar - Daş nəğmələr" xalqımın tarixi keçmişindən, əzablı, mübarizəli günlərindən bu günümüzə nələr söyləmir? Oxucunu bu güman və şübhələrin əlində çox saxlamayan şair muğamın bir möcüzəsini də belə açıqlayır:

*Çahargahın "Müxalifi"*
*"Çaldıranda" at saldıran,*
*Qılınclardan od aldıran*
*döyüş səsi...*
*Çahargahın "Cövhəri"si*
*Kol dibində*
*Qar altından*
*çıxan tənha bənövşənin üşüməsi.*
*Qılınc səsi, qalxan səsi.*
*Bənövşənin üşüməsi.*
*Biri hünər,*



*O birisi göz yaşıdır.*
*O sərtliklə bu incəlik*
*Bir muğamda yanaşıdır.*

Bax, budur, muğamlarımızın saflığı, qənirsiz ucalığı, böyüklüyü...

Xalqımızın neçə min illik tarixini əks etdirən muğamlarımız daşıdığı fəlsəfi mənası ilə insanları düşündürür və düşüncənin qanadlarında onu tarixin lap dərin qatlarına - əfsanələr, nağıllar dünyasına aparır, Həssas dinləyici bu sehirli dünyadan gələcəyə qanadlanır. Muğamın düşüncəmizdə açdığı bu yeni aləm xalqımızın keçdiyi yollardan, onun mənəvi böyüklüyündən, acılı-şirinli günlərindən, döyüş səhnələrindən xəbər verir. Fikir və mülahizələrimizin təsdiqi üçün yazımızın bu yerində filoloq alimlər Y.Qarayev və Ş.Salmanovun aşağıdakı kəlamına üz tuturuq: "Muğam - şairin analitik-emosional poetik şərhində və təfsirində xalqın tarixi, xalqın mübarizə salnaməsidir: onun mənəvi dünyagörüşü və psixologiyasıdır, onun ruhi aləmidir. Muğamda xalqın həyatı və məişəti, dünyanı idrak və duyum tərzi, onun insaniliyi mərkəzləşmişdir. Muğam xalqın mənəvi yaddaşıdır, ülvi və bəşəri, ölümsüz və əbədi nə varsa, xalq bu yaddaşa həkk etmişdir. Məhz buna görə muğam qorunmalı, hifz edilməli, zənginləşdirilməli və gələcək insanlara, gələcək nəsillərə ötürülməlidir; ötürülməlidir ki, gələcək gözəl və bəşəri olsun; ötürülməlidir ki, insanlar və nəsillər arasında varislik, ünsiyyət itməsin"*.

Şair B.Vahabzadə də klassik sələfləri N.Gəncəvi, İ.Nəsimi, Q.Zakir, S.Şirvani kimi bu sehri yozulmaz, möcüzəli mu-

***Bax: Qarayev Y., Salmanov Ş. Poeziyanın kamilliyi. Bakı, "Yazıçı", 1985, səh. 114**

ğam dünyasına ustalıqla gəlib, bu ölməz sənətin hökm və hikmətin özünəməxsus sənətkarlıqla mənalandırır.

Mahiyyətini açıb, estetik xilqətini belə incələyir:

***Qəlbi vulkan tək coşan, üsyandır, üsyan, Çahargah,***
***Açmış hər zənguləsindən fikrə meydan, Çahargah.***
***Şahə qalxan dalğalardır bir "Müxalif" guşəsi,***
***Dəryalar ləngərlədən tufandı, tufan, Çahargah,***
***Guşələr göy gurladır, yer titrədir, sel oynadır,***
***Göndərir yadelliyə imzalı fərman, Çahargah.***
***Simlərin mizrab ilə toqquşmasından od çaxır,***
***Yoğrulubdur bəlkə də çaxmaq daşından Çahargah.***
***Gövhərindən bir həzinlik, bir xəfiflik saxlanır,***
***Ayrılıbdır elə bil, can sirdaşından Çahargah.***
***Bəxtiyaram, heyranam bərdaştda çılğın səslərə,***
***İstərəm, od alsın əsrin atəşindən Çahargah.***

Akademik Teymur Bünyadov **"Əsrlərdən gələn səslər"** əsərində bu ilahi vergisinin güc-qüdrətini belə incələyir: "Güclü şəxsiyyətdi, müdrik başçıdı, iradəli, əqidəli igiddi, hökmü yenilməz, məğlubedilməz qəhrəmandı Çahargah. Məqsədi aydın, amalı parlaq, inamı qəti. Qəm yığnağıdı, igidlər oylağıdı, mərdlər yaylağıdı Çahargah. Qaynar gözdü, sərt baxışdı, mərd duruşdu Çahargah. Əzablı yollar yolçusudu, qanlar-qırğınlar iştirakçısıdır. Meydanda dartılmış yay, sıyrılmış qılıncdı. Qılıncla, qalxanla qarşı-qarşıya gələn, döş-döşə duran, döyüşəndi Çahargah"*.

Poemada muğamlar haqqında şairin duyğu və düşüncələri ilə yanaşı, tarixi həqiqətlərin bir çox izləri də saxlanmışdır.

***Bax: Bünyadov T. Əsrlərdən gələn səslər. Bakı, Azərnəşr, 1993, səh.81.**



Məlum olduğu kimi, ayrı-ayrı muğamlar müxtəlif zamanlarda təşəkkül tapmış, inkişaf edərək, müəyyən dəyişikliklərə də uğramışdır. Mütəxəssislər yazırlar ki, bəzi muğamların şöbəyə, bəzi şöbələrin isə muğamlara çevrilmə halları da baş vermişdir. Bəziləri də yeni adlarla səslənmişdir. Poemanın "Rast" bölməsində oxuyuruq:

***Dağlarda göynəyən Məcnundur segah,***
***Rast - onun atası... Nəsihət eylər.***
***Məcnun - səhralara gətirir pənah,***
***Ata - bu sevdanı məzəmmət eylər.***
***Rast - müdrik bir ağıl, dərin düşüncə,***
***Danışır təmkinlə, aramla tək-tək.***
***Segah - Bir istəyin, eşqin dalınca,***
***Mələyə-mələyə qaçan bir ürək.***

Göründüyü kimi, şair Rastı ulu, nəsihət verən Segahı isə eşq yanğısı, saf məhəbbətin timsalı kimi mənalandırır. Burada "Rast - onun atası..." deyəndə, B.Vahabzadə Rastın Segaha nisbətən daha ilkin olduğuna işarə edir.

Poemanın sonunda epiloq əvəzi kimi verilən "Muğam" rədifli qəzəldə şair muğamın tarixi xidmətlərini bir daha göz önünə gətirir. Muğam zaman-zaman yer üzündə el ruhunun gücü ilə xeyirxahlığı, haqq və ədaləti təsdiqlədi: "Daş ürəklərdə yanıb, daşları sındırdı. Haqqa düşmən olanı haqqa tanıtdırdı". Qəflət yuxusunda olanların başı üstə tufana döndü, yaxasından tutub oyatdı, özünə, ilkinliyinə qaytardı. Deyildiyi kimi, muğamlar təkcə insanın mənəvi aləminə, bədii-estetik zövq və tələbatların formalaşmasına təsir göstərmir, həm də "Onun hər bir guşəsi bir xatirə, bir canlı kitab"dır. Hər bir şəxs düşündürən, nəsihət verən, əbədiləşən bu kitabı dönə-

dönə oxuyub, kamilləşməlidir. Nəinki bu kitabı, digər incəsənət əsərlərini, tarix və arxitektura abidələrinin hikmətini, gözəllik və zənginliyini başa düşüb, ondan səmərəli bəhrələnməlidir.

Bəxtiyar Vahabzadənin ədəbi-bədii, ictimai-siyasi fəaliyyətində 1980-ci illərin sonu, 90-cı illərin əvvəli ayrıca mərhələ təşkil edir. O dövr öz ağrılı, əzablı günləri və bəzi uğurları ilə Azərbaycan tarixində əbədiləşdi. O illər hər bir azərbaycanlı təhlükəli günlərini yaşayırdı. Bu təhlükə hər gün, hər saat, hər an gözlənilirdi. Çünki buraxılan kiçicik bir səhv, düşünmədən şayiələrə uymaq milləti qırğına apara bilərdi. Sumqayıt hadisələri respublikanın başqa rayonlarında da təkrar oluna bilərdi. Havadarların köməyi ilə mərkəzin türkdilli xalqların başına gətirdiyi bəlalar təhlükənin lap yaxından naxələf qonşulardan - ermənilər və Şimaldan ruslar olacağına şübhə yeri qoymurdu. Odur ki, B.Vahabzadə bütün imkan və vasitələrdən istifadə edərək respublika başçısından tutmuş bütün insanlara, vətəndaşlara çatdırırdı ki, "Əgər biz bu təhlükəni anlamasaq, onun dərin köklərini araşdırıb tapmasaq, ona qarşı əks tədbirlər görməyib, sadəlövhlük və siyasi korluq göstərsək, gələcək və tarix qarşısında utanmalı olacağıq". Qulaqlara tez çatsın deyə, özü də bu proqnoz - xəbərdarlıq ən ali kürsüdə - Ali Sovetin növdənkənar 10-cu sessiyasında deyilmişdir. Əfsuslar olsun ki, biganəliyimiz, siyasi naşılıq və qeyrətsizlik ucbatından verilən proqnozlar doğru çıxdı. Qırmızı Ordunun növbəti xəyanəti nəticəsində Bakımız al qana büründü. Erməni separatçıları və Rus hərbi birləşmələrinin misli görünməmiş ağzınlığı əsrin Xocalı faciəsini törətdi. Ardınca Azərbaycan ərazisinin dörddə biri işğal olundu. Neçə-neçə kənd və şəhər talana məruz qalıb, sakinləri ilə birgə düşmənə əsir düşdü. Günahsız millət minillik



ata-baba ocağının həsrətini çadır düşərgələrində çəkməli oldu. Respublikada böyük boşluq, xaos, ümidsizlik hökm sürürdü. Həmin dövrlərdə B.Vahabzadə meydan və mitinqlərdə, ən qaynar nöqtələrdə, xalq arasında olardı. Səsi-sorağı televiziya ekranlarından, radio dalğalarından gələrdi: "Bu gün bizim qarşımızda bir məqsəd və bir cəbhə var: O da vətənimizin bütövlüyü və suverenliyi naminə xalqın birliyinə nail olmaqdan ibarətdir. Mən bu gün bütün xalqımızı - fəhlələrdən tutmuş ziyalıya qədər, ən balaca kargüzardan tutmuş partiya və dövlət işçisinə qədər - yumruq kimi birləşməyə, hər şeyi unudub, Vətən naminə eyni hədəfə vurmağa çağırıram"*.

Çox təəssüf olsun ki, həyəcan təbilini andıran çağırışa məhəl qoymayanlar da tapıldı. Vəzifə hərisliyi, kreslo həvəsi vətən, millət mənafeyindən üstün tutuldu. Kimlərinsə hakimiyyətdən, vəzifədən getməsi naminə minlərlə günahsız insan qırğına verildi. Bütün bu olaylar onu göstərir ki, indi utanmağa çox yerimiz var: utanırıq (əlbəttə, eybini görməyənlər də var) gənc nəsildən ki, onların boynuna gələcəkdə görülməsi çətin olan yük qoyduq; utanırıq Vətəndən-vətənə həsrət baxanlardan; utanırıq əsir kənd və şəhərlərimizdən...

Şairin güclü intuisiyası hələ bir neçə onilliklər bundan öncə xalqın belə bir fac  ilə qarşılanacağından xəbər verirdi və onda yazırdı ki, səhvlərimizdən doğan problemləri gələcək nəsil bizə bağışlamayacaq.

Onlara qoyduğumuz çətinlikləri aradan qaldırmaq üçün:

> ***Gələcəyin övladları iş görəcək,***
> ***Amma dua əvəzinə "lənət" deyib***

---

***Bax: Vahabzadə.B. Şənbə gecəsinə gedən yol. Bakı, Azərnəşr, 1991, səh. 162**

*Qəbrimizə tüpürəcək.*
*Deyəcəklər, ey babalar,*
*Yaş yetirib kal oldunuz.*
*Səbrinizə heyrətdəyik,*
*Siz dözümdə fil oldunuz.*

Baş verən hadisələrə biganəliyimiz, düşmən önündə tənhalığımız zamanın yaddaşında belə qaldı: "Xalq faciə ilə qarşılaşanda, şair də, akademik də, həkim də, bəstəkar da əsgər olduqlarını unutmasalar, dərd yüngül olar. Əfsus ki, Yanvar faciəsi bunun əksini göstərdi. Həmin günlərdə Bəxtiyara qoşulan, Bəxtiyarla bərabər səsini ucaldan ya bir idi, ya iki..."* B.Vahabzadə, Xəlil Rza Ulutürk, İsmayıl Şıxlı kimi ziyalılarla ozamankı ağır günlərin azadlıq mücahidləri, müsəlləh əsgərləri kimi mübarizənin önündə idilər. Xalqın fədakar oğulları öz qeyrətli hərəkətləri ilə tarixdə iz buraxdılar. Bu izlər təkcə tarixdə qalmaq üçün yox, xalqın öz gələcəyini düzgün müəyyənləşdirmək naminə qoyulmuşdur. Bunun üçün onların böyük tərbiyəvi dəyərə malik olan şərəfli əməlləri müasir və gələcək nəsillərə çatdırılmalıdır.

Bu bir həqiqətdir ki, tarixə düşmək üçün bəzən bir insan ömrü də kifayət etmir. O da bəllidir ki, qəhrəmanlığa gedən yol uzun olsa da, ona nail olmaq üçün bir an da yetərli olur. Bircə B.Vahabzadənin Azərbaycan xalqının yaddaşında daimi qalması üçün 20 yanvar hadisələrindən sonrakı bir həftəlik fəaliyyəti də kifayətdir. O həftə nələri ilə yadda qalandır. Öncə şairin rus generalı Ovçinnikovla qarşılaşması, daha sonra Respublika Televiziyası ilə çıxışı, nəhayət, Ali Sovetin (növbədənkənar) fövqəladə sessiyasının iclasını aparması ilə.

***Bax: "Yeni Turan" qəzeti, 7 aprel 1993-cü il**



Üzə tüpürmək haradasa nəzakətsizlik deyil, nifrətin son məqamıdır. Nədir nifrət? "Qəlbin təlatümü, hisslərin tufanı, ağlın üsyanı" **(Bəxtiyar Vahabzadə).** Əliyalın millətin üstünə tankla gələn general ancaq belə nifrət silahı ilə qarşılanmalı idi, qarşılandı da. Şairin dilindən eşitdiklərim: "Hadisənin sonrakı günü çıxış etmək üçün telestudiyaya getdik. Orada bizə dedilər ki, enerji bloku dağıdıldığından, televiziya işləmir. Geri dönərkən rus generalı ilə qarşılaşdıq... Əməllibaşlı didişdik. Hücumlarıma tab gətirmədiyindən, o, əlini tapancasına atıb, məni vurmaq istədi. Yanımızda olan rejissor Nazim Abbasov onu qucaqlayıb, nəsə dedi. Ancaq bundan sonra general fikrindən əl çəkdi. O gün "Yırtıcı yağının yad sifətinə tüpürmək - şəhidlik mərtəbəsi idi" **(Yusif Nəğməkar).** Ağlamaq acizliyin əlamətlərindən biri sayılsa da, həmin gün şair aciz deyildi. Bu onun xarakterinə yaddır, axı biz onu ən gərgin məqamlarda belə sözünü güllətək qarşı tərəfin üzünə sıxan görmüşük...

O gün televiziya ekranlarında şair ağlamırdı, deyə bildikləri və bilmədiklərini xalqına düzgün çatdırmaq üçün ən təsirli, ən müdrik seçim idi, nifrətini ildırım tək çalmaq üçün boşalırdı. ...Yox, yox, o gün şair ağlamırdı, vulkan idi, püskürürdü...

Əlbəttə, üçüncü məqam da özünün digər keyfiyyətləri ilə yaddaşlarda qaldı. Qara 20 Yanvarın sonrakı günləri hamı - Böyük, kiçik şok vəziyyətində idi. Axı, günahsız qanlar tökülüb, yüzlərlə insan şəhid olmuşdu. Ə.Vəzirov respublikadan qaçmışdı, ixtiyar sahiblərinin bir çoxu susmağı, bir qismi də gözləmə mövqeyini tuturdu. Belə bir vaxtda sözü ancaq ən ali kürsüdən deməklə, ünvanına çatdırmaq olardı. Ona görə də Ali Sovetin fövqəladə sessiyasının çağırılması tələb olundu. Çətinliklə də olsa, bu imkan yarandı.

B.Vahabzadə efirdən respublika deputatlarına müraciət edib, yanvarın 21-də saat 6-da fövqəladə sessiya çağırıldığını elan etdi: "Vəzifəli deputatlar - rayon partiya komitələrinin birinci katiblərinin çoxu, MK katibləri **(H.Həsənov istisna olmaqla, nazirlər sessiyaya gəlmədi*)"**. Elmira Qafarova sessiyanın iclasını aparmağa kömək üçün B.Vahabzadəni yanına çağırdı. Yenə şairin dediklərindən: "Mən də özümə kömək üçün İsmayıl Şıxlını yanıma dəvət etdim". Səhər saat 8-ə qədər davam edən sessiyada çox mühüm qərarlar qəbul olundu: "Bakıda fövqəladə vəziyyət elan edilməsi haqqında SSRİ Ali Soveti Rəyasət Heyəti fərmanının icrasının dayandırılması barədə qərar qəbul etdi və qoşunların şəhərdən çıxarılması tələbini irəli sürdü və hərbi hissələrin qanunazidd hərəkətləri haqqında qərar qəbul etdi. Faciəli hadisələrin səbəbini öyrənmək üçün deputat komissiyası yaradıldı. Deputatlar SSRİ xalqlarına və eləcə də, dünyanın bütün xalqlarına və parlamentlərinə müraciət qəbul etdi".**

Heç şübhəsiz, bu kəskin mövqeyinə görə Moskva Bəxtiyar Vahabzadəni müxtəlif bəhanələrlə həbs etmək istəmişdi. Ancaq onun xalq arasındakı böyük hörməti, beynəlxalq aləmdəki nüfuzu Kremli bu fikirdən çəkindirdi.

Ertəsi günü B.Vahabzadə xalqı ilə birgə milli müstəqillik uğrunda həlak olmuş övladlarını son mənzilə yolasalma mərasimində iştirak etdi. Bakının matəm libaslı, gözəlliyin rəmzi kimi vəsf etdiyi qərənfilin şəhid qanına boyanması, anna və bacıların fəryadı şairin incə, həssas qəlbinə od qoysa da, xalqın matəmdəki maddi və mənəvi birliyi onu heyran etdi: "Ey mənim dözümlü xalqım, görə bilmədiyimiz, qiymətləndirə bilmədiyimiz ürəyinə, bu ürəkdə yatan namusuna, qeyrətinə qurban olum! Sən nə qədər böyüksənmiş!" - etirafı ilə ortaya çıxıb, inamını bürüyən dumanı uzaqlara qovdu. Şair gələcək nəsillərə daha dəqiq məlumat vermək üçün canlı şahid kimi, 20 Yanvarın dəhşətli mənzərələrini yaddaşlara köçürtdü. Həmin yazılarda fikrimin ətraflı ifadəsinə körpü salan bir parçada oxuyuruq: "Xalqımız 40 gün dədə-baba qaydası ilə matəm saxladı, 40 gün bütün respublika işləmədi. Xalq başına açılan müsibətə etiraz əlaməti olaraq tətil elan etdi.

İşləmədiyinə görə, Bakı və Sumqayıt fəhləsi maaş almadı. Gəncə və Şəki kimi şəhərlərin fəhlələri tətilə qoşulub işləmədi. Ən ucqar kəndlərdən və rayonlardan camaat boğazından kəsib, tətilçilərə ərzaq və pul göndərdi. Yalnız Gürcüstanın Borçalı mahalında yaşayan azərbaycanlılar Bakıya 41 maşın ərzaq gətirdilər".

Bəli, Gürcüstandan Bakıya gedən 41 ərzaq maşınından 8-i məhz mənim fəal iştirakım ilə Gürcüstanın Saqareco rayonundakı Qaraçöpdən aparılmışdı. Mənim vətənpərvərlik mövzusundan bu qədər ağrılı danışmağıma oxuculardan ola bilsin, kimsə şübhə etsin. Ortaya çıxacaq hər hansı şübhəni aradan qaldırmaq və öz xalqıma səmimiyyətimi, şəxsən Bəxtiyar müəllimlə həmrəy olduğumu öyrənmək üçün o günlərin ağrı və acılarını özündə əbədiləşdirən aşağıdakı qəzet və kitablara üz tuta bilər (M.Axmedova, Qaraçep s toboy Baku! "Baku", 8 fevralya 1990 qoda, Zülfü İlyasov, Fərhad Xubanov. Odlar yurdu, odun sönməyəcək. "Sovet Gürcüstanı" qəzeti. 15 fevral 1999-cı il. Qaraçöp. Ədəbi-etnoqrafik toplu. Tərtib edəni və nəşrə hazırlayanı: Nəriman Əbdülrəhmanlı. Bakı, "Dünya" nəşriyyatı, 1996, səh. 98-101).

Bütün bu deyilənlər bir daha onu göstərir ki, Bəxtiyar Va-

***Bax: Vahabzadə B. Şənbə gecəsinə gedən yol. Bakı, Azərnəşr,1991, səh. 200**
**** Bax: Yenə orada. Səh. 220**

habzadə xalqımızın ən ağır günlərində də onun yanında olub. Efirdən, yüksək tribunalardan xalqının iradəsini ifadə edən vicdanlı sözünü, tələbini sərt və sərrast deyib. Belə qeyrətli və cəsarətli addımlar, əlbəttə, əsl vətənpərvərlik və qəhrəmanlıq nümunəsidir.

1990-cı ilin qara yanvarı Azərbaycan xalqının tarixinə qara hərflərlə yazıldı. Təkcə tarixəmi? Yox, Qara Yanvar qara kölgə kimi ədəbiyyat və digər sənət əsərlərindən də keçdi. Tezliklə **"Şəhidlər"** şeri yazıldı. Şer qəzəbli və qəmli mahnıya çevrilib, dodaqlarda gəzdi. Cəmi 4 aydan sonra isə şairin özünün dediyi kimi, gözünün yaşı ilə yazdığı "Şəhidlər" poeması ortaya çıxdı. Bu əsər hər şeydən əvvəl B.Vahabzadənin ürək yanğısı, qəzəb səsi, həqiqət axtarışı idi.

Bakı faciəsinin dəhşətlərinin dünyaya çatdırılması, totalitar Sovet rejiminin pislənməsi bir çox yerli dövlət məmurlarını, xüsusən də, Moskvanı qəzəbləndirdi. Bütün bunlara baxmayaraq, şair öz mübarizə yollarında inamla addımlayırdı. Pis tərəfi o idi ki, B.Vahabzadə töhmət və təzyiqi təkcə rəqiblərdən yox, bəzən yaxın adamlardan, hətta qələm yoldaşlarından da görürdü.

*Min töhmət eşidərdim o vaxt yaxınlarımdan:*
*- Tərs qurulub əzəldən bu dünyanın gərdişi.*
*Sənmi düzəldəcəksən bu tərs yönü, tərs işi?*
*Eşitdim bu sözləri çoxlarından min kərə.*

Eloğlularından, yaxınlarından gördüyü bu tən və töhmət bir insan kimi şairi bəzən sarsıdırdı. Bir də ona görə sarsıdırdı ki, biz hələ də düşmənə hədsiz kin və nifrət bəsləmək əxlaqına tam sahib olmamışıq. Bu xalq "Yalan kəfənliyinə haqqın bükülməsini" hələ də dərk etmir. Bunun üçündür ki:



*Dağdan ağır dərdimiz kimsəni sarsıtmayır*
*Gördüm, yalan bürcdədir*
*Həqiqət isə küncdədir.*
*Gördüm, yalan quduzmuş,*
*Gördüm, həqiqətlərim müftədən də ucuzmuş.*
*Susdum...*
*...Gördüm, indi də "Niyə susursan?" - deyə*
*Başladılar gileyə*
*Yağdı mənim başıma indi də başqa töhmət.*
*Danışmağım qəbahət,*
*Susmağım da qəbahət?*

Danışmağın da, susmağın da qəbahət sayıldığı bir məmləkətdə şairin keçirdiyi dərin psixoloji sarsıntıları duymaq o qədər də çətin deyil. Bəzən vicdanının səsini boğmaq, olmazın haqsızlıqlara göz yummaq onu haldan-hala salırdı. Axı, Bəxtiyar Vahabzadə ömrü boyu yad havasına oynamayıb. Özünün dediyi kimi, onun öz "Bağdadur"u var. Oynasa da, yalnız içindəki havaya qol-qanad açıb, bir az da dəqiq desək, o, dünyaya içinin gözü ilə baxıb...

SSRİ dağıldıqdan sonra Azərbaycan Milli Müstəqilliyimizin ilk günlərindən böyük çətinliklərlə üzləşməli oldu. Belə ki, ölkədə ordu hələ də formalaşmamışdı. Döyüş bölgələrində dəstələr vahid komandanlığa yox, ayrı-ayrı şəxslərə xidmət edirdi. Torpaqların müdafiəsi əvəzinə cəbhə bölgələrində dünyanın ən murdar alveri gedirdi. Qeyrətli, vətənpərvər oğullarla yanaşı, vətən torpağı düşməndən çox, daxili xəyanətin qurbanı olurdu.

*Satdılar əqidəni, eşqi, məsləki,*
*Ləyaqəti, namusu bir əşya təki.*
*Çox şeyimiz satıldı, dözdük, dinmədik,*

*"Bir gün satqınlarımız ayılar" - dedik.*
*Yox, onlar ayılmadı, kül atıb gözə*
*Torpağı da satdılar düşmənimizə.*
*Bizim xəyanətimiz bizdən öc aldı*
*Satılmamış görəsən, daha nə qaldı?*
*Güldürdük bu millətə bütün dünyanı,*
*Anan ölsün, ay Vətən, sahibin hanı?*

- sorğusu ilə şair Bəxtiyar bu ağır günlərdə ölkəyə yiyə duran, baş bilən, qeyrətli biri kimi axtarır. Daxilində hakimiyyət uğrunda gedən çəkişmələrdən istifadə edən erməni hərbi birləşmələri rus ordusunun köməyi ilə Azərbaycan Respublikasının ərazisinin dörddə birini işğal etdi. Nəticədə bir milyondan artıq soydaşımız öz doğma el-obasından didərgin salındı, minlərlə yaşayış məntəqəsi düşmən əlinə keçdi.

Belə ağır günlərdə B.Vahabzadə yaradıcılığındakı tərənnüm motivləri başdan-başa mübariz çağırışlarla əvəz olundu. Tez-tez müharibə bölgələrində, döyüşçülər arasında olan Bəxtiyar **"Qalx ayağa"** şeri ilə şair-komandan kimi bütün Azərbaycan xalqını vətənin müdafiəsinə səslədi. Kreslo hərislərindən tutmuş milli mücahidlərə qədər hər kəsi agah etdi ki, "Biz hələlik günahkarıq". Nə qədər ki, münbit torpaqlarımız, tarixi abidələrlə zəngin olan şəhər və qəsəbələrimiz, yeraltı və yerüstü sərvətləri ilə dillər əzbəri olan dağlarımız, bağlarımız bu gün də düşmən əsarətindədir, Vətən bizi bağışlamayacaq. Şerin ritmində millətinə, xalqına, bütövlükdə Vətəninə bağlı bir şair - alimin narahat ürək döyüntüsü eşidilir:

*Qalx ayağa!*
*Öz haqqındır zəfər sənin.*
*Carçısı ol qələbənin!*



*Qalx ayağa!*
*Diz qatlamaq yaraşarmı*
*Bilgə xanın nəvəsinə?*
*Sən geriyə adladıqca,*
*Düşmənin qabağında*
*Dizlərini qatladıqca*
*Kiçilirsən,*
*O, böyüyür,*
*qalx ayağa!*
*Ayağını ürəklə vur bu torpağa.*
*Sən qalxdıqca böyüyəcək,*
*Düşməninsə kiçiləcək.*
*Düşmən dönüb indi səni*
*Qabağında dağ biləcək.*
*Tülkülərin qabağında qaçmağını*
*Axı, sənə bağışlamaz qurd babamız.*
*Qalx ayağa!*
*Xankəndinə çatmalıdır*
*Bizim zəfər arabamız.*
*Vətən oğlu,*
*Maya tutmuş sənin qanın*
*Bu torpaqdan, bu Vətəndən.*
*Qalx ayağa,*
*İmdad umur Vətən səndən.*

Göründüyü kimi, şerin əsas qayəsi hər bir Azərbaycan vətəndaşını möhkəm, həqiqi birliyə - Vətənin müdafiəsinə səfərbər etməkdir. Bilgə xanı, qurd babamızı xatırlamaq və **"Qalx ayağa!"** ifadəsini dəfələrlə işlətməklə vətəndaşlarımıza mübariz əxlaqi-ruhiyyə, gümrah ovqat təlqin edir.

1992-1994-cü illərdə Qarabağ uğrunda gedən döyüşlərdə

neçə-neçə oğul və qızlarımız fədakarlıq, əsl qəhrəmanlıq göstərdi. Xalqı, torpağı naminə qeyri-bərabər döyüşlərdə belə bir addım da geri çəkilməyərək, ölümün şəhidlik zirvəsinə ucaldı.

Əlbəttə, onların milli mübarizə təcrübəsi bütöv bir nəslin, xalqın bu ruhda tərbiyə olunmasında müstəsna rol oynamışdır. Təəssüf ki, millətin, Vətənin tale məsələsi həll olunanda qeyrət və təşəbbüs göstərməyənlər də tapıldı. Nəinki qeyrət və təşəbbüs göstərməyənlər, hətta fərarilik edənlər də tapıldı. Belə insanlara qarşı şairin səsi həmişə sərt və güzəştsiz olmuşdur. B.Vahabzadə **"Dayan, qaçma, dayan"** şerində fərariliyi əxlaqazidd bir hal kimi pisləməklə belə insanlara nifrət edir. Bədii sualların səfində nifrətini daha da gücləndirir. Torpağı dədə-baba məzarlarını qoyub qaçan, "kişilərə" poetik sillə vurmaqla, onları vicdanın mühakiməsinə çəkir:

***Sən hara qaçırsan, ay Vətən oğlu?***
***Qaçdığın o torpaq sənin deyilmi?***
***Sənə pay verilən o ata yurdu,***
***O çeşmə, o bulaq sənin deyilmi?***
***Qaçırsan, qaçdığın o yurd-yuvanı,***
***Yoxsa ermənіyə bağışlayırsan?***
***Yoxmu damarında əcdadın qanı,***
***Özünü Vətənsiz sən nə sayırsan?***
***Özün de, qılıncsız bir qın olarmı?***
***Özün de, kişi də qaçqın olarmı?***

Şairi bir vətəndaş kimi qəzəbləndirən bir də odur ki, torpağın ərsəyə gətirdiyi bu insanlar nə üçün Vətənin ağır günlərindən onun fəryadını eşitmir? Nə üçün Vətənin şərəfini qorumaq əvəzinə şərəfsizlik yolunu seçirlər?:

***İmdada çağırdı bu fəryad səni,***
***Məgər eşitmədin sən bu naləni?***
***Havası, suyuyla hansı gün üçün***
***Ərsəyə çatdırmış bu Vətən səni?***

Şair xalqın ər kişiləri ilə öyünüb, fəxr etdiyi aramızda vicdanı kasad, qeyrətsiz, satqın insanların olduğunu da gizlətmir. B.Vahabzadə həqiqəti söyləməklə, pis əməl sahiblərini kimlərəsə tanıtmaq istəmir. Əksinə, mövcud nakişiliyi şerlərinin qanadında məhz həmin əməl sahiblərini özünə çatdırır. Sorğu-suala tutmaqla onları məhşər ayağına çəkir:

***Sən qaçdın, "canımı qurtarım" - deyə,***
***Sən qaçdın qeyrətdən qeyrətsizliyə.***
***Canını qurtardın...***
***Bəs, yad əlindən***
***Yurdunu, yuvanı kim qurtaracaq?***
***Gör, nəyə çevrildin öz əməlindən***
***Sənin bir adın var: yurdundan qaçaq!***

Şair ədəb-ərkanla zidd bu neqativ halları yenidən idrakı, ağıl və düşüncəyə çatdırmaqla onu demək istəyir ki, öncə millətin bu biqeyrət, fərari təbəqəsi tutduğu yoldan çəkilib, ər kişilərin getdikləri yola qayıtmalıdır. Hamı bir yumruq kimi vahid komandanlıq ətrafında birləşməli, əsir torpaqlarımız heç vaxt azad olmayacaqdır.

Bütün bu deyilənlər onu göstərir ki, B.Vahabzadənin yaradıcılığında milli hiss aparıcıdır. Vətənpərvərlik ideyaları onun həm əsərlərində, həm də əməli fəaliyyətində aydın görünür. Millətin, Vətənin taleyi ilə bağlı ciddi problemlərin

həllində yaxından iştirak edir. Xalqına qarşı düşmən mövqeyində duranları bütün kəskinliyi ilə ifşa edərək, Azərbaycan həqiqətlərini dünyaya çatdırır. Şairin həyat və yaradıcılığını diqqətlə izlədikcə, Azərbaycanın siyasi, iqtisadi və mənəvi müstəqilliyi uğrunda aparılan mübarizələrdə tutduğu layiqli yer aydın görünür. Bunlar B.Vahabzadənin gördüyü çox böyük işlərin az bir hissəsidir. Bunlarla yanaşı, şair yer üzərində əmin-amanlığın mücahidi kimi ayrı-ayrı xalqların milli azadlıq mübarizəsinin təsvirinə də yaradıcılığında xüsusi yer ayırır. Yazdığı silsilə əsərlərində bəşəriyyətin taleyi üçün narahatlıq, vətəndaşlıq və məsuliyyət hissini bütün insanlara, xüsusən də gənc nəslə aşılayır. Vətənpərvərlik hissi onun içində dərin kök salıb. Bunun nəticəsidir ki, o, əsl vətənpərvər, müdrik insana yol göstərən sənətkar kimi məşhurlaşıbdır.

B.Vahabzadə həm də doğma dilin tarixi taleyi və müqəddəratını qeyrətlə düşünən, qayğı göstərən bir sənətkardır. O, əsərlərində dilin saflığı, onun qorunub saxlanması məsələsinin daha ciddi və mübariz şəkildə qoyulmasında bir çox müasirlərdən irəli gedir. Şair ana dilimizin təkcə ona görə müdafiəçisi deyil ki, o, ata-babamızdan bizə miras qalıb. Ana dilinin üstündə bir də ona görə əsirdi ki, dil millətin varlığının əsasıdır. O, həm də milli şüurun yetişməsində müstəsna əhəmiyyətə malikdir. O səbəbə ana dilimizin göz bəbəyi kimi qorunub, gələcək nəsillərə ötürülməsini müqəddəs borc hesab edir. Şairin dil haqqında söylədiyi müdrik kəlamlar heç bir vaxt aktuallığını itirməyəcək, xalqın bədii təfəkküründə əbədi qalacaqdır. Hesab edirəm ki, gələcək nəsillər öz doğma dilini dəlicəsinə sevmək bacarığını məhz B.Vahabzadədən öyrənəcəkdir.



## II FƏSİL:
## İnsan və insanlıq uğrunda mübarizə yollarında

Dünyada ən qiymətli sərvət olan insan problemi - insanın mahiyyəti, insan ləyaqətinə hörmət, insanın cəmiyyət üçün məsuliyyət daşıması, insanda insaniyyət tərbiyə etmək kimi məsələlər uzun əsrlər boyu mütəfəkkirləri düşündürmüş və həmin problemlərin nəzəri və bədii həllinə sövq etmişdir.

Azərbaycanın Nizami, Nəsimi, Füzuli və Hadi kimi görkəmli söz ustaları da bu problemin həllində yaxından iştirak etmiş və tövsiyələrini vermişlər. Bu ənənəvi mövzuya şair-filosof Bəxtiyar Vahabzadə də orijinal baxışı, fikir və mülahizələri ilə gəlmişdir. Professor Nizami Cəfərov şairin bu sahədəki orijinallığını belə açıqlayır: "B.Vahabzadənin insan probleminə fəlsəfi münasibətinin orijinallığı, birinci növbədə, insana milli əxlaqın, mənəviyyatın məhsulu kimi baxmasında təzahür edir - milli kökə bağlılıq, ənənəvi (regional) həyat tərzi ilə müasir (planetar) həyat tərzinin harmoniyası, şəxsiyyətin cəmiyyətdə özünüifadə imkanlarının genişlənməsi, cəmiyyətin şəxsiyyət, şəxsiyyətin cəmiyyət üçün məsuliyyət daşıması və s. məsələlərlə əlaqədar mülahizələri Bəxtiyarın insan konsepsiyasını müəyyən edir".*

---

***Cəfərov N. Bəxtiyar Vahabzadə. "Azərbaycan" nəşriyyatı, Bakı, 1996, səh. 42**

Bu konsepsiyanın özəyində insanlıq durduğundan onun taleyi üçün şairin nigarançılığı təbiidir:

*Qorxuram, dünyada bir zaman gələ,*
*İnsanlar yaşaya, insanlıq ölə...*

Bəşəriyyətin taleyi üçün narahat olan şair insan probleminin həllini öncə insanlığın qorunub saxlanmasında görür. Haqqın-ədalətin tapdalandığı, etnik münaqişələrin baş alıb getdiyi, mənəviyyatın yoxsullaşdığı müasir dünyada insanların insanlığa, xeyirxahlığa və qayğıkeşliyə ehtiyacı daha çoxdur. Şair insan problemindən danışanda, oxucuların diqqətini insan təşəkkülünün ilkin çağlarına cəlb edir. Tamahın, nəfsin törətdiyi fəlakətləri xatırladır:

*Baş çıxarmaq həm çətindir, həm asan,*
*İblisindən, mələyindən dünyanın.*
*Adəm satdı bir buğdaya cənnəti*
*Tora düşdü kələyindən dünyanın.*

Göründüyü kimi, şerdə ilk insanın buraxdığı ilk səhv xüsusi vurğulanır. İnsanla qoşa yaranan və qoşa da addımlayan nəfs və tamaha qarşı bütün zamanlarda mübarizə aparılıb və bundan sonra da aparılacaq. Çünki bu qüvvələr hazırda da yeni qiyafədə, yeni donda daha kütləvidir. Odur ki, şair bütün insanlara bir daha xəbərdarlıq edir ki, nəfs və tamahı öz iradənə tabe etməsən səni "Dibi görünməyən qutu"ya salacaq:

*Nəfsinə qul olsan... Nə deyim sənə?*
*Ağlına güvənmə, güvən mədənə.*



*Adın insan olar, özün böcəksən*
*Boyundan yüz dəfə kiçiləcəksən.*
*Dünyanı udsan da doymaz gözlərin*
*Dibi görünməyən qutudur tamah.*
*Adəmdən Hatəmə dəyirman təkin*
*Nə töksən,*
*əridər,*
*üyüdər tamah.*
*Özünü yüz dəfə kiçildib, amma*
*Mədəni yüz misli böyükdür tamam.*
*İnsan dərk edirsə bu gerçəkləri,*
*Onun zatındakı tamah bəs, nədir?*
*Cənnəti almaya satandan bəri*
*Tamah, ləyaqətlə bəhsəbəhsdədir.*
*Nəfsinə uyanın*
*Dövri-qədimdən*
*Həmişə silahı xəyanət oldu.*
*Bu da qəribədir,*
*Bəs, neçin görən,*
*Tamahın qurbanı ləyaqət oldu?*

Çünki ləyaqət zərif, saf və təmizdir. İnsanlığa dəyən zərbənin ilk qurbanı məhz ləyaqət olur. Nəfs və tamah bir oxun iki ucu olub, biri digərini tamamlasa da, hər biri ayrı-ayrı fərqli əlamətlərə malikdir. Əxlaq nəzəriyyəçiləri yazır ki, nəfs nisbətən geniş anlayışdır, bu, özünü müxtəlif şəkildə büruzə verir. Tamah da maddi həyatla yanaşı, insan mənəviyyatının müxtəlif sahəsində özünü göstərir: "Tamah nəfsin, ağlın himayəsindən çıxmasıdır, biolojiliyin bəşəriliyə qalib gəlməsidir. İnsan öz ağlının səsinə qulaq asmayıb, nəfsinin quluna çevrilirsə, tamah onu rəzalətə doğru sürükləyir-

sə, onun iradəsi tamahkarlığı qarşısında acizlik çəkirsə, onda heyvanilik insaniliyə qalib gəlir, insan nail olduğu bəşəri, insani ülviliklər zirvəsindən enib, heyvani instinktlərə doğru alçalır. Bu, insan üçün ən böyük bədbəxtlikdir"*. Odur ki, şair bütün yaradıcılığı boyu nəfs və tamah tərbiyəsinə xüsusi əhəmiyyət vermiş və əsərlərində dönə-dönə bu məsələyə qayıtmışdır. Klassik sələfləri kimi, B.Vahabzadə də nəfs və tamahı əxlaqın qənimi saymış və hər cəhətdən pisləmişdir. Tamaha göz yumub, nəfsi öldürməyi dünyada ən böyük səadət hesab etmişdir.

Yeri gəlmişkən, onu da qeyd edək ki, insanın insanlıqdan çıxması, onun mənəvi-əxlaqi aləmi, şəxsiyyətindəki aşınma və bütün bunlarla yanaşı, insanın daxili-mənəvi təkamülü B.Vahabzadənin dram əsərlərinin də aparıcı mövzularındandır. Bu məsələdən ətraflı bəhs edən filoloq-alim Mürşüd Məmmədli yazır ki: "Dramaturq "Fəryad" mənzum dramında tarixdən müasirliyə cəsarətli keçid etmiş, orta əsrlərin əzabkeş mütəfəkkirlərinin baxışlarını çağdaş dövrün bədii-fəlsəfi, sosial-mənəvi axtarışları, düşüncələri ilə daha da zənginləşdirmişdir".

***Dünyasına dünyada xəyanətdir insan,***
***Məst olmalı, qəsd olmamalı haqq şərabında,***
***Yoxdur qərəzin xətti həqiqət kitabında,***
***Öz nəfsinə qul olsa, cəhənnəm əzabında,***
***Öz nəfsinə qul olmasa, cənnətdədir insan.***
***Ruhundan ötüb, cisminə qulluq eyləyərkən,***
***İnsana deyil, şeytana minnətdədir insan.***

***Göyüşov Z. Fəzilət və qəbahət. Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1972, səh. 100.**



Mənəvi mükəmməllikdən, zehni kamillikdən keçmədən, Allahın dərgahına qovuşmaq mümkün deyil! Fəryadın fəlsəfi-ictimai əsasını böyük Mövlana aşağıdakı şəkildə nişan verirdi:

"Bizim fəqanımız müztər və qüdrətsiz olduğumuzun dəlilidir. Yandığımızdan utanmamız da əlimizdə ixtiyar olduğuna dəlildir".

"Şair-daramaturqun fəryadı da ictimai naqisliklərlə, mənəvi fəsadlarla qovğada insanın düşdüyü "müztər" və "qüdrətsiz" halından, ovqatından qaynaqlanır. Külli-əqlin və bütün varlığın sahibi olan Allahın yer üzündəki zərrəsi, kölgəsi sayılan insanda bir belə zavallıq, acizlik nədən qaynaqlanır?".*

Əlbəttə, bunun bir neçə səbəbi var. Tarixin təcrübəsi göstərir ki, zaman-zaman müəyyən dini zümrə və dairələr, əyyan və şahlar dini saxtalaşdıraraq, ondan bir vasitə kimi şəxsi məqsədlər üçün istifadə etmişlər. Zərərli dini ehkamları təbliğ etməklə, insanı öz "mən"indən uzaqlaşdırıb, idrakını korşaltmışdır. Bununla da insan hər hansı ülviliyi özündə yox, kənar mənbələrdə axtararaq, asılı vəziyyətə düşmüşlər.

Daha bir səbəb. Bütün zaman və məkanlarda şər qüvvələr mövcud olmuş və olaraq da qalır. Bu şər qüvvələr öz zülm səltənətini uzunömürlü etmək üçün öncə həqiqəti dərk edən şüurları məhv etmiş, azad və sərbəst düşüncəni buxovlamış, insanlıq uğrunda mübarizələri öz əqidə yolundan çəkindirmək üçün zindanlara ataraq ağır işgəncələrə məruz qoymuşlar. Nəticədə insan hüquqları pozulmuş, şöhrət və ləyaqəti tapdanmış, bir sözlə, insanlıq sındırılaraq, şikəst edilmişdir.

***Bax: "Azərbaycan" jurnalı. 2004-cü il, №9, səh. 176-177**

Fəryadın səsi uzaq əsərlərdən gəlsə də, yaşadığımız məkan və zamanda əks-sədası daha güclüdür. Mövzu tarixdən götürülsə də, əsərin diqqət mərkəzində duran problem müasir dövrümüz üçün də aktualdır. Nəinki müasir dövrümüz, nə qədər ki, insan mövcud olacaq, bütün zamanlar üçün gərəkli olaraq qalacaqdır. Odur ki, "dramaturq insan problemini geniş mənada keçmiş, indiki və gələcək kontekstdə götürür" **(Firudin Köçərli).**

Zamanın səhifələrinə həqiqət və ədalət carçısı kimi həkk olunan Nəsiminin fəlsəfi-estetik konsepsiyasının mərkəzində insan ləyaqətinə hörmət, fikir və şəxsiyyət azadlığı durur. Heç şübhəsiz, B.Vahabzadə **"Fəryad"** pyesini yazmaqla insana bu böyük şəxsiyyətin gözü ilə baxmaq istəmişdir.

Şair-dramaturq Loğman, I Nəsimi, II Nəsimi, Rəhman və Dəyanət kimi xeyirxah və işıqlı obrazların dili ilə zülm üzərində qurulan səltənəti, insan idrakını buxovlayan quruluşu, şərəfsiz və əqidəsiz adamların hakim olduğu cəmiyyəti, bir sözlə, yaşayışın yolunu yaltaqlıqda, yalanda, fitnə və fəsadda görən insanları pisləyərək, tənqid edir.

Əsər **"Fəryal"** adlansa da, onun nikbin ruhunda insanın ləyaqətinə hörmət, güc və qüdrətinə böyük inam var:

***Gec-tez özün öz qüdrətini dərk edəcəksən,***
***Zülmün üzünə haqq deyilən silləni çəkəcəksən.***
***Silləndə möhürlənmiş o qeyrətdədir Allah,***
***Cahil enər alçaqlığa, öz qəlbinə yenməz.***
***Vicdandan əgər dönsə də, xeyrindən o dönməz***
***İlqarda, sədaqətdə, məhəbbətdədir Allah.***

Bəli, rəhmli və qadir Allah insanlığa ləkə vuranların, yalana həqiqət donu geydirənlərin, yaltaq və ikiüzlüyü fərasət kimi başa düşənlərin ürəyində ola bilməz. Bu ali varlıq ancaq xeyirdə, işıqda, ucalıqda qərar tutur. Yuxarıda birinci Nəsiminin dili ilə verilən parçada "Allah mənəvi ucalıq zirvəsinə yüksələnlərin gözəllik və kamillik önündə heyrəti, zülmə qarşı mətanəti, eyni zamanda zülmkara müqavimət və mübarizliyidir. Allah insanın varlığına hakim kəsilib, aydınlığa, nəciblik aləminə, xeyirxahlığa və humanizmə çağıran vicdani duyğuların sintezidir. Onlara görə, Allah təmiz ürəklərin pərsəngsiz tərəzisində çəkilən ali məziyyətlərin məcmusudur. Bu məziyyətlər həyatı dərk etməyin, öz haqqını başa düşməyin, cəsarət və dəyanətlə yaşamağın əsaslarıdır"*.



Odur ki, əsərdə Allahın adı ilə cinayət törədənlər, dini saxtalaşdıranlar, hər cür zülm və işgəncələrə haqq qazandıranlar ifşa edilir. Bütün bu deyilənlərdən aydın olur ki, şair-dramaturq B.Vahabzadə insan probleminin nəzəri və bədii həllinə nail olmaq üçün bütün imkan və vasitələrdən bacarıqla istifadə edir və hətta insanları tarixlə tərbiyələndirməyə cəhd edir və əsasən, buna nail olur.

Əsərin çox böyük tərbiyəvi əhəmiyyəti var. İnanırıq ki, gələcək nəsil bu pyesdən bəhrələnməklə hər yerdə və hər zaman insanlığı uca tutacaqlar.

Şairin yaradıcılıq aləminə daxil olan oxucu öncə insanlığa yol göstərən digər hikmətlərlə də qarşılaşır:

***Ləyaqət - insanın ikinci adı,***
***Ləyaqət - insana ən doğru ünvan.***
***...İnsan qətrə-qətrə insanilaşdi***

***Bax: Azərbaycanın Bəxtiyarı. Hüseyn Razi. Fikirlərin üsyanı. "Azərbaycan" nəşriyyatı, Bakı, 1995, səh. 348**

*Qazandıq bu adı biz gilə-gilə.*
*İndi ləyaqətlə qazandığımız*
*İnsanlıq adını itirəkmi biz?*

B.Vahabzadə insanın bir şəxsiyyət kimi formalaşmasının əsasını ləyaqətlə, şərəflə yaşamasında görür. Ləyaqət insanın ikinci adıdırsa, insan da mənəvi ləyaqətin rəmzidir. İnsan içində ləyaqət duyğusunu oyaq saxlamağa qadir deyilsə, demək, o insanlığını itirmişdir. Ləyaqəti qiymətləndirən həlledici qayə - insanın Vətən mənafeyini şəxsi mənafeyindən yüksək tutması, haqqın, ədalətin müdafiəçisi olması, bir sözlə, kamilliyə can atmasıdır. Şair göstərir ki, ləyaqət insana pay kimi verilmir, həyatda qazanılır. Qazandığı bu mirası əldə saxlamaq üçün "Kəsib tamahından ulu dədələr, Caladı həmişə ləyaqətinə", - deyir.

Şair insanın mənəvi yüksəkliyini ləyaqətdə görmüş, ləyaqəti insanlıq üçün əsas cəhət bilmişdir. Ləyaqətin qorunub saxlanmasına çox ciddi, məsul vəzifə kimi yanaşan şair "vicdan, namus və ləyaqət" məqaləsində yazır ki: "...İnsanın hüququnu, namus və ləyaqətini ilk növbədə içində yaşadığı cəmiyyət və bu cəmiyyətin ədalətli qanunları qorumalıdır,... yalnız bundan sonra ayrı-ayrı fərdlərdən umulmalıdır".*

Göründüyü kimi, insan ləyaqətinə hörmətlə yanaşan B.Vahabzadə ləyaqətsizliyə, mənəvi gözəlliyə qarşı barışmaz mövqedə durur. İnsanlıq ləyaqətini addım başı alçaldan inzibati amirlik rejimini yaşamaq xatirinə simasızlaşan cəmiyyəti, rüşvətin baş alıb getdiyi zəmanəni qeyri-insani hesab edir, müdrik ifadələrlə pisləyir:

---

***Vahabzadə B. Şənbə gecəsinə gedən yol. Azərnəşr, 1991, səh. 143**



*Yaşamaq xətrinə haqqı dananlar,*
*Qazana-qazana uduzur yenə...*
*... İnsanı ucaldan ulu bir eşq, dəyanət,*
*Alçaldan isə... qorxu, xəyanət.*
*Səxavətə qul olan bir rüşvətxorun*
*Xəlvət qazandığı var-dövlət oldu.*
*Aşkar itirdiyi ləyaqət oldu.*

Şer parçalarında insanlığı ölüm təhlükəsi ilə üz-üzə qoyan vasitələr dəqiq nişan verilir.

Qorxu, xəyanət! Önəmli tərəf odur ki, dövrün siyasi kələkləri məngənəsində sıxılan şair Bəxtiyar bu adi xəbər - xəbərdarlıqla kifayətlənmir. Qorxunun törətdiyi faciələrdən, onun insanları necə şikəst etməsindən ətraflı danışmaq üçün **"İki qorxu"** poemasını yazdı.

Şair Bəxtiyar insanlığa vurulan zərbələri, tətbiq edilən iyrənc üsul və vasitələri təkcə keçmişdə axtarmır. Ənənəvi cahilliyin, zorakılığın, mənəm-mənəmliyin, vəzifəlilərə yarınmaq kimi mənfi halların müasir dövrümüz üçün də xarakterik olduğunu 90-cı illərdə yazdığı şerlərində də bir daha təsdiqləyir.

*Qorxu kölgəsinə sığınmaz bu gün*
*Sədaqət, dəyanət, məhəbbət, Allah.*
*Yalan hakim olub, böhtan gözətçi*
*Çürüyür zindanda həqiqət, Allah.*

Yalanlar həqiqət qiyafəsinə büründəndə, yaxşı yamandan seçilməyəndə, insan ağlasığmaz dərəcədə qiymətsiz olur. Belə silsilə ağrılı şerləri oxuyandan sonra görürsən ki, Bəxtiyar həmişə xalqının tarixi taleyini düşünür, onun faciəsini yaşayır. Niyə? Nə üçün? - sualları ilə baş-başa qalır.

Bəzi alamlar bir mənsəb sahibi olanda bu qədər manqurtlaşır, biri digərinə bu qədər qəddar, amansız olur. Sevindirici hal budur ki, bu ağrılı düşüncələr içərisində çıxış yollarını da arayır:

*"El bir olsa, zərbi kərən sındırar",*
*El gücündə el dedi, sel gücü var.*
*Beş nəfərin yanmağından nə çıxar,*
*Xalq yanmasa, dönüb millət olammaz.*

Bütün bu deyilənlər onu göstərir ki, əxlaqi problemlər B.Vahabzadənin əsərlərinin diqqət mərkəzində dayanmaqda davam edir. Yaradıcılığı boyu insanlıq axtarışında olan şairin gəldiyi digər qənaət belədir: "İnsanlıq insanın əməlindədir". Sözünə davam edən şair xeyirxahlıq, mərdlik, yaxşılıq kimi sifətləri dəb yox, mətləb, əməl adlandırır. Əgər xeyir əməllə nəticələnməsə, mücərrəd xarakter daşıyır. Şairin əsərlərində xeyirxahlıq nəsihət kimi yox, insanın birinci dərəcəli əxlaqi borcu kimi təqdim edilir. Odur ki, şerlərində ədib üzünü insanlıq adını uca tutanlara çevirir:

*Dostların qəlbidir, yurdum, məskənim,*
*Ürəkdə bir niskil gərək olmasın!*
*Sağlığım bir yana, a dostlar, mənim,*
*Soyuq məzarım da heç tək olmasın.*

Tarix boyu insan-insanla yaşayıb, tək əldən səs çıxmayır. Dərdə şəriklik insanı əzab və iztirabdan xilas edib. Buna görə də insanların həmişə xoş sözə, qayğı və həssaslığa ehtiyacı olub. Önəmli tərəf odur ki, insana insan qayğısını qiymətləndirən sənətkar bu problemi daha geniş masştaba - planet



miqyaslı bəşəri qayğı kimi qələmə alıb, əsərlərinin ruhuna hopdurur.

İndi tərbiyə işimizdə başlıca vəzifə - simasızlığın, fərdiyyətçilik və riyakarlığın baş alıb getdiyi bir vaxtda insanları bu cür qəbahətlər çirkabından qorumaqdır:

*Ölümdən qorxmayan de kimdir, de kim?*
*Mənasız yaşamaq ondan qorxulu.*

Mənasız yaşamaq şərəfsizlikdir. İnsan həyatında ən iyrənc haldır. Belə insanlarla ümumiyyətlə, hər hansı əxlaqdan danışmaq mümkün deyil.

İnsanın əməlindəki ikilik - həqiqətlə yalanın mövcudluğu bəşər cəmiyyətinin formalaşdığı ilk günlərdə özünü göstərir. O səbəbə, bu mövzu ədəbiyyatın müraciət etdiyi ən qədim sahələrdəndir. Bütün dövrlərdə sənət və söz adamları bu ədəbi mövzuya müraciət etməklə, yalanla həqiqət arasındakı mübarizəni özünə xas, öz dövrünə münasib tərzdə əks etdirmişlər.

Göründüyü kimi, şair B.Vahabzadə də ənənəvi mövzudan kənar düşməmiş, hətta bir çox sələf və müasirlərindən fərqli olaraq, yalanla həqiqət arasındakı təzadları təkcə poetik sözün gücü ilə deyil, həm də publisist qələminin qüdrəti ilə açıb göstərmiş və oxucularını bu problemlərlə baş-başa qoyub düşündürə bilmişdir:

*Boğub həqiqəti yalan öyündü*
*Əsl mənasını itirdi söz də.*
*Yalan üzümüzdə gülüşə döndü*
*Həqiqət ağladı ürəyimizdə.*
*Yalanın hökmünə düz əyilincə*

***Əyri pərvazlandı, əyri dağ aşdı,***
***Həqiqət ürəkdən dilə gəlincə***
***Yolda yetmiş dəfə mayallaq aşdı.***

"Yazıq həqiqət! Sən niyə sənə vurulmuş adamlara üzü ağlıq əvəzinə üzü qaralıq gətirirsən, sən niyə dilə gələndə, sahibinə xəcalət və məhkumluq bəxş edirsən? Sən zor sahibləri üçün elə qorxulusan ki, səni məhv etmək zərurətə çevrilir. Çünki sənin varlığın güclülərin yoxluğu deməkdir. Sənin yaşamağın üçün beynində məskən saldığın adamların susmağı lazımdır. Çünki sən susmasan, onları susdurmalıdırlar. Amma sən susursansa, demək, yaşamırsan. Onda sənin varlığından necə danışaq? Sən yoxsansa, yalnız insan var, insanlıq yoxdur. İnsanlıq yoxdursa, demək, insan da yoxdur. Çünki insanın insanlığı onun insanlıq duyğularındadır.

İnsanlığın tarixi insanın həqiqət uğrundakı mübarizə tarixidir. Ey insanlığın daim can atdığı, uğrunda qurbanlar verdiyi işıqlı həqiqət. Sən insanlığın, ədalət və xeyirxahlığın əkiz qardaşısan! Səndən necə keçmək olar?!"*

Bəli, heç cürə həqiqətdən keçmək olmaz. Baxmayaraq ki, yalanın, əyrinin hakim olduğu məmləkətdə həqiqəti danışanlar dilindən asılmış, ağır işgəncələrə məruz qalmışlar. Şair demişkən: "Bir zaman həqiqət carçılarının, həqiqət adına üzülmüş başı". Həqiqəti zorla susdurublar, amma yox edə bilməyiblər. Çünki "Səndə tanrının iradəsi var". Odur ki, ulularımız həqiqət qarşısında səcdə edib və buyurublar ki, "Təkcə bir yol var - o da həqiqət yoludur. Bütün qalanlar yolsuzluqdur". Tarixin təcrübəsi göstərir ki, xalqın qadir olduğu

---

***Vahabzadə.B. Şənbə gecəsinə gedən yol. Bakı, Azərnəşr 1991, səh. 309.**



nə varsa, ancaq həqiqət sayəsində, həqiqət yolunda üzə çıxıbdır.

***Həqiqət! Gözəllər gözəlisən sən***
***Zülmün gözlərinə çirkin göründük.***

- deyən şairin dilində bu məfhum yeni poetik hisslə, nəfəslə mənalanır. Bu gözəl təkcə həqiqət sevgisinin deyil, həm də ölməzliyin, məğlubedilməzliyin rəmzidir.

B.Vahabzadə bütün həyat və yaradıcılığı boyu təkcə həqiqəti söyləməyib, həm də sevib. Bu məqamda rus fəlsəfi fikrinin görkəmli nümayəndəsi Pyotr Çaadayevin məşhur kəlamı yada düşür: "Xalqını sevənə eşq olsun. Amma həqiqəti sevənə ikiqat eşq olsun!"

Təəssüf ki, bu sevgi bütün insanlarda olayıb. Bir çox zamanlarda həqiqətin tərəfini saxlamadıq. Səbəbi:

***Gah qorxduq, gah susduq...***
***Biz azadlıq adlanan***
***Bir uydurma nağılla***
***Ölən düşüncələrə***
***Qəlbimiz yas saxladı.***
***Həqiqəti deməkdən***
***Elə qorxduq,***
***ağılla***
***Həqiqət arasında***
***Hörümçək tor bağladı.***

Acı da olsa, şair bu tarixi olayları dilə gətirir. Demək istəyir ki, həqiqət ağıldan uzaq düşən cəmiyyətin gələcəyi yoxdur. Başqa sözlə, həqiqət ağıldan kənar düşəndə, öz mahiy-

yətini itirir. Odur ki, şair bu məfhumu çöldə axtarmağı əbəs sanır, əgər o içlərdə yoxsa:

***Hamı çölə baxır,***
***könülsüzlüyü***
***Hər kəs hünər bilməz içinə baxsa.***
***Hamı çöldən umur haqqı, düzlüyü,***
***Çöldə haqq axtarma, içində yoxsa.***

Şairin fikrincə, insan həyatında son dərəcə gərəkli və faydalı olan bu toxum içlərdə əkilməlidir. Hər kəsin içində bitən həqiqət cücərtiləri, heç şübhəsiz, onun yalan qiyafəsinə bürünməsinə imkan verməyəcəkdir. Torpağın asfalt örtüyünü dələn zərif pöhrələr kimi bu cücərtilər insanlığa xələl gətirən əcaib örtüyü hər zaman didib parçalayacaq. Bu, şairin həqiqət axtarışlarında gəldiyi son əxlaqi qənaətdir.

İnsan şəxsiyyətinin formalaşmasında sözün qüdrətli tərbiyə vasitəsi olduğu inkaredilməz həqiqətdir. Odur ki, B.Vahabzadə klassik sələfləri kimi sözü yüksəuk qiymətləndirir, onun qüvvə və gücündən ətraflı danışır:

***Ədalətlə cilalanan,***
***Həqiqətdən qüvvət alan***
***Qadir sözün qabağında***
***Güllə nədir,***
***atom nədir?***

Söz ədalətli olmalı, həqiqəti ifadə etməlidir. Doğru söz qüvvət və qüdrətlidir. Ədib dili, sözü qiymətdən salanlarla barışmır. Əksinə, onlara anladır ki, sözün bir əzəli və əbədi vəzifəsi var:



***Söz - həmişə***
***Ədalətin düşmənilə vuruşacaq!***
***Söz yerlərdə sürünməmiş***
***Dodaqda çiçək açmış.***

Şair yersiz işlədilən sözü pisləyir, söz danışanda insanları məsuliyyətli olmağa çağırır: "Xəncər olub, köksə batar, öz həddini aşanda söz" - deyib. Bəxtiyar burada yalnız şair deyil, həm də bir müəllim-tərbiyəçi kimi çıxış edir: insanları pis, ötkün söz danışmaqdan kənar olmağa çağırır, sözün qədir-qiymətini uca tutmağı, məqamında işlətməyi tövsiyə edir:

***...Doğrudan da, gözəl olur,***
***Ürəklərdə bişəndə söz.***
***...Həyatımız ucuzlaşır,***
***Dəyərindən düşəndə söz.***
***...Haqq-haqsızı üstələyir,***
***Öz yerinə düşəndə söz.***

Göründüyü kimi, şair sözün incəlik və zərifliyini, güc və qüdrətini dönə-dönə qeyd etməklə sözü, danışmağı əxlaq normalarına bağlamaqla, vacib problemlərə toxunur.

Şair B.Vahabzadə ölçülü-biçili sözü, kamil danışmağı təqdir və təbliğ edirsə, yalan sözü nifrətlə qarşılayır. Ədibə görə, söz yalanın pərdəsi olanda, "həqiqətin üzünə sözdən boya çəkəndə", ağır fəsadlar baş verər:

***Sözün əsl anlamı itər, haqq ağlar qalar***
***Həqiqətin qapısı doğruların üzünə***
***həmişə bağlar qalar.***

Ömrü boyu həqiqətin tərəfdarı olan şair doğruluğu yalana qarşı qoyur və göstərir ki:

***Doğru sözün qabağında,***
***Yalan sözün rəngi qaçmış,***
***Söz nəbzidir,***
***haqq səsidir zəmanənin,***
***aynasıdır zəmanənin.***

Göründüyü kimi, sənətkar doğru sözün üstünlüklərini dönə-dönə dilə gətirməklə, sözün digər ülvilik və əzəmətini də qeyd edir. Şair yalan sözü, böhtan danışmağı insan ləyaqətinə sığışdırmır. Odur ki, insanları bu pis əməldən çəkinməyə çağırır və deyir: "Yalandır tarix boyu qara üzə ağ çəkən". Bəşəriyyətin çoxəsrlik təcrübəsi yalan və yalançılığın insan şəxsiyyətini, mənəviyyat və ləyaqətini alçadan ən çirkin sifət olduğunu dönə-dönə təsdiq etmişdir. Odur ki, B.Vahabzadə yaradıcılığı boyu bu əxlaqi qəbahətləri qara kölgə kimi təqib edib, pisləmişdir. Nəinki pisləmiş, hətta "yalan danışanı dilindən asın" hökmünü vermişdir.

Şair B.Vahabzadə Azərbaycan folklorunun mahir bilicisi olmaqla yanaşı, həm də bu tükənməz xəzinə onun yaradıcılıq qaynağıdır. Bunun nəticəsidir ki, şairin əsərləri xalqın təcrübəsinə, müdrik fikir və əməllərinə söykənir. Önəmli tərəf budur ki, sənətkar təkcə bəhrələnmə ilə kifayətlənməyib, xalqdan aldığını yeni bədii libasda xalqa qaytarmağı da bacarır. Konkret nümunələrə keçək. Məsələn, mənəvi zənginlikdə şair meyar kimi mərdlik və qeyrəti əsas götürür. Bunun üçündür ki, mərdlik və qeyrət haqqında folklor əsərlərində verilmiş müdrik fikirlər B.Vahabzadənin əsərlərində cilalanıb, daha da zənginləşdirilir. "Mərdlik bazarında mən



ki, sərrafam" - deyən şair bu əxlaqi-iradi sifətləri təkcə insanların əməlində yox, daha dərində - gendə, qanda və ilikdə axtarır. Mərdlik qeyrətlə sıx bağlıdır. Daha doğrusu, qeyrət mərdi səciyyələndirən ən ali sifətlərdən biridir. Odur ki, şair bu məfhumu əxlaqi saflığın mühüm şərti kimi yüksək qiymətlənidir:

***Qeyrət yoxsa, bir kişinin qanında,***
***Dərisinə yeritdiyin biz yazıq,***
***Əyrilərin, oğruların gözündə***
***Gədə-kişi, kişi fərsiz, düz yazıq.***

Şair göstərir ki, qeyrət verilmir, o anadangəlmədir, insanın canına, ürəyinə qanla, südlə daxil olur. Ədib qeyrəti daha geniş anlamda götürür. Bu keyfiyyəti ayrı-ayrı şəxslərdə yox, bütöv millətdə, xalqda görmək istəyir:

***Düşmən də yalmanar, gücə təslim olar yəqin,***
***Millət bir olsa, bayrağı altında qeyrətin.***

İnsan həyatında qeyrətin rolunu yüksək qiymətləndirən şair "Bilikdən, savaddan qabaq qeyrət istəyirəm. Mən səndən ancaq!" - deyir. Ədibin fikrincə, qeyrətsiz adamda olan bilik faydasızdır. Çünki "Onu xərcləməyə qeyrət olmasa". Çox təəssüf ki, mənəvi cəhətdən düşkün adamlar öz qeyrətsizliyini görmür, əksinə, qəbahətlərinə "həqiqət" donu geydirməyə cəhd edirlər.

Əlbəttə, bu cür hərəkətlər çox yalnış və zərərlidir. Qeyrətin tarixi taleyini düşünən şairin aşağıdakı istək və arzuları, heç şübhəsiz, təbiidir:

***Kaş, elə bir cihaz kəşf ediləydi -***
***Qandakı qeyrəti ölçə biləydi***
***Onda şərəfsizlər rütbəyə minməz,***
***Onda əməl üçün sözə nə hacət,***
***Onda öz yerini tutardı hər kəs,***
***Qapılar dalında qalmazdı qeyrət.***

B.Vahabzadə qeyrətin fəzilətlərindən ayrı-ayrı, xüsusi söhbət açır. Onun nəhayətsiz güc və qüdrətini dəyərləndirir, hətta qeyrəti ağıldan da uca tutur:

***Qeyrət azadlıqdır, bu amal üçün***
***Qeyrət addımlayır Yer kürəsini***
***Qeyrətdir dəyişib yaradan bu gün,***
***Dünyanın siyasi xəritəsini.***
***Qoy ağıl, qeyrətin getsin dalınca,***
***Qoy yedək olmasın ağıla qeyrət.***
***Ağlımız qeyrətdən geri qalınca***
***Dönür əfsanəyə, nağıla qeyrət.***

Bəli, tarix boyu insanlar qeyrətin gücü ilə illərin sınağından çıxıb, başqa sözlə, onların əldə etdiyi bütün nailiyyətlər bu yəqinliyə - qeyrətə əsaslanıb. Şairin bu əxlaqi sifətləri bütün insanlarda görmək istəməsi çox təbiidir. Çünki onun bir ucu tarixin dərinliklərindən gəlir: "Təsadüfi deyildir ki, hələ qədim dövrlərdə şəxsiyyət tərbiyəsində üç başlanğıc: ciddiyyət, qeyrəti və nəfsi zəbt etməyi ön plana çəkmişlər."*

Qeyrət mənəvi gözəlliyin ən ümumi və ən parlaq ifadəsi olduğundan, B.Vahabzadə ağsaqqal müəllim kimi insanları

***Göyüşov Z. Fəzilət və qəbahət. Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1972, səh. 366**



həmişə qeyrətinə görə qiymətləndirib. Qeyrətli adamları özünə ən yaxın dost sanıb. Bunun üçündür ki, böyük ədib gündəlik ünsiyyətdə və elə əsərlərində də ən çox xalqın kişisinə - qeyrətlisinə müraciət edir. Bir daha onları əmin edir ki:

***Dünyada açılan bütün yolların***
***Əvvəli qeyrətdir, axırı zəfər.***
***Bizə qeyrət gərək, bizə od gərək***
***Ölümə getməyə istedad gərək.***

Tarixin təcrübəsi göstərir ki, ölümün ağuşuna ancaq kişilər gedir. Çox heyif ki, kişilik də hər kəsə müəssər olmayıb. O səbəb şair qeyrətlilərə tövsiyə edir ki:

***Namərddən kişilik, mərdlik gözləmək***
***Mərdin özünü də alçaldar ancaq.***

Sözünü davam etdirən şair tövsiyəsi ilə kifayətlənməyib, bu əxlaqi fəzilətin yerini dəqiq nişan verir:

***Mərdlik, cəngavərlik deyil oyuncaq,***
***O damar yaşayır qanda, ilikdə.***

Göründüyü kimi, mənəvi zənginlikdə, insan həyatında şair meyar kimi mərdlik və qeyrəti əsas götürür. Hər bir Azərbaycan vətəndaşında onu görmək istəyir.

Mərdlik məfhumunun təkcə qeyrət, igidliklə bağlı olduğunu söyləsək, səhv etmiş olarıq. Axı, ulu babalar bu məfhuma bir sıra fəzilətli əlamətləri də aid edirlər: "Mərd adama xas olan sifətlərdən biri də əqidəyə sadiqlikdir". Məhz bunun

üçündür ki, B.Vahabzadə bu əxlaqi sifəti yüksək qiymətləndirməklə, ömrü boyu bu hikmətə şərəflə əməl etmişdir:

***Özüm öz əllərimlə***
***Bir gün bal içirəmsə,***
***Bir gün zəhər içirəm.***
***Mən həyat yollarımdan***
***Ayaqlarımla deyil,***
***Əqidəmlə keçirəm.***

Bəli, bu acılı, şirinli günlər B.Vahabzadənin həyat yolunun konkret lövhələridir. Bu yolda onun ən böyük köməkçisi etiqad və inamı olmuşdur. Buna görədir ki, onun əqidəsi həyatı boyu təmiz qaldı. Heç bir yad məsləkin təsiri altına düşmədi, əksinə, sığındığı inamın gücü ilə daha sarsılmaz oldu:

***İnama qurbanam, inada qurbanam,***
***İnamın verdiyi qanada qurbanam,***
***Qadanım var isə həyata qurbanam.***

- deyən şair öz yolunu bu işıqla işıqlandırdı. Bütün şübhə və tərəddüdlərə təqib və təzyiqlərə məhz dərin inamı ilə son qoyurdu:

***İnamdır,***
***imandır,***
***məsləkdir ancaq***
***Bütün zəfərlərin adı dünyada!***

İnamın gücü minilliklərin sınağından çıxıb. Şairə görə, inam insan üçün həyat qədər gərəklidir. Bu baxımdan, B.Vahabzadənin ustad Şəhriyara müraciəti tarixi həqiqətin əks sədası kimi səslənir:

***İnamdır yaşadan bizi, ey ustad,***
***O bizi yaşatdı, biz də arzunu.***
***İnam ölməyibsə, qurtarmır həyat,***
***Həyatın sonudur inamın sonu.***

Göründüyü kimi, inam şairin öz məqsədinə çatdırmağa başlıca qüvvədir. O da inkaredilməz həqiqətdir ki, B.Vahabzadənin həyat və fəaliyyətində yaxşı nə varsa, məhz yüksək inamın sayəsində nail olunub. Əxlaqi hisslərin tərbiyəsində inam, əqidə son dərəcə mühüm rol oynadığından, "Onun **(B.Vahabazədənin F.X.)** poeziyası həmişə əqidənin, məsləkin keşiyində dayanıb, mütiliyə, yazıqlığa, qul olmaq psixologiyasına qarşı mübarizə aparıb və aparır" **(Zəlimxan Yaqub).**

Bütün bu deyilənlər onu göstərir ki, insanın öz fiziki və əxlaqi saflığı üçün onun həmişə əqidə, məslək bütövlüyünə ehtiyacı vardır. Çox təəssüf ki, insanlar bəzən öz əqidəsində sabit yox, tez dəyişkən olurlar. Heç şübhəsiz, bu kimi arzuolunmaz hallar insanlarda qorxaqlıq, ikiüzlülük, yaltaqlıq kimi daxili boşluq əlamətlərini formalaşdırır. Nəticədə insan simasız hala düşür. Həyatda belə insanlarla tez-tez qarşılaşan şair onlardan üz döndərib, keçmişinə baxır. Ulu ərənlərin qadir əməllərini soraqlayır:

***Hanı o əvvəlki əqidə, məslək?***
***Əgər fikri yoxsa, özü sağmıdır?***
***Yaşamaq xətrinə fikri dəyişmək***
***Məsləki dəyişmək, yaşamaqmıdır?***

Əlbəttə yox! Mənasız gün keçirmək, nadanlıq çirkabında çabalamaqdır. Haqlı olaraq şair belə rəzil insanları bədii sualların məngənəsində sıxıb, özünün tənə obyektinə çevirir. Təəssüfləndirici haldır ki, belə insanlar böyük alim B.Paskalın aşağıdakı müdrik kəlamlarından xəbərsizdir: "Bizim ləyaqətimiz - bizim fikrimizdir. Bizi yüksəldən nə bizim yaşadığımız məkan, nə də ömür sürdüyümüz zamandır, məhz bizim fikrimizdir".

Şair B.Vahabzadə böyük alimin dahiyanə kəlamına xeyli aydınlıq gətirməklə, **"Fikir"** şerində bu məfhumu belə bədii formula edir:

***Fikir bizi ora çəkir, bura çəkir.***
***Hər əməlin başlanğıcı***
***Hər bir yolun ilki - fikir.***
***Dərzi üçün, memar üçün***
***Ölçü fikir, biçi fikir***
***Hər məqsədin çölü sözdür,***
***içi fikir.***

Bəli, həyatda təcrübə göstərir ki, sağlam fikir, təmizlik, böyüklük və ucalıq deməkdir. Bəs bunlar nə zaman mümkündür? - sualına şair- alim yazılarının birində belə cavab verir: "Böyük bir fikir, böyük bir əqidəyə qulluq edəndə! ...Əqidəsiz, fikirsiz nə təmizlik var, nə böyüklük! Bütün bunlar isə bəşəriyyətin həmişə can atdığı ideal kamillik, bütövlük və gözəllik deməkdir".*

Buna görədir ki, şairin əsərlərində insanın mənəvi qüdrətinin tərənnümünə daha böyük diqqət yetirilir. Bü günkü

***Vahabzadə B. Sadəlikdə böyüklük. "Yazıçı", Bakı, 1978, səh.128**



gəncliyə mənəvi zənginləşmək, mənəvi böyüklük aşılanır:

***Öz əqidən, sözün olsun bu dünyada,***
***Adamların cərgəsinə çıxmaq üçün***
***Üzün olsun bu dünyada.***
***Xeyirlə şər -***
***Dayanıbdır yan-yanaşı***
***İnsanların fitrətini***
***Cövhərini bilmək üçün***
***Nədir düzgün məhək daşı?***
***Məslək! Amal!***
***Əsl insanın yol yoldaşı!***
***Ömür üzük,***
***məslək isə üzük qaşı***
***Hər üzüyün qaşındadır öz dəyəri,***
***Əqidəsi, cövhəridir hər insanın.***
***Məslək varsa, mərddir, demək,***
***Öz yolundan dönməyəcək.***
***Məslək yoxsa, söyüd kimi***
***Əyiləcək o tərəfə, bu tərəfə,***
***Vurmayacaq bir hədəfə***
***...Məslək yoxsa -***
***Başqasının qismətini***
***Çala bilən çalağandır.***
***Məslək varsa -***
***Bir söz ilə:***
***o insandır,***
***o insandır!***

Ümidvarıq ki, əqidə bütövlüyünü insan üçün böyük nemət sanan şairin əqidəsindən, məsləkindən dərs götürməklə,

gənc nəsil xeyli zənginləşəcək, faydalı bilgilər əldə edəcəklər.

B.Vahabzadənin poeziyasında insan həyatının incəliklərindən xəbər verən bir hikmət də aşılanır. Bu insanın özünü dərk etmək cəhdidir. Çünki özünü dərk edən insan ən kamil insandır. Pedaqoji ədəbiyyatlarda "özünüdərk" özünütərbiyə işinin məzmununa daxil olan komponentlərdən biri hesab edilir. Buraya da öz növbəsində: özünümüşahidə, özünütəhlil, özünəqiymət vermək, özünütənqid, özünümühakimə daxildir. Şəxsiyyətin formalaşmasında özünütərbiyənin bu komponentləri mühüm rol oynayır. Odur ki, B.Vahabzadə də dünyanın görkəmli mütəfəkkirləri kimi, insanın öz hərəkətlərini qiymətləndirmək, səhvlərini görüb, onları aradan qaldırmaq kimi qabiliyyətlərin formalaşmasına müstəsna əhəmiyyət verir. Şair insanlara müstəqim müraciətlə əxlaq dərsi vermək yolunu tutmamış, öz şəxsi nümunəsində oxucuları bu əxlaqi keyfiyyətləri mənimsəməyə sövq edir:

*Bir dəryaca kədərimdir*
*Bir damlaca səhvim mənim*
*Başqaları keçər bəlkə təqsirimdən*
*"günahkaram, keç!" - sözümə,*
*Bağışlaya bilməmişəm*
*Öz səhvimi mən özümə.*
*Səhvlərim boğazımdan bərk yapışıb,*
*Yuxumu da dara çəkir,*
*Vicdanımı ora çəkir, bura çəkir.*

Şair öz təcrübəsini dilə gətirməklə başqalarını da bu əxlaq normalarına riayət etməyə təhrik edir. Öz səhvini görüb, onu öz-özünə bağışlamamaq mədəni cəsarətdir. Əxlaq nəzəriyyətçiləri mədəni cəsarəti müdrikliyə istinad edən fəzilət hesab edirlər. Kim özündə bu cəsarəti tapırsa, o ləyaqətli insandır. Məhz buna görədir ki, hələ qədim dünyada Sokrat mədəni cəsarəti insanın özünü dərk etməsinin başlıca şərti sanırdı. Çox təəssüf ki, bu fəzilət bütün insanlarda tapılmır, ancaq Bəxtiyar kimi vicdanı oyaq adamlar özünü lazımınca görüb, özünə ədalətli hakim ola bilər. Özünü görməyən, öz hərəkətlərini təhlil etməyən adam həyatda nakamdır. Görkəmli mütəfəkkir A.Bakıxanov yazırdı: "Gözlü adam o adamdır ki, özünü görə bilsin". Bu o deməkdir ki, özünü görmək üçün heç də adi göz kifayət deyil, öncə ağılın gözü gərəkdir. Şair "İki kor" şerində insanların görmə qabiliyyətini poetik dillə çox gözəl səciyyələndirə bilmişdir:



*Bir kor tanıyıram, gözü korsa da,*
*özü kor deyil.*
*Bəzən qəm odundan qovrulursa da,*
*Ağlına, hissinə, o, nankor deyil.*
*Gecəli-gündüzlü o, görür, duyur.*
*Ancaq ... biri də var ... kor deyilsə də,*
*gözü görməyir.*
*Dostu göz önündə öldürülürsə də,*
*Görmədim, deyir...*
*Yaxşıya ortaqdır, yamanı görmür,*
*O, saata baxır, zamanı görmür,*
*Fikrini, hissini ucadan deməz,*
*Bəzən gördüyünü görmək istəməz.*

Şerin son bəndində şair iki kora münasibətini belə bildirir:

*Gözləri görməyən kor deyil hələ,*
*Görmək istəməyən kordur, deyərdim,*

*Belə müqəvvaya, belə cahilə*
*Həyatın özü də kordur, deyərdim.*

Şerdən çıxan əxlaqi nəticə belədir ki, mənəvi şikəsitlik fiziki şikəstlikdən daha dəhşətlidir. İnsan gördüyünü görmək istəməyəndə, ləyaqətini itirir və öz mənəviyyatının keşiyində ayıq-sayıq dayana bilmir. Digər mütəfəkkirlər də belə cahil insanları kora oxşadırlar. H.Senkeviç də öz qəbahətlərini görmək istəməyən adamları kora bənzədib, yazmışdır ki: "Kor yolda daşa toxunub yıxılanda, çox vaxt bunu korluğun nəticəsi hesab etməyib, daşa acıqlandığı kimi, biz də öz qəbahətlərimizi görməyib, həmişə bunun təqsirini özgə adamlarda görürük".*

Səhv etmək qəbahətdirsə, səhv edib, onu görməmək, ondan nəticə çıxarmamaq ikiqat qəbahətdir. Dünyada səhvsiz bircə Allahdır. Hər bir insan bu və ya digər formada səhv buraxa bilər. Müdriklik odur ki, səhvdən doğrunu, pisdən yaxşını öyrənə bilsin, necə ki, Bəxtiyar kimi:

***Səhvlər üstündə boy atmışam mən,***
***Özümü təzədən yaratmışam mən.***
***İtirdim zirvədə bəzən izimi,***
***Qəsdən duman oldum, qəsdən çən oldum;***
***Səhvimin əlilə özüm-özümü***
***Öldürə-öldürə dirildən oldum...***

Bu, bir çoxlarının dilə gətirə bilmədikləri etirafdır. Şairdən əxz edilməli əxlaqi məziyyətlərdən məhz biri etirafdır.

***Bax: Göyüşov Z. Fəzilət və qəbahət. Azərbaycan Dövlət Nəşriyyatı. Bakı, 1972, səh. 406**



Bu, bir həqiqətdir ki, istər alim olsun, istərsə də şair, ictimai-siyasi və elmi mənsubiyyətindən asılı olmayaraq çox kəslər özünə gendən baxmağı, öz-özünə hesabat verməyi, öz səhvlərini görməyi bacarmır. Ancaq biz görürük ki, Bəxtiyar zamanın hökmündən öncə özünü şair vicdanının mühakiməsinə çəkməyi bacarır. Bunu şairin poetik və publisistik dillə etdiyi etiraflar da təsdiq edir: "Ömür yollarında büdrəmələrim də olmuş, duyğu və fikirlərimi tam dəqiqliyi ilə yaza bilməmişəm, zamanın tufanlarından ehtiyac eləmişəm" (**B.Vahabzadə).** Etiraf əxlaqi kamilliyin nəticəsi, özünüdərkin zirvəsidir. "Mütləq günahsızlıq qeyri-mümkündür. Lakin "etiraf" artıq bağışlanan, bəraət alan günah deməkdir, ürəyin mənəvi təmizlənməyə haqqı və hüququdur".* Hər kəs bu hüquqdan səmərəli istifadə etsə, heç şübhəsiz, dünyamız insanın bəd əməllərindən düşən qara ləkələrdən xilas olar. Ancaq etirafın özü bağışlanan günah olduğundan, şair **"Kimdir mənim düşmənim?"** şerində bu günaha batmağı da özünə rəva bilmir. İstəmir ki, ümumiyyətlə, özünə aludə olub, səhv buraxsın. Bunun üçün öz gözləri ilə özünü görməyəndə, kənarın gözləri ilə özünə baxmaq istəyir:

***Bacarsaydım bunu mən***
***Bu dünyada nə dərdim...***
***Mən onda öz-özümü***
***Daha yaxşı görərdim,***
***Onda eyiblərimə***
***Özüm düşmən olardım;***
***Görsəydim öz-özümü,***
***Onda mən, mən olardım!***

***Bax: Azərbaycanın Bəxtiyarı. "Azərbaycan" nəşriyyatı, Bakı, 1995, Səh. 64**

*Ah... məni məndən gözəl*
*Görə bilən dostlarım,*
*Arxamca qəh-qəh çəkib*
*Mənə gülən dostlarım,*
*Gülün, elə gülün ki,*
*Çatsın qulaqlarıma*
*Sizin gülüşləriniz.*
*Yamanımı danışın,*
*Elə danışın ki, siz -*
*Mən də xəbərdar olum.*
*Danışın, qoymayın ki,*
*Mən özümə vurulum.*

Fikir verin, şair burada da çoxlarından fərqli olaraq, öz müdrikliyini bir daha nümayiş etdirir. Nöqsanı üzə deyən adamdan inciməк yox, əvəzində minnətdar olmalısan ki, sənin duya bilmədiklərini o görüb, sənə vaxtında çatdırır.

Şair B.Vahabzadə insan probleminin həlli yollarından danışanda, o, ilk növbədə elm və əxlaqa da üz tutur. Ədib öz fikir və mülahizələrini **"Elm və əxlaq"** şerində çox uğurlu poetik şərh edir. Həm elmi, həm də əxlaqı həyat və fəaliyyətində zənginləşdirən şair:

*Mən ki, güvənmişəm hər zaman elmə,*
*Əxlaqa, qaydaya toxunandasa*
*Mən üsyan edirəm, mən üsyan, elmə -*

- deyən mütəfəkkir həyatı faktlarla etirazının səbəblərinə aydınlıq gətirir. Bu aydınlıq elmlə, əxlaq tərbiyəsi ilə məşğul olan hər kəsi daha diqqətli olmağa səsləyir.

Bu, bir həqiqətdir ki, müasir elmi-texniki tərəqqi bəşəriyyəti yüksək bir səviyyəyə çatdırmaqla, həm də onu tamam məhv etmək təhlükəsi qarşısında qoyub. Atomun kəşfi insanlara misli görünməmiş enerji verdisə, Xirosima və Naqasaki fəlakətləri ilə bəşəriyətə göz dağı qoydu. Belə faktları çox çəkmək olar. Bax, burada elm əxlaqı tənəzzülə uğradır. Belə məqamda şair elmə üsyan edir.

**"Barmaqlar", "İki saat", "Ucalıq", "Səadət nədir?", "Vətəndən Vətənə"** şerlərində, insan, onun ali bəşəri vəzifəsi və mənəvi hünəri şairin fəlsəfi-poetik mühakimələrinin diqqət mərkəzində dayanır. Kitab yazmaq, ot çalmaq, çiçək dərmək, kaman tellərini səsləndirmək, pul saymaq və s. insan barmaqlarının gördüyü işdir. Ancaq zəmanəmizdə barmaqlar üçün bir iş də meydana çıxmışdır: kiçik bir düyməni basıb, bütün dünyanı viranəyə döndərmək vəzifəsi. **"Barmaqlar"** şeri də bu barədədir və bu şer kimi gözəlliyi, emosional təsir qüvvəsi burada ifadə olunan fikrin ümumbəşəri yüksəkliyə qaldırılmasındadır:

*Bir kiçik düyməni basmaq? Bu nədir?*
*Basdısa, bu dünya bir viranədir.*
*Məhv etmək bəşəri, ərzi, hər şeyi,*
*Bir anda dünyanı alt-üst eləmək!*
*İşə bax! Bu boyda ərzin taleyi -*
*Bir kiçik barmağa bənd imiş, demək!**

Önəmli tərəf odur ki, şair insanın yaratdığı təzadlı əməllərin qarşısında heyrətlənsə də, bu ali varlığın düşüncəsinə inamını itirmir. Nəinki inamını itirmir, hətta bəşəriyyətin xilası yollarını da dəqiq nişan verir.

***Bax: Qarayev Y., Salmanov Ş. Poeziyanın kamilliyi. Bakı, "Yazıçı", 1985, səh. 82**

***İnsan idrakının yaratdıqları***
***İnsan idrakının hədəsindədir.***
***Gəlin, ay insanlar, birləşək barı,***
***Dünyanın taleyi məndə, səndədir.***
***Nələr görməmişdir bu qara torpaq,***
***İndicə sağalır sinə dağları.***
***Bizim birliyimiz kəsəcək ancaq,***
***Düyməyə uzanan o barmaqları.***

Bu, təkcə insanın bəşəriyyət və tarix qarşısında övladlıq borcunun yerinə yetirilməsi kimi başa düşülməlidir. Bu addımda digər əxlaqi niyyət də durur. Biz öz xeyirxah əməllərimizlə bu günkü və gələcək nəsillərə örnək olmalı, onları ən ali bəşəri ideallar uğrunda yaşamaq ruhunu təlqin etməliyik. Şair insanın böyüklüyünü ancaq ədalət adlanan yüksək mübarizədə görür. Hər hansı bir elm kəşf ediləndə, öncə onun tətbiqinin əxlaqi nəticələri fikirləşilməlidir. Əgər bu düşünülmürsə, onda bəşəriyyət qarşısında məsuliyyət unudulmuş olur. Nə qədər elmi kəşflər olub və bundan sonra da, heç şübhəsiz, olacaq. Heç kəs onun qarşısını almaq fikrində deyil. Narahatlıq odur ki, ediləcək kəşflərin ictimai nəticələri bütün insanlar tərəfindən dərk edilsin. Başqa sözlə, elm əxlaqa xidmət etsin, əxlaq da öz növbəsində elmi tamamlasın. Məqsəd onların birliyini əldə etmək olmalıdır. "Şair haqlı olaraq kamal və əxlaqdan vəhdətdə bəhs edir. Qalileyin vicdan və əxlaq qəhrəmanlığını onun elmi xidmətindən üstün tutur. Bu şer (**"Qaliley" - F.X.**) belə bir doğru fikrin poetik təsdiqidir ki, əxlaqın qələbələri bəşərin əxlaqi taleyinə ağlın qələbələrindən daha çox təsir göstərir. Çünki əxlaq olmayan yerdə kosmos və atom da, ağlın silahları da qəlbin, tayfa dövründən qalan instinktlərin silahına çevrilir". Burada



birtərəfliyə, hər hansı lovğalığa yol vermək olmaz:

***Elm, özünəmi yoxsa... güvəndi?***
***Axı, bu qüdrəti biz verdik ona.***
***Əqlin yaratdığı elmlər indi,***
***Düşübdür xaliqlik iddiasına...***

Alim kəşf etdiyi yeniliklər ilə təbiət üzərində mütləq hökmranlıq edə bilməz. Ən yaxşı halda təbiət qanunlarını öyrənib, ondan səmərəli istifadə edə bilər. Daha doğrusu, bəşəriyyət üçün faydalı, olanı seçəndə, hakim ola bilər. Təbiət insanı yaratdığı kimi səxavətini də ondan əsirgəməmişdir. Bu səxavətin müqabilində çox vaxt ona qarşı haqsız hərəkət edib. Söhbət təbiətdə ekoloji sistemin qorunub saxlanılmasından gedir:

***Təbii nemətlər çatışmır nədir?***
***Təbiət zəngindir, o, yoxsul deyil;***
***Təbiət insana səxavətlidir,***
***Ancaq pul deyil,***
***O ki, öz varını insana vermiş,***
***Ona qəsd eyləmək cinayət olar.***
***Bu gün təbiətlə yarışa girmiş,***
***Kimyəvi zavodlar, laboratoriyalar.***

Şair demək istəyir ki, bu yarışın gedişində insan tarazlığı pozanda, təbiət də, cəmiyyət də təhlükə qarşısında qalır. Bu təhlükə ilə üzləşməmək üçün təbiətin mühafizəsi ən zəruri əxlaqi tələb kimi qarşıya qoyulur. İnsan təbiətlə mübarizədəki qələbələri ilə öyünməməlidir. Öz gücünü təbiəti məhv etməyə yox, onun keşiyində, qulluğunda durmağa sərf etmə-

lidir. Kimyəvi zavodların təbiətə vurduğu zərbə heç şübhəsiz, insanlardan yan keçməyib. Təbiət zəhərlənibsə, demək, onun bir hissəsi olan insan da zəhərlənib. Bütün bu deyilənlərlə yanaşı, şerdə bioloji vasitələrə insan artımının əleyhinə çıxılır və onun törədə biləcəyi fəlakətlər göz önünə gətirilir:

*İynəylə, dərmanla doğulan kəsin,*
*Anası məlumdur,*
*Atasısa yad.*
*Atanı... övladın əslini yəqin,*
*Nə ana biləcək, nə də ki, övlad.*
*...Səni danlamırmı içində bir səs -*
*Demirmi, ay həkim, cəhdin nahaqdır?*
*Övlad öz kökünü tanımırsa bəs,*
*De, hansı kök üstə boy atacaqdır?*

- deyən şair haqlı olaraq bu cür cəhdlərin zərərli və yanlış olduğunu tənqid edir. Genetikanın müasir nailiyyətləri cəmiyyətdə bu tərzdə tətbiq edilsə, insan min illər boyu qazandığı ana məhəbbəti, ata istəyi və qohumluq əlaqələrindən məhrum olmazmı? Belə nəsildən hansı ləyaqət, qeyrət və səxavət gözləmək olar. Odur ki, hər bir alim öz elmi niyyətini əxlaqi mövqeyindən ayırmamalı, biri digərinə xidmət etməlidir.

Şairin bu mövzuda narahatlığı təkcə **"Elm və əxlaq"** şerində yox, digər əsərlərində də öz əksini tapıb. **"Baş"** şerində təbiətlə yersiz mübahisəyə girişməyi əbəs sayır. Təbiətlə mübarizəni kortəbii yox, özünəməxsus istiqamətdə aparmağı məsləhət görür. Alınan elmi nəticə və yürüdülən elmi mühakimələr obyektiv olmalıdır. Təbiətin bəzi qanunlarına yersiz müdaxilə birtərəfliyə çıxarıb, bir çox fəsadların törəməsinə səbəb olar:



*Ey həkim, gücünə inansan da sən,*
*Bu yükü boynuna heç götürmə gəl.*
*Ayırıb insanı öz aləmindən,*
*Ana təbiətlə bəhsə girmə gəl!*
*Həkim, təbiəti gəl hakim sayaq,*
*Hifz edək bir səsin yüz ahəngini;*
*Gücümüz çatsa da,*
*gərək pozmayaq*
*Bəzən təbiətin öz ahəngini.*

Şairin narahatlığı təbiidir, təbiətin ahəngi əgər pozularsa, onu yenidən öz ahəngində kökləmək, əlbəttə, müşkül işdir.

Gənc nəslin milli ruhda tərbiyə olunmasında önəm verdiyi sahələrdən biri ailə-məişət sahəsindəki milli ənənəyə sadiqlikdir. Tarixin sınağından çıxmış mütərəqqi irsin qorunması və ondan tərbiyə işində fəal istifadə edilməsi vacib sərvətlərdəndir. Bu zəngin sərvət cəmiyyətin sonrakı inkişafında möhkəm özül, bünövrədir. Çox təəssüf ki, bu möhkəm mənəvi dayaqların üstündə bəzən etibarsız, davamsız ailə həyatı qurulur. Bir sox hallarda qızlarımız arı yeyib, namusu atır. Oğlanlarımız isə qeyrəti şərəfsizliklə, kişiliyi gədalıqla dəyişir. Və bununla da milli qürurumuzun, gözəl adət və ənənələrimizin üstünə kölgə salmış olurlar. Bu mənada B.Vahabzadə həqiqəti gizlətmir, görüb, şahidi olduğu hadisələri, əhatə olunduğu aləmi necə varsa, elə şair təqdimatında oxucularına çatdırır, bu baxımdan, şairin **"Atılmışlar"** poeması içində yaşadığı cəmiyyətin faciələrini söz sənətinin dili ilə sərrast ifadəsidir.

Milli ənənəmizdə ailə şərəfi, namus, ar, qadın isməti, sevgi möhkəm yer tutduğu halda bəs, əksər gənclərimiz indi uluların bu ədəb-ərkanını niyə ucuz tuturlar? Əhdi-peymanı

saxta olan məhəbbət dəllalları cəmiyyəti bürüyüb, minlərlə günahsız körpələr ana nəvazişinə, ata qayğısına indi də möhtacdır.

Şair poemasına proloq vermədən aldanan, isməti tapdanan, ana adından məhrum olan bir qızın qəm dastanını başlayır,

Kənddən şəhərə təhsil almağa, oxuyub, mənəvi cəhətdən zənginləşməyə gələn qız "məhəbbət dərsindən kəsilir", yalançı məhəbbət dəllallarının toruna düşür. İlişdiyi torun möhkəm ilmələri arasında çabalayan qız artıq ismətinin tapdandığını, dünyaya gətirdiyi övladın ona baş ucalığı yox, adına ləkə olduğunu yaxşı anlayır. Gərgin psixoloji sarsıntılar keçirən qız aldığı şərəfsizlik ləkəsindən təmizlənmək üçün körpəsini bir həyətə atıb qaçır. Bu hərəkəti ilə qız elə bil, düçar olduğu ləkədən qaçır. Yox:

***O, bu qaçışıyla özündən qaçır,***
***O, qaçır analıq məhəbbətindən,***
***O, qaçır özünə öz töhmətindən.***
***...Qaçır,***
***amma bilmir o, nəyə qaçır,***
***Ləkədən qaçarkən ləkəyə qaçır.***

Fəqət qaçış çox çəkmir, axı, o da insandır, az da olsa, onun içində analıq hissinin cücərtiləri var. Körpə yerinə qol-qanadından asılan vicdan yenidən onu geriyə qaytarır. Artıq gecdir, körpə yerində yoxdur. O, körpələr evinə verilib. İstər-istəməz oxucu bu məqamda fikirləşir: Nə üçün belə olmalıdır? Bu cinayətin səbəbkarı kimdir? Qızın xeyli günahı olsa da, əlbəttə, ən başlıcası eybəcər mühitdir. Axı, eybəcər mühit öz çirkabı ilə Ən pak adamları da ləkələyə bilir. Doğrudur, şair



oxucusunu "Körpələr evi"nin tükürpədici, acı mənzərəsi ilə poemanın IV fəsilində tanış edir. Qoy hadisələri oxucunun özü təhlil etsin. Ancaq bu ünvana münasibətimizi biz bəri başdan bildiririk. İlk anda "Körpələr evi" kimsəsizlərin pənahı kimi görünsə də, əslində, bura atalı-analı yetimlərin "xəcalət məktəbi"dir. Bu poemadan bəhs edərkən, tədqiqatçı Salman Şəlvədərli haqlı olaraq yazır ki, "elə atalı-analı yetimlərə "Körpələr evi" yaratmaq bütün yad olan əxlaqsızlığa - xalq dediyi kimi, atasından xəbərsiz biclərin artmasına, bütövlükdə millətin təhqir edilib bu ləkəyə adət etmiş yadlara şərəfsizlik tay-tuş olmasına zamindir".*

Bütün bunlar acı həqiqətin güzgüsü, yaxın keçmiş və hazırda yaşadığımız cəmiyyətin çılpaq mənzərəsidir.

Poemada oxucunun açdığı digər qapı "Qocalar evi"dir. Bura daha məşəqqətli, daha müdhiş bir məkandır. Bu məkanın sakinləri kimlərdir? Gəlinin nifrətindən, övladın etinasızlıq və qeyrətsizliyi ucbatından buraya atılmışlar.

***Atılmaq!***
***Kimsəyə gərək olmamaq?***
***Heç sən bilirsənmi, bu nə deməkdir?***

Diriykən cəhənnəm əzabı çəkmək, "qonduğu sonuncu məskən"də ölümü gözləməkdir. Peyğəmbərimiz gözəl buyurmuşdu: "Cənnət anaların ayaqları altındadır", "Ana haqqı - Tanrı haqqı" deyən əcdadımız oğuzlar da ananı Tanrı mərtəbəsində ulu, müqəddəs biliblər. Bəs, nə üçün bu zavallı analar öz ünvanında deyil, cəhənnəmin sakinləridir? Burada-

---

***Bax: Şəlvədərli S. Şairin milli əqidəsi. "Ədəbiyyat və incəsənət", 1992, 23 oktyabr**

kı valideynlərin əksəriyyətinin danışığından aydın olur ki, onların əksəriyyəti övladlarını ciyərparası sanıb, min bir arzu ilə ərsəyə çatdırıblar. Gəlin gətirib, qız köçürüblər. İndi onlar gəlin qulluğu, oğul qazancı görmək əvəzinə niyə gərəksizdir, nə üçün atılıblar? Axı, onlar yanımcıl, səmimi və istəkcildir. Nəfəsləri təngidən bu evdə belə içlərdəki valideynlik hissi sönməmişdir. Budur, üç oğul atası çilingər əmi düşdüyü bu hala hələ də inana bilmir:

***O, hər gün gözləyir, "yox ola, bilməz,***
***Atalar, analar atıla bilməz".***

yaxud, arvadı rəhmətə getmiş digər bir qoca daha təvazökar danışır:

***Bura gəlməyimdə, inan, mən yenə***
***Günahkar bilmirəm uşaqlarımı.***

Bəs, kimdir günahkar? Bax, şair poema boyu oxucunu bu suallar ətrafında düşündürür və bir daha xatırladır ki:

***Heç vaxt görünməyib ənənəmizdə***
***Böyüyün, kiçiyin haqqını kəsmək!***

Göründüyü kimi, şair poemada son dərəcə aktual problemlərə toxunur. Günahsız körpələrin, atılmış qocaların dərdisərini ortaya qoymaqla vicdanımızın önəminə diqqət çəkir. Namusumuzun üstə əsən şair ata zəhmətini, ana borcunu ödəməyi övlad üçün ən böyük şərəf sanır. Ata-ana qədrinə ehtiramsızlıq göstərənləri isə lənətləyir.

Poema qulaqlarda sırğa kimi asılmaq üçün aşağıdakı nəsi-



hət yüklü, istək və arzularla yoğrulmuş misralarla tamamlanır:

***Zorla borc ödəmək?***
***De, kimə gərək?***
***Deyirəm, hökm də həzin nəğmətək***
***Könüldən-könülə axsın, duyulsun!***
***Məhkumun üzünə oxunan hökmün***
***Məqsədi - qanmazı qandırmaq olsun!***
***Qanmaq da, cəza da, ədalət də var.***
***Qansın!***
***Borcundan da bir boy ucalsın!***
***Sevgiyə, qayğıya möhtac olanlar***
***Ancaq segiylə də haqqını alsın.***

Nəticə olaraq deməliyik ki, **"Atılmışlar"** - gənc qızın uğursuz taleyi, körpələr evindəki atalı-analı niskin yetimlərin aqibəti, övlad qayğısına möhtac qocaların miskin həyatı cəmiyyətdə hökm sürən ictimai-milli, mənəvi nöqsan və çatışmazlıqlara qarşı olan etiraz və üsyanı özündə əks etdirən ciddi bir əsərdir.

Müşahidəçilik qabiliyyəti B.Vahabzadədə lap erkən çağlardan güclü olub. Bu həssaslıq onu hələ uşaqlıqda gördüyü, rast gəldiyi ağrılarla baş-başa qoyub. Şair ömrü boyu insanlığa ləkə gətirən alçaqlığı pisləyib, hər cür haqsızlıq, zülm və istibdada qarşı mübarizə aparıb və beləcə bu mübarizə yollarında onun narahat xarakteri formalaşıb. Ədibin bəşəri ideyaları, istək və arzuları, o cümlədən, ardıcıl mübarizə əzmi onu sərbəst buraxmayan narahatlıqlardan doğulmuşdur. Başqa sözlə, onun şer, poema və dram əsərlərinin yazılma səbəbləri torpaqdan, vətəndən, xalqdan - bir sözlə, insan mənəviy-

yatının dərin qatlarından süzülüb gələn ağrılardır. Bu ağrıları yaşamadan böyük sənət əsərləri yaratmaq mümkün deyil. Odur ki, B.Vahabzadədən yazan hər bir qələm əhli şairin vətəndaşlıq qeyrətinin xarakterik cizgilərini onun narahat təbiətində axtarırlar. Məhz təsadüfi deyil ki, B.Vahabzadənin narahat xarakterini ilk dəfə məşhur tədqiqatçı Mehdi Hüseyn qiymətləndirib, ona "İnsan və zaman" *(Azərnəşr, 1964)* kitabına yazdığı ön sözdə "narahat şair" titulu verdi.

B.Vahabzadənin narahatçılığından ağrılar, ağrılardan fədakarlığı törəyir. Bu əvəzlənmənin nəticəsində onun narahatlığı fədakarlığı ilə qaynayıb-qarışır. Hətta rahatlıq tapmaq üçün həmişə narahatlığa uz tutub.

***Əzablarda mən özüməm,***
***Öz kökümün öz səsiyəm***
***Rahatlıqda özgəsiyəm.***

- deyən şair ifadə etdiyi poetik fikri gənc nəslin daha aydın başa düşməsi üçün ona belə aydınlıq gətirir: "Bəli, narahatıqsa, deməli, vicdanımızı yuxuya verməmişik. Vicdan həmişə oyaq olmalıdır ki, özümüzə onun gözü ilə baxıb, əməllərimizə nəzarət edə bilək, insani ləyaqətimizi itirməyək" **(B.Vahabzadə).**

Dərin qaynağı olan şair narahatlığı, bir sıra xüsusiyyətləri özündə birləşdirir:

***Tufansız ürəklər durğun göl kimi,***
***Suyu təzələnməz, dibi lillənər.***
***Narahat ürəklər daşqın sel kimi,***
***Hər daşın üstündə bir cür dillənər.***



Şerin mayasındakı hikməti görmək o qədər də çətin deyil. Əlbəttə, rahat yaşamaq müxtəlif cür olur. Rahat ömür bir yox, bəzəni də bir-birinə zidd müxtəlif mənaları daşıyır. Bu ifadəni hərə öz ideallarına uyğun başa düşür. Bəxtiyara görə, ömrü boyu rahatlıq içində uyuyan insan nəinki başqasının səsini, heç ürəyinin döyüntüsünün eşitməz. Həyatda belə insanlardan kimə nə kömək, nə işıq düşəcək? Odur ki, B.Vahabzadə əsərlərində ancaq xalqın qeyrətlisinə, narahatına müraciət edir.

B.Vahabzadənin yaradıcılığında şair narahatsızlığının əsl mahiyyətini akademik Yaşar Qarayev belə açıqlayır: "Fəal narahatlıq zaman qarşısında mənəvi cavabdehlik bütün dövrlərdə ciddi poeziyanın əlaməti olmuşdur. Özü də narahatlıq bu poeziyanın **(B.Vahabzadənin - F.X.)** yalnız əlaməti deyil, həm də bilavasitə predmetidir: Şair bir neçə şerində "narahatlıq"ı işıq hərəkət, həyat və dirilik təcəssüm kimi tərənnüm edir:

***Dünyada yaşamayan dünyadan dinclik umar,***
***Yanmağında tapmalı dincliyini sənətkar!"****

Təhlildən bir daha aydın olur ki, "narahatlıq" şairin poeziyasında özünün ilkin mənasından çıxıb, daha geniş mahiyyət kəsb edir. Bütün bu deyilənlərlə yanaşı, narahatlıqdan doğan ağrı və əzablar da şairin poetik təqdimatında yeni məna obyektinə çevrilir.

***Bu dünyanın sirrini,***
***Kitablardan öyrənək***

***Bax: Azərbaycanın Bəxtiyarı. "Azərbaycan" nəşriyyatı, Bakı, 1995, səh.60**

***Ancaq gəlin, həyatı,***
***Ağrılardan öyrənək,***
***Əzablardan öyrənək.***

Həyatı boyu ağrı və əzablardan öyrənə-öyrənə gələn şair indi yeni nəsli də bu mənbədən öyrənməyə çağırır. Əslində, bu çağırış yox, öz şəxsi təcrübəsinin işığında başqalarını da həmin əxlaq normalarına salmaqdır. Gəncləri psixoloji cəhətdən həyata hazırlayan sənətkar bir daha xəbərdarlıq edir ki:

***Ömrün yollarında "rahat" gedənlər,***
***Zirvələr başına ucala bilməz.***

- çünki xoşbəxtliyə gedən yol ancaq ağrı və əzablardan keçir. Həmin maneəni ram etmək üçün öncə onu öyrənmək, yaşamaq gərəkdir. Şairin digər bir şerində oxuyuruq:

***Öz könül dünyama səyahətimdə,***
***Susur, nə danışır, nə dinirəm mən.***
***Dərdimdə tapıram həqiqətləri,***
***Kədərim artdıqca, sevinirəm mən.***
***Dərdimə təşnəyəm, nəşədən toxam,***
***İstərəm, dünyaya içimdən baxım.***

Biz bir az öncə narahat şairdən danışdıq və qeyd etdik ki, narahatlıq Bəxtiyar şerini səciyyələndirən başlıca cəhətdir. Bəs, onun şerlərindəki kədər, dərd nədir? Bu notlar geniş çalarda qavranılan insanlığın "kadr arxasındakı" nişanələridir. Bu kədər zəifliyin, acizliyin yox, xalqın dərdinə qəmkar olmağın əlamətidir. İnsan dərd, qəm-qüssə çəkməlidir xoş-



bəxtlik naminə, başqlarını səadətə çağırmaq üçün. "Kədər dəyanətli, əzmkar və qeyrətli insanların həzm edə biləcəyi qidadır. Zülmün cəfasına, səthiliyin sıxıntısına və fikirsizliyin əzablarına toplaşmağı bacaranlar bu lətif və ləziz neməti dada bilərlər" **(Məsud Əlioğlu).**

Klassik mütəfəkkirlərə xas olan kədər şair üçün də doğmadır. Bu doğmalıq Bəxtiyarı "kədəri ağlın-düşüncənin sirdaşı" sanan böyük sələfi M.Füzuliyə ruhən yaxınlaşdırır və bununla da şairin kədər fəlsəfəsi meydana çıxır. Filosof-şair dərdin fəlsəfi mahiyyətini poetik şərh edib, onu həqiqətlərin qərar tutduğu məkan sanır. Artan kədəri ilə sevinən şair fikrini oxucularına fəlsəfi yozumda çatdırır. Əzab-əziyyət, mənəvi iztirab çəkmədən səadətə qovuşmaq, istədiyinə çatmaq, həyatı ucuzlaşdırmaq qiymətdən salır. Ancaq və ancaq kədərdən doğan sevinc, xoşbəxtlik gözəl və mənalıdır. Dünyaya zəmanənin yox, öz iç zirvəsindən baxan insanlar belə düşünə bilər:

***Dərdim olmasaydı, dərd tutmaq üçün,***
***Dərdin dəryasına tilov atardım!***
***Sevinci qaşıyıb, vallah, mən hər gün***
***Sevincdən özümə dərd yaradardım.***
***Əgər olmasaydı dünyaca dərdim,***
***Dərdin yoxluğunu mən dərd edərdim.***

Şerindəki fikrə aydınlıq gətirmək üçün şairin başqa əsərlərinə üz tutmaq lazım gəlir. Doğrudur, şerlərinin birində "Dərdinin dərmanı dərd olan dəli"ni dünyanın bədbəxti adlandırsa da, şair axıra qədər sözünün üstə durmur. "Dünya iki rəngdir, təkcə ağ deyil. Birini götürmək cəhalətindir" - deyir. Digər şerində:

***Dünyanın yasına qəh-qəh çəkməsən,***
***Dünyanın toyu da müsibətindir.***

Artıq bu kəlamlardan sonra "Dərdin yoxluğunu mən dərd edərdim" misrasının daşıdığı yükü başa düşmək o qədər də çətin deyil: Bizcə sevinc yollarını dərdlərimiz öyrədir! "Dərdi müalicə etmək üçün yeganə dərman, yenə də həmin dərdin özü ola bilər" **(B.Vahabzadə).** Dərdi duymaq, dəyərləndirmək qabiliyyəti şerin əsas qayəsini təşkil edir. Şair eyni fikri başqa bir şerində daha açıq şəkildə bəyan edir:

***Kədərdəki nəşəni, zövqü anlamayanlar***
***Həyatın nəşəsindən, fərəhindən nə anlar?***
***Hər kədəri səadət, hər sevinci qəm izlər***
***Əsl könül həm qəmi, həm sevinci əzizlər.***
***Təlatümsüz ürəklər qovuq kimi boş olur***
***Daim sevinc axtaran daim qəmə tuş olur.***

Şair bu müddəaları ilə bir daha göstərir ki, kədər də, sevinc də dünyaya qoşa gəlib, insan həyatından qoşa da gedir. Bunların birindən imtina etmək təbiətin yazılmış qanununu pozmaq deməkdir. Kədərə şərik olmaq, sevinci paylamaq əsl insanın yeganə yoludur. Bu yol, heç şübhəsiz, insanı insanlığın zirvəsinə ucaldır.

Göründüyü kimi, ikinci bölmədə də tərbiyənin digər aktual problemlərindən söhbət açılır. Şair insanın dünyada yeri və insanlıq haqqında düşüncələrində mürəkkəb və dərin mətləblərə baş vurur. İnsan probleminin həllinə öz münasibətini bildirir. Bəxtiyar humanizmindəki əxlaqi qənaət belədir: cəmiyyətdə zülm və ədalətsizlik mənəvi köləliyin mənbə və vasitəsi olduğu üçün insanlıqla bir araya sığa bilməz.



Mənəvi kölə olmuş cəmiyyətdə hər hansı insanlıqdan, əxlaqdan danışmaq olmaz. Çünki manqurtluq Allahın insana bəxş etdiyi təbii stimulları məhv edir. Nəticədə insan normal yaşamaq imkanlarını, üstəlik, simasını, əxlaqi məsuliyyətini itirir. Əxlaqsızlığın, yalanın baş alıb getdiyi cəmiyyətdə həqiqətdən, inamdan danışmaq gülünc işdir. Odur ki, B.Vahabzadə bütün həyat və yaradıcılığı boyu zülmü, haqsızlığı və onun törətdiyi fitnə-fəsadı, əxlaqsızlığı insanın mənəvi həyatından silmək üçün mübarizə aparır. İnsan həyatını gözəlləşdirən ləyaqət, həqiqət, qeyrət, vicdan, insaf və ədalət kimi ülvi keyfiyyətləri təqdir və təbliğ edir. Ayrı-ayrı janrlarda yazdığı əsərlərdə insandan insana məhəbbət, qayğı və xeyirxahlıq kimi meylləri gücləndirməyə çalışır. Vaxtilə məşhur ədəbiyyatşünas-alim F.Köçərli yazırdı: "Zehnlərə və ürəklərə yol tapan hər hansı həqiqi sənət əsərində iki əsas ünsür olmalıdır: əxlaqi, cəmiyyəti tərbiyə edən ali fikirlər və bu "ali fikirləri" ifadə edən bədii vasitələr, başqa sözlə, bədii əsər faydalı məzmunla yanaşı, müəyyən, bədii formaya da malik olmalıdır".*

B.Vahabzadə bütün yaradıcılığı boyu göstərilən sənət amalına sadiq qalıb. Buna görədir ki, şairin əsərləri tərbiyənin bütün komponentləri üçün zəngin material verir. Bir az dəqiq desək, B.Vahabzadənin ədəbi irsi bugünkü məktəbli və gənclərin tərbiyəsi üçün qiymətli xəzinədir. Həmin xəzinədən bəhrələnmək şagird və tələbələrdən xüsusi səy, müəllimdən isə dərin elmi bilik və pedaqoji ustalıq tələb edir.

---

***Sitat aşağıdakı mənbədən götürülmüşdür.**
**Bax: Talıbzadə K. Seçilmiş əsərləri. İkinci cild, Bakı, Azərnəşr, 1994, səh. 275**

# III FƏSİL:
## Bəxtiyar Vahabzadənin həyat və yaradıcılığını tədris edərkən

Hələ ötən əsrlərdə Azərbaycan maarifçiləri, millətin tərəqqisi naminə milli təəssübkeşliyin keşiyində dayanmış, milli məktəb və dərsliklərin yaradılması uğrunda mübarizə aparmışlar. Onların fikrincə, məktəb müxtəlif elmlərin əsaslarını öyrətməklə yanaşı, milli əxlaqi-mənəvi dəyərləri mənimsətməlidir. Milli tərbiyə millətin gələcəyidir. Milli tərbiyə xalqın tərəqqəsində, maarif və mədəniyyətin inkişafında mühüm şərtdir. Bu deyilənləri həyata keçirmək üçün onlar öncə milli kadrların hazırlanmasını vacib saymışlar.

Milli ruhda tərbiyə ancaq ana dili vasitəsi ilə mümkündür. Odur ki, S.Ə.Şirvani, M.Ə.Sabir, C.Məmmədquluzadə, A.Səhhət, N.Nərimanov, S.M.Qənizadə kimi görkəmli pedaqoq-ədiblər, ictimai xadimlər milli ruhu özündə birləşdirən ana dilinin rolunu ön plana çəkməklə, ana dili təlimi ideyasının inkişafını və bu sahələrdə əlverişli şəraitin yaradılmasına kömək etmişlər.

Ötən əsrin 50-ci illərindən sonra B.Vahabzadə həmin missiyanı öz üzərinə götürən şəxsiyyətlərdən olub, deyilən ehtiyacların ödənilməsi istiqamətində ardıcıl fəaliyyət göstərmişdir. Bu baxımdan, onun zəngin yaradıcılığı, ədəbi-pedaqoji irsi xüsusi əhəmiyyət kəsb edir.



B.Vahabzadənin həyat və yaradıcılığı ilə bağlı filoloji, fəlsəfi və pedaqoji istiqamətlərdə xeyli tədqiqatlar aparılmış, maraqlı məqalələr və monoqrafiyalar yazılmışdır. Butün bu deyilənlər işin bir tərəfidir. Şairin yaradıcılığının onun ictimai-siyasi, elmi-pedaqoji fəaliyyətinin təqdir və təbliğ olunması, heç şübhəsiz, məktəbdə tədris işi ilə də çox bağlıdır. Biz təhsilin inkişaf etdirici xarakteri ilə yanaşı, onun tərbiyəedici tərəfinə nəzər salsaq, aydın olur ki, təhsil həm də əxlaq, ideya-mənəvi tərbiyə, vətənpərvərlik və digər tərbiyə sahələri ilə müşayiət olunur. Məlum olduğu kimi, insanın ağlı, düşüncəsi, əqidəsi, milli şüuru məktəbli illərində formalaşır. Başqa sözlə, bu keyfiyyətlərin əsası, demək olar ki, məktəbdə qoyulur. Bu işlərin səmərəli təşkili ilk növbədə müəllimdən yüksək elmi-nəzəri hazırlıq və pedaqoji ustalıq tələb edir.

B.Vahabzadənin yaradıcılığında zaman-zaman müşahidə olunan məziyyətlərdən biri onun əsərlərinin böyük didaktiv-tərbiyəvi əhəmiyyətə malik olmasıdır. Buna görədir ki, B.Vahabzadədən yazan hər kəs bu cəhəti xüsusi qeyd edib və yüksək qiymətləndirib. Şairin poeziyasının güc və qüdrəti görkəmli bəstəkar, dirijor Niyazinin dilində belə səslənirdi: "Bəxtiyar poeziyası döyüşdür - o ictimai haqsızlıqla, biganəliklə, şöhrətpərəstlərlə, ikiüzlülərlə, qorxaq və əxlaqı natəmizlərlə döyüşür".*

İstedadlı şair-publisist Məmməd Aslan isə B.Vahabzadənin xalqı - Vətəni qarşısındakı misilsiz xidmətlərini belə dəyərləndirir: "...Vətənin tale xəritəsi B.Vahabzadə əsərlərində bəzi tarix və coğrafiya kitablarından daha dolğun əks olu-

***Bax: "Azərbaycan" jurnalı, 1975, №10**

nub. B.Vahabzadə şeri sonrakı nəsillərə vətəndaş olmağı, sözü üzə şax deməyi, həqiqəti cəsarətlə söyləməyi öyrədib. ...B.Vahabzadə poeziyası oxucularına yalana nifrət, həqiqətə məhəbbət tərbiyə edir".*

B.Vahabzadədən yazan müəlliflərdən gətirdiyimiz bu və ya digər fikirlər şairin poeziyasının nələr qadir olduğun bir daha təsdiq etməklə görkəmli şair, ictimai-siyasi xadimin həyat və yaradıcılığının ümumtəhsil məktəblərində öyrədilməsinin böyük təlim-tərbiyəvi əhəmiyyət və xüsusi aktuallıq kəsb etdiyini göstərir.

B.Vahabzadə ümumtəhsil məktəblərinin proqram və dərsliklərində ən çox yer verilən sənətkarlarımızdan biri, bəlkə də birincisidir. Şairin I sinifdə **"Müəllim"**, II sinifdə **"Kitab"**, IV sinifdə **"Əlcək"** şerləri tədris edilib.

V sinif: a) **"Şəhidlər"** əsərinin məzmunu - 1 saat

b) **"Şəhidlər"** şerinin təhlili. Azərbaycanın müstəqilliyi uğrunda şəhid olanların obrazı - 1 saat

VI sinif: a) **"Bayraq"** şeri Dövlətimizin rəmzidir - 1 saat

VII sinif: b) **"Azərbaycan"** şerində azadlıq ideyasının bədii ifadəsi - 1 saat

IX sinif: a) B.Vahabzadənin həyat və yaradıcılığı - 1 saat

b) **"Latın dili"** şerinin oxusu və məzmunu - 1 saat

v) Şerin təhlili: Dili yaşayan millətin şərəfi və dili itirilən xalqın faciəsi - 1 saat

XI sinif: a) B.Vahabzadənin həyatı - 1 saat

b) Şairin yaradıcılığı. Şerlərində milli ləyaqət, Vətən sevgisinin başlıca motiv olması - 1 saat

v) **"İki qorxu"** poemasının məzmunu üzərində iş - 1 saat

---

***Bax: Azərbaycanın Bəxtiyarı. Azərnəşr, Bakı, 1995, səh.112**



q) Əsərdə milli azadlığımıza təhlükə olan qüvvələrə təzə baxış - 1 saat

d) Poemanın təhlili: 80-ci illər mühitinə yeni münasibət. Dilimizin zənginliyi - 2 saat

B.Vahabzadənin həyat və yaradıcılığı müxtəlif siniflərdə öyrədilməsi nəzərdə tutulan əsərlərin səmərəli tədrisi üçün müəllimlərimizə kömək məqsədi ilə bəzi fikir və mülahizələrimizi xülasə etməyi lazım bilirik. Əlbəttə, verilən göstəriş və tövsiyələr dəyişməz resept deyildir. Müəllim şairin tərcümeyi-halını, yaradıcılığı barədə doğru-düzgün, ətraflı məlumat vermək üçün həmin material və faktlardan yaradıcılıqla istifadə elə bilər. Bu da həqiqətdir ki, hər hansı mövzu tədris edilərkən, müəllimin əlinin altında kifayət qədər elmi-nəzəri, ədəbi-bədii material yoxdursa, onda hər hansı uğurdan danışmaq olmaz. Onu da qeyd etmək vacibdir ki, şairin həyat və yaradıcılığını, müxtəlif əsərləri haqqında verilən əlavə məlumat ayrı-ayrı siniflərdə eyni həcmdə çatdırılmır. Burada hökmən şagirdlərin yaş xüsusiyyəti, siniflər nəzərə alınır. Məsələn, aşağı siniflərdə verilən məlumat qısa olmalı, bioqrafik xarakter daşımalıdır. Yuxarı siniflərdə verilən əlavə məlumatların həcmi tədricən genişləndirilməlidir.

Məktəb təcrübəsi göstərir ki, həyat və yaradıcılığı öyrədilən hər bir sənətkarın ədəbiyyat tarixindəki yeri barədə şagirdlərdə aydın təsəvvür yaradılmalıdır. Tərcümeyi-halı materiallarına xronika, faktların, illərin sadalanması kimi baxmaq olmaz. Ona görə də müəllim metodiki ədəbiyyatda qeyd edildiyi kimi, "dərin təlim və tərbiyəvi əhəmiyyəti olan elə faktlar seçməlidir ki, onlarda yazıçının dünyagörüşü, onun ictimai, ədəbi mübarizədəki rolu, yaradıcılıq yolunun istiqaməti və inkişafı öz əksini tapsın, şagirdlərin təsəvvürlərinin genişlənməsinə və tərbiyəsinin ümumi inkişafına kömək et-

miş olsun". Əlbəttə, tərcümeyi-halın öyrədilməsi yolları müxtəlif olduğu kimi, sənətkarların tərcümeyi-hal materialları fakt zənginliyi və dəqiqliyi baxımından da bir-birindən fərqlənir.

B.Vahabzadənin həyat və yaradıcılığının tədrisi zamanı müəllim-şairin özü yazdığı **"Ömürdən səhifələr"**, **"Avtobioqrafiyam"** adlı publisist qeydlərdən, silsilə müsahibə, məruzə materiallarından, habelə, şairin yaradıcılığı haqqında yazılmış elmi-tənqidi məqalə və monoqrafiyalardan və digər kitablardan məqsədyönlü istifadə edə bilər.

Bəxtiyar Mahmud oğlu Vahabzadə 1925-ci il avqust ayının 16-da Azərbaycanın dilbər guşələrindən olan Şəkidə anadan olub. İlk təhsilini doğulduğu şəhərdə alıb. 1934-cü ildə 3-cü sinifi başa vurduqdan sonra ailəsi ilə birlikdə Bakıya köçmüşdür. Şəhərin yoxsul təbiətinə və iqliminə çətinliklə uyuşan Bəxtiyar 1942-ci ildə orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinə daxil olub. Tələbəlik illərində universitetin nəzdində məşhur yazıçı, professor Mir Cəlalın təşkil etdiyi ədəbiyyat dərnəyinin fəal üzvlərindən biri olub. Şairin özünün qeyd etdiyi kimi, bu ədəbi mühit onun sənət aləmində müəyyən bir cığıra düşməsində böyük rol oynamışdır.

Tələbə Bəxtiyarın "Ədəbiyyat" qəzetinin 13 oktyabr 1944-cü il tarixli nömrəsində dərc edilmiş "Yaşıl çəmən, ağac altı, bir də ki, tünd çay" şeri (bu, şairin mətbuatda çıxan 9-cu şeridir) o zaman Azərbaycan Yazıçılar İttifaqının sədri vəzifəsində çalışan S.Vurğunun diqqətini cəlb etmiş və böyük şairin zəmanəti ilə 1945-ci ilin fevral ayında SSRİ Yazıçılar İttifaqının üzvlüyünə qəbul ediblər.

B.Vahabzadə bədii yaradıcılığa erkən hələ 4-cü sinifdə oxuyarkən başlasa da, mətbuatda dərc olunmuş ilk əsəri



**"Ana və şəkil"** (1943) şeridir. Şairin 40-cı illərin sonu 50-ci illərin əvvəllərində yazdığı **"Məktəb şerləri"** nəinki oxucular, hətta ədəbiyyatşünas və metodist alimlər tərəfindən həmişə yüksək qiymətləndirilib. Bu səmimiyyətin nəticəsi idi ki, **"İlk cığır"**, **"Məktəb yolları"**, **"Zəng səsi"**, **"Əlifba kitabı"**, **"Mən də onun meyvəsiyəm"** və s. şerləri orta məktəb dərsliklərinə salınaraq uzun illər tədris və təbliğ edilmişdir.

B.Vahabzadənin 1949-cu ildə **"Mənim dostlarım"** adlı ilk kitabı işıq üzü görüb. 50-ci illərdə şairin **"Bahar"**, **"Ədəbi heykəl"**, **"Dostluq nəğməsi"**, **"Çinar"**, **"Ceyran"**, **"Aylı gecə"**, **"Şəbi-hicran"** kitabları nəşr edildi.

Artıq poeziyada S.Vurğun məktəbinin davamçısı kimi tanınan B.Vahabzadə **"Avtobioqrafiya"**sında yazırdı: "Mən hələ uşaqlıqdan S.Vurğunun şerlərini sevmiş və yaradıcılığa da böyük ustadın təsiri ilə başlamışam. Bu sevgi məni həm bir şair kimi, həm də tədqiqatçı kimi ömürlük S.Vurğuna, onun əvəzsiz yaradıcılığına bağladı".

1947-ci ildə universiteti bitirib, aspiranturaya qəbul olunan B.Vahabzadə 1951-ci ildə **"S.Vurğunun lirikası"** mövzusunda namizədlik, 1964-cü ildə isə **"S.Vurğunun yaradıcılıq yolu"** mövzusunda doktorluq dissertasiyalarını müdafiə edib. Təqdirəlayiq haldır ki, B.Vahabzadə S.Vurğun məktəbinin davamçısı olmaqla yanaşı, 50-ci illərdən başlayaraq, bir sıra əlamətlərlə: deyim tərzinə, mövzu seçiminə, ictimai-siyasi hadisələrə real münasibətinə görə sələf və bir çox müasirlərindən fərqlənməyə başladı. Daha doğrusu, 30-40-cı illərdə sələflərini tərənnüm etdiyi ideallara real münasibət göstərirdi. Onların sərt qadağalar ucbatından deyə bilmədiklərini amansız qadağalar zəiflədikcə, tarixi həqiqətləri dolayısı yox, birbaşa söyləyirdi:

*Min ləkə vurdular şərəfimizə,*
*Verdik, sahibimiz yenə "ver" dedi.*
*Lap yaxşı eyləyib, doğrudan, bizə*
*Biri "baran" dedi, biri "xər" dedi.*
*Bizi həm yedilər, həm də mindilər,*
*Amma dalımızca hey deyindilər.*

Söhbət 1959-cu ildə "Nuxa fəhləsi" qəzetində 34 yaşlı şairin dərc etdirdiyi **"Gülüstan"** poemasından gedir. Əsl vətəndaşlıq qeyrəti göstərən gənc şair olmazın maddi və mənəvi məhrumiyyətlərə düçar olsa da, göstərilən təqib və yasaqlar onu da öz məsləkindən döndərə bilmədi. Əksinə, belə cəsarətli addımı ilə B.Vahabzadə haqqı bəyan etməklə xalqın milli şüurunu, azadlıq ruhunu oyatdı.

Milli azadlıq ruhundakı əsərlərinə görə şair nə qədər təqib olunsa da, bir o qədər xalq arasında məşhurlaşdı, sevilib seçilməyə başladı. Bu sevgi B.Vahabzadəni daha qlobal, daha vacib - ictimai-siyasi mövzulara cəlb etdi. Artıq 60-cı illərdə isə şair özünü, sözün geniş (qeyri-formal) mənasında "millət vəkili" hesab edirdi:

*Mən kiməm? Qərəzim nə?*
*Qarşı durdum zillətə;*
*Bilmirəm, bu millətə*
*Vəkil etdi kim məni?*

**"Ağlar-güləyən" (1962), "Yollar-oğullar" (1963), "Həyat-ölüm" (1965), "Təzadlar" (1967)** kimi azadlığın mənəvi-əxlaqi əsaslarını qoyan poemalar 60-cı illərdə yazılmış hər biri bir "milli ideologiya" kitabı qədər şüurlara, hisslərə təsir göstərmişdi. Həmin əsərləri ilə şair-ideoloq hissi təfəkkürdən əqli təfəkkürə körpü salıb, Azərbaycan poeziyasını düşüncələr poeziyasına çevirdi".*



Dünyanın ictimai dərdlərinə səs verən millətlərin mənəvi əxlaqi problemlərini özündə cəmləşdirən poemalar bu deyilənlərlə kifayətlənmir, şairin sonrakı yaradıcılıq dövrlərində də davam etdirilir. **"Muğam" (1974), "Atılmışlar" (1978), "Amerika gözəli" (1982), "Mərziyyə" (1984), "Bağışlayın, səhv olub" (1985), "Ləyaqət" (1986), "Şəhidlər" (1990)** və s.

Bütün bu deyilənlərlə yanaşı, şair bir çox xarici ölkələrə - Almaniya, İraq, Livan, İran, Türkiyə, İtaliya, Portuqaliyaya səfərlərinin təəssüratı əsasında silsilə şerlərini də yazmışdır. **"Neo" (1958), "Baba gurgur" (1959), "Latın dili" (1967), "Çörək-Səadət" (1972), "Çörək-Vətən" (1972), "Portuqaliya lövhələri" (1975), "Sovxa medallar" (1978), "Olum ya ölüm?" (1978)** və s.

Şairin yaradıcılığındakı mövzuların coğrafi mənzərəsi onu göstərir ki, şair təkcə Azərbaycanın yox, həm də dünyanın vətəndaşıdır. B.Vahabzadənin yaradıcılıq məziyyətlərindən danışarkən böyük qırğız yazıçısı Çingiz Aytmatov haqlı olaraq yazırdı: "Azərbaycanlı şairi oxuyanda - dünyanı oxuyursan".

Bu əsərlər ənənəvi xatirə şerlərindən fərqli olaraq mündəricəsinə, öz qüvvətli, ictimai-siyasi ruhuna görə seçilir. Həmin əsərlərlə tanış olan oxucu dünyanın taleyi üçün həyəcan keçirən şairin narahatlığını çox yaxşı duyur. Poeziyası sərhəd və çərçivə tanımayan şair, əlbəttə, sərhədsiz dünya və sərhədsiz ömür haqqında fikirləşir:

---

***Bax: Cəfərov N. Bəxtiyar Vahabzadə. "Azərbaycan" nəşriyyatı, Bakı, 1996, səh. 12**

*Sonu olan ömrü istəmirəm mən,*
*Çıxaydım zamanın çərçivəsindən.*

- deyir. Respublikanın əməkdar jurnalisti Azər Bağırov yazır ki: "Şairin yaradıcılığının ikinci, üçüncü və son dövrlərini təşkil edən 60-cı, 70-ci və 80-90-cı illərdə yazdığı əsərləri məhz zaman və dünya miqyaslı poeziya adlandıranlar tam haqlıdırlar. Zaman, müasirlik bu poeziyanın məhək daşıdır:

*Öz könlümə güvənməklə*
*Öz yurdumun, torpağımın övladıyam,*
*Budaq-budaq qollarımla,*
*Çalın-çarpaz yollarımla*
*Atamdan çox,*
*öz çağımın övladıyam.*

Bu zaman miqyasında hər şey - insanın taleyi, mənəvi-əxlaqi ovqatı, doğma Vətənin, xalqının, dünyanın digər məzlum xalqlarının azadlıq və istiqlaliyyət, Yer üzərində vicdanın, haqqın və ədalətin bərqərar olması şairi düşündürür, qəlbini narahat edir, həyəcanlandırır".*

Şairin zaman və müasir insan haqqında düşüncələrinə, millət və Vətən təəssübkeşliyinə **"İnsan və Zaman" (1964), "Bir ürəkdə 4 fəsil" (1966), "Köklər-budaqlar" (1968), "Dəniz, sahil" (1969), "Dan yeri" (1978), "Açılan səhərlərə salam" (1979), "Payız düşüncələri" (1981),**

***.Bax: Müəllif-tərtibçi: N.İbrahimov. Bəxtiyar Vahabzadə "Foto-kitab", Bakı, "Azərbaycan" nəşriyyatı, 1995, səh. 12**



**"Axı, dünya fırlanır" (1987), "Lirika" (1990), "Nağıl-həyat" (1991), "Yeni şerlər" (1993), "Vətəndaş" (1994)** və s. toplu və kitablarda rast gəlmək olar. Şairin əsərləri təkcə Azərbaycanda yox, müxtəlif dillərə tərcümə edilərək Moskvada, Daşkənddə, Ankarada, Tehranda, Berlin və s. şəhərlərdə nəşr edilmişdir.

Yuxarıda qeyd etdiyimiz kimi, B.Vahabzadə həm də istedadlı ədəbiyyatşünas-alimdir. Professor 1980-ci ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, 2001-ci ildə həqiqi üzvü seçilmişdir.

1974-cü ildə Əməkdar incəsənət xadimi fəxri adına, 1976-cı ildə Azərbaycan Respublikası, 1984-cü ildə isə SSRİ Dövlət mükafatlarına layiq görülmüş, müxtəlif ordenlərlə təltif edilmişdir.

1984-cü ildən Azərbaycanın xalq şairidir. 1994-cü ildə şair "Türk dünyası ədəbiyyatına xidmət" mükafatına (Türkiyə) layiq görülmüşdür.

B.Vahabzadə X-XI çağırış Azərbaycan Respublikası Ali Sovetinin deputatı olmuşdur. 1991-ci ildən 2005-ci ilə qədər fasilələrlə Milli Məclisin üzvüdür.

B.Vahabzadə müstəqil Azərbaycan Respublikasının "İstiqlal" ordeninə layiq görülmüş ilk Azərbaycan şairlərindən biridir.

### Bəxtiyar Vahabzadənin yaradıcılığı haqqında müvafiq ədəbi, elmi və metodik materialların verilməsi sistemi

**Şairin lirikası.** B.Vahabzadə öncə lirik şairdir. O, çağdaş Azərbaycan poeziyasının istedadlı nümayəndələrindən biridir. Onun zəngin yaradıcılığı Azərbaycan poeziyasının inki-

şafında diqqəti cəlb edən bir mərhələdir. Bu mərhələnin özü də bir neçə on illiklərə bölünür. Şairin yaradıcılığı çoxcəhətli və rəngarəngdir. Bu çoxşaxəliliyin bir qolunu ədibin lirik yaradıcılığı təşkil edir.

B.Vahabzadənin lirik yaradıcılığı üçün səciyyəvi olan xüsusiyyətlərdən biri məktəb həyatının, müəllim obrazının şairin silsilə əsərlərinin diqqət mərkəzində dayanmasıdır. Müəllimlər çox yaxşı bilirlər ki, **"Məktəb şerləri"** B.Vahabzadə yaradıcılığının ilk mərhələsidir. Bu mərhələ sənətkar fəaliyyətinin təşəkkülündə uğurlu bünövrə, böyük poeziya aləminə yürüşün start nöqtəsidir. Əgər belə olmasaydı, akademik Yaşar Qarayev "Məktəb şerləri"ni Bəxtiyar poeziyasının mənşəyi, əlçatmaz uşaqlıq zirvəsi hesab etməzdi. "Məktəb şerləri" şairin fərdi şer məktəbinin formalaşmasına təsir göstərməklə bərabər uzun illər gənc nəslin tərbiyəsində böyük rol oynamışdır. Məhz təsadüfi deyildir ki, hələ 1948-ci illərdə görkəmli şair Osman Sarıvəlli "Məktəb şerləri"nin tərbiyəvi təsirini vaxtında görüb və yüksək qiymət vermişdir: "Hər birinin ayrılıqda müstəqil mənası və özünəməxsus forması olan bu kiçik və maraqlı şerlərin əslində, elə bil ki, hamısı bir fikri ifadə edir və bir-birilərini tamamlayır. Bu şerlər bizim sağlam gəncliyimizdə məktəblərimizə həvəs, müəllimlərimizə hörmət hissi aşılayır. Uşaqlarımızı oxumağa, öyrənməyə çağırır. Ona görə də bu şerlərin tərbiyəvi əhəmiyyəti vardır".*

B.Vahabzadə lirik əsərlərinin böyük əksəriyyətini ənənəvi mövzularda yazmışdır. Ancaq onun şerləri, mövzuların qoyuluşu, ideya fikir istiqaməti bədii forma xüsusiyyətləri

---

***Bax: Azərbaycanın Bəxtiyarı. "Azərbaycan" nəşriyyatı, Bakkı, 1995, səh. 33**



ilə seçilir. Mövzu köhnə olsa da, obrazlılıq, nəfəs təzə, bədii ümumiləşdirmə güclüdür. Şair lirik əsərlərində bədii detalların fəlsəfi dərinliyinə, həyata müdrik müdaxiləsinə, üsyankar təbiətinə və poetik dilinin zənginliyinə görə bir çox müasirlərdən fərqlənir. Şerləri dilinin ahəngdarlığı, fonetik zərifliyi və qrammatik dərinliyi ilə sevilib yadda qalır. Bu məziyyət bəstəkarların da diqqəti cəlb edir. Bunun üçündür ki, B.Vahabzadə şerləri ən çox bəstədə səslənən şairlərimizdəndir. Görkəmli bəstəkar Şəfiqə Axundova: "Şairin şerləri musiqi qədər ahəngdardır. Mən bu poeziyanı musiqili poeziya adlandırıram",- deyir.

B.Vahabzadənin poeziyası mənsub olduğu xalqın düşüncəsi, Vətən eşqi, onun təbii gözəlliklərindən qidalandığı kimi, həm də millətin ağrısından doğur. Bunun nəticəsidir ki, şair 50-ci illərin sonu, 60-cı illərin əvvəllərində milli azadlıq uğrunda yazdığı əsərlərdə poetik məramını **"Dağda şəlalə kimi"** şerində açıq şəkildə belə bəyan edirdi:

***Çağlamaq istəyirəm dağda şəlalə kimi,***
***Səpilmək istəyirəm çöllərdə lalə kimi;***
***Dərya olub, nəhr olub, çalxalanmaq istəyirəm,***
***Göylərdə ulduz kimi mən yanmaq istəyirəm,***
***Sığınmaq istəyirəm başsız küləklər kimi***
***Bəslənmək istəyirəm bütün ürəklərdə mən***
***arzu, diləklər kimi...***

Həyatını birdəfəlik milli mücadiləyə həsr etmiş bu böyük ədib zaman keçdikcə, özünü milli bir şair kimi təsdiq edir. Artıq onun poeziyası cəmiyyətin inkişafında, yeniləşməsində nüfuzedici, istiqamətverici qüvvəyə çevrilir, «çünki həmin poeziyanın mayası safdır, onun yaradıcısı uzun illərin

sosial-estetik idrak təcrübəsinə, milli istiqlal uğrunda mübarizə mədəniyyətinə malikdir» **(Nizami Cəfərov).**

Torpaq, soy-kök və el hikməti Bəxtiyar poeziyasının rişələndiyi mənbələrdir:

***Mənə qüvvət verən, ey ana torpaq.***
***Nə səndən dönərəm, nə məsləkimdən***
***Ürəklə yaşadım, ürəklə ancaq,***
***Yalnız ürəklə də öləcəyəm mən!***

- deyən şairin açıqlaması onun gələcək fəaliyyət istiqamətini bir daha müəyyənləşdirir; yüksək vətəndaşlıq məsuliyyəti, Vətən eşqi, əqidə və məslək bütövlüyü, insana bir dəfə verilən ömrü kişi kimi yaşamaq qeyrəti! Bəxtiyar poeziyasının əsl məramı bundan ibarətdir.

Şairin poeziyasında «Vətən» məfhumu daha geniş və dərin ictimai məzmun kəsb edir. Akademik Y.Qarayevin sözləri ilə desək «Hətta Vətən də şair üçün, hər şeydən əvvəl, Zamanı təmsil edən surət və simvol ədəbi-əxlaqi yaddaş və mənəvi-tarixi bir vicdandır». Göründüyü kimi, Vətən şairin yaradıcılığında təkcə tərənnüm obyekti deyil, həm də mənəvi-əxlaqi yaddaş, dərd oylağı, mübarizə rəmzidir. Odur ki, xalq həyatının ağrılı nöqtələri, Vətənin dərdli məqamları şairi daima narahat edir:

***Bu necə Vətəndir?***
***Görmədim üzünü***
***Çatsam da bu yaşa***
***Ömründə bir dəfə***
***Bəs, salam verməzmi***
***Qardaş da qardaşa?!***



***Bu qəmim, bu dərdim***
***Dağlardan ağırdı,***
***Arazın suyuna qarışıb***
***axıram.***
***Füzuli həsrətlə qürbətdən***
***Vətənə baxırdı,***
***Mən isə...***
***Vətəndən-Vətənə baxıram.***

Ayrılıq, hicran, qüssə-qəm motivləri üstə köklənən «**Vətəndən-Vətənə**» (1962) şeri fərdi-subyektiv kədər deyil, milli faciəmizin ifadəsidir. Oxucu Vətən gözəlliklərini vəfs edən, tariximizin şərəfli məqamları ilə qürrələnən, xəcalətli səhifələrdən təəssüflənən, bir sözlə, xalqın, Vətənin tarixi taleyindən yazan bir şairin gileyində şübhəli bir şey axtarmamalıdır. Çünki bu bir həqiqətdir ki, torpaqlarımız dəfələrlə bölünüb, parçalanıb. İndi Vətənin böyük hissəsi qürbətdir. Torpaqlarımızın bütövlüyü, xalqımızın birliyi əldə edilənəcən hər bir azərbaycanlı bu hiss və həyəcanı yaşamalıdır.

B.Vahabzadə poeziyasının mayası, ümumən, yaradıcılığının hərəkətverici qüvvəsi vətənpərvərlikdir. Dərin qaynağı olan vətənpərvərlik şair qəlbinin hərarətindən güc aldığından daha səmimi, müdrik olduğu qədər üsyankar və məğlubedilməzdir:

***Sirdaşım olmasın nə fəryad, nə ah (!)***
***Qoy ömrüm ötüşsün boranda, qarda.***
***Ölmək istəyirəm əlimdə silah —***
***Məsləkim yolunda vuruşmalarda (!!)***

Şairin əsərlərində Vətənə məhəbbət anaya məhəbbətlə bir yerdədir. Ana mövzusu Vətən kimi ənənəvi olsa da, bu

mövzu yüksək bəşəri düşüncələri insan qəlbinin böyüklüyünü ifadə etmək üçün geniş imkanlara malik olduğundan, bütün zamanlarda təzə-tər qalacaqdır. «Ana yeganə bir qüvvədir ki, onun qarşısında ölüm itaətlə baş əyir. Qadın — anaya eşq olsun!» **(M.Qorki).** Odur ki, Hadi, Səhhət, Cabbarlı, Cavid, S.Vurğun və başqa sənətkarlarımız lirik şerlərində ana məhəbbətinin qüdrətini tərənnüm etmişlər. B.Vahabzadə də **«Ana»**, **«Mənim anam»** və digər ana haqqında yazdığı şerlərində həmin ədəbi ənənəyə sadiq qalmışdır. Bəxtiyara görə, ana bir də ona görə müqəddəsdir ki, ən vacibi: dil öyrədir, qəhrəmanlıq öyrədir, sevib-sevilmək öyrədir…

**«Ana»** şerində şair ana ömrünün mənasını belə poetikləşdirir:

***Ana, ana, sən qısaldıb ömrünü***
***Mənə daim uzun ömür dilədin.***
***Əridib öz gözlərinin nurunu***
***Mənim ömür yollarıma çilədin.***

Niyyət nə qədər saf və təmizdir. Ana övlad qarşısında misilsiz xidmətləri ilə bütün insanlıq qarşısında fəxr eləməyə layiqdir.

B.Vahabzadənin yaradıcılıq uğurlarından biri onun məhəbbət lirikasıdır. Şair bu mövzuya təkcə gənclik illərində yox, bütün yaradıcılığı boyu müraciət etmişdir.

"Bəxtiyar ahıllıq məhəbbətindən, nə xəcalət çəkdi, nə də ar eylədi" - işarəsi ilə bu mövzuya ömrün ahıl çağında da sədaqət göstərdiyini təsdiq edir. Şairin lirikasında məhəbbət sadəcə, həzz, zövq, mənəvi və cismani ləzzətin tələbi deyil, həm də güclü qüdrət və qabillik timsalıdır:



***Ən ülvi, təmiz duyğudur insanda məhəbbət,***
***Ömrün yoluna nur səpir hər anda məhəbbət.***

Göründüyü kimi, Bəxtiyar məhəbbətə həm də ən təmiz, ülvi bir hiss kimi yanaşır. Onun ülviləşdirmək qüdrəti insanı xudbin və miskinlik kimi əzablardan qurtarır.

***Dünya da məhəbbətlə dönür, fırlanır ancaq***
***Məhvər də məhəbbətdi, bu dövran da məhəbbət.***

Məhəbbət elə bir meyardır ki, ucalıq bu meyar əsasında öz dəyərini tapır. Məhəbbət reallıqdır, o insanın təbiətindədir. Əgər o canda yoxdursa, ucalığa can atmaq faydasızdır.

***...Həm zövqüdür, həm cövrüdür ömrün, o həyatın;***
***İnsanı ucaldan da, qocaldan da məhəbbət.***

Bu nəzər şairin ümumən həyata baxışıdır. Məhəbbət həyatın mənası, ömrün bir parçasıdır. O insanın təbiətini dəyişir. Mənəvi aləmini zənginləşdirir. İntim-subyektiv münasibətlər çərçivəsindən çıxıb, sədaqətə, saflığa, düzlüyə, tərəqqiyə xidmət edəndə insanı ucaldır. Əksinə, hər cürə xırda hisslərin, eybəcər ehtirasların sadəcə daşıyıcısı olanda insanı vaxtsız qocaldır.

***Dünyanı gözəlləşdirir öz cilvələri ilə***
***Xoşdur duyan insana xəyaldan da məhəbbət.***

Şairin əsərlərində məhəbbət dünyanı gözəlləşdirən əsas keyfiyyətdir. Məna və mahiyyətcə bu iki əsas keyfiyyət (məhəbbət və gözəllik) bir-birini tamamlamaqla özünü biri

digərində tapır. Başqa sözlə, gözəllik məhəbbətlə bir yerdə olanda, daha qüdrətli, daha təravətli olur. Məhəbbət olan yerdə həyat gözəldir. Gözəllik də öz növbəsində əxlaqi təmizlik, mənəvi kamillikdir.

Göründüyü kimi, B.Vahabzadə məhəbbətin sadəcə tərənnümçüsü deyil. Qəzəldə şairin tərbiyəvi-əxlaqi qayəsinin əsas müddəaları öz ifadəsini bədii şəkildə çox yaxşı tapıb.

O, öz dəqiq, yığcam və sərrast mülahizələri ilə izlədiyi ictimai-ədəbi amalın mahiyyət və xüsusiyyətlərinə aydınlıq gətirir. Bir sözlə, məhəbbət Bəxtiyar poeziyasında dərin məzmun, geniş fəlsəfi məna, yüksək estetik mahiyyət kəsb edir.

Şairə görə, insan o zaman ruhən məğrur və xoşbəxtdir ki, o, sevir, həm də sevilir. Sevmək istedaddır, fədakarlıq və səadətdir. Sevən insan gözəlləşir. "Sevə bilirəmsə" şeri B.Vahabzadə yaradıcılığında sevgi lirikasının yerini müəyyənləşdirir. Şerdə sevginin mənəvi ucalığı insan həyatındakı mövqeyi, güc və qüdrəti dəqiq nişan verilir. Poetik qənaət belədir:

***Sevə bilirəmsə, əgər ürəkdən***
***Dünyanın ən gözəl adamıyam mən.***

- deyən lirik qəhrəman sevgidən məmnunluq duyur. Çünki:

***Sevirəm,***
***sevirəm,***
***sevirəm,***
***demək,***
***Bütöv bir aləməm, kainatam mən.***



Əlbəttə, bundan böyük mənəvi ucalıq, böyüklük yoxdur. Dünyəvi aləmin zövqündə duran insan zəngin və varlıdır. Önəmli tərəf odur ki, "əgər sevirsənsə" sual-xitabı təkcə lirik qəhrəman aşiqə yox, həm də "Gəlir" adlı bir şerində məşuqəyə də verilir:

***Baxışdan söz götür, söz anla sözdən,***
***Həssas ol, sevgilim, ömrün boyu sən.***
***Əgər sevirsənsə, ayaq səsindən***
***Gərək biləsən ki, Bəxtiyar gəlir.***

Göründüyü kimi, şair qadını və sevgidə həssaslığa, ülvi məhəbbətə səsləyir. Öz məhəbbətini ayaq səsindən duya bilən etibarlı və sadiqdir. Yaxşı olar ki, bu məqamda müəllim şairin poetik dəst-xəttini daha yaxşı səciyyələndirən bu şer haqqında xalq şairi R.Rzanın aşağıdakı məşhur kəlamlarını şagirdlərə çatdırsın. "Bu şerdə o qədər ürək hərarəti, poetik cazibə var ki, onu dərin həyəcan keçirmədən oxumaq mümkün deyil. Mən hər dəfə bu kiçik poetik xilqəti dinləyəndə, yaxud oxuyanda, həmkarımın əllərini dönə-dönə sıxıb, təkrar etmək istəyirəm: Dostum, sağ ol ki, öz sözünlə ürəkdə belə zərif, nəcib hisslər axını, belə işıqlı kədər və sevinc oyada bilirsən".*

B.Vahabzadə lirikasında sevgi sadəcə ülvi və təmiz ehtirasların tələbi kimi nəzərdə tutulmur. Bu, şəxsi, fərdi olduğundan kiçik hissdir. Şairə grə, "İnsanın ən ali, ən müqəddəs sevgisi isə Vətənə olan sevgisidir".

***Bəxtiyaram ki, Vətən eşqinə yandım, yanıram***
***Hələ yatmışları qəflətdən oyandırmaq üçün.***

---

***Bax: Azərbaycanın Bəxtiyarı. "Azərbaycan" nəşriyyatı, Bakı, 1995, səh. 17**

Bəli, Vətən sevgisini sevgililər sevgisi hesab edən Bəxtiyar kimi aqillər Vətən eşqinə yana bilər. Bu, şairin mənəviyyat böyüklüyü, əsl fədakarlığıdır. Vətən eşqinə qalanmaq hər bir vətəndaşın qarşısında duran ən mühüm vəzifə və əxlaqi borc kimi dəyərləndirilir. Qəzəldə eşqin əxlaqi-mənəvi məzmun və vəzifəsi yaxşı ifadə edilmişdir.

Bu məziyyətlər bir daha onu göstərir ki, B.Vahabzadə həm də klassik ənənəyə, milli kökə sadiq bir sənətkardır. O, klassik sələflərini, xüsusən də, Füzulinin məhəbbət lirikası ənənələrinin ən layiqli davamçısıdır. Bu ruhi yaxınlıq öncə Bəxtiyarın ənənəvi poetik formaya - qəzələ qayıdışında özünü göstərirsə, digər tərəfdən, akademik Y.Qarayev və professor Şamil Salmanovun qeyd etdikləri kimi, "Füzuli lirikasında olduğu kimi, bu lirikada da məhəbbət ancaq hissi-emosional planda deyil, eyni zamanda lirik qəhrəmanın fəlsəfi-intellektual dünyaduyumu planında açılır və mənalanır".*

"Eşq pirim nəqdi - can nəzrim" söyləyən Füzuli üçün eşq hər şeydirsə, "Yaş ötsə də, ruhun diləyi eşqdir ancaq, Eşq atəşi vardırsa, can əldən düşə bilməz" - deyən Bəxtiyar üçün eşq ruhun diləyi, canın cövhəri, onu yaşadan ilahi bir qüvvədir. **"Vardır", "Düşə bilməz", "Məhəbbət", "Gülüm"** və s. qəzəllərdə B.Vahabzadənin bu ənənəvi janrdan da böyük istedad sahibi, zəngin poetik təfəkkür mədəniyyətinə malik bir sənətkar olduğunu təsdiq edir.

B.Vahabzadənin lirik qəhrəmanı təkcə qəzəl janrında yazdığı əsərlərdə deyil, həm də digər janrlarda yazdığı şerlərdə də özünü dərk edir:

***Dünyaya gəlmişik***
***Dünyanı duymağa, bilməyə.***

***Bax: Qarayev Y., Salmanov Ş. Poeziyanın kamilliyi. Bakı, Yazıçı, 1985, səh.95**



***Düynyaya gəlmişik***
***Sevməyə, sevilməyə***
***Məhəbbətlə gülşən***
***Göy də, qızım Yer də, qızım***
***Sevir, sevir bir-birini***
***Güllər, çiçəklər də, qızım.***

Fikir verin, sevgisi sönük, məhəbbəti dayaz, eşqi cılız insanlardan fərqli olaraq şairin lirik qəhrəmanı yüksək əqidə və amallar sahibidir. İnsanın yaşamaq hüququ və amalı bədii sözün güc və qüdrəti ilə çox gözəl şərh edilir. Nədir ömür?

***Ömür - qəlbin zəkanın***
***Min eşqi, min əməli,***
***Ömür, ömürdən sonra***
***Yaşamağın təməli!***

B.Vahabzadənin poeziyasında insan, sevgi, ömür yolu, ömrün mənası mənalı yaşamaq haqqında çırpıntılar poeziyasıdır. Bu məramlı şerlər şairin fəlsəfi lirikasının gözəl nümunələridir:

***Ömür yolum - içimdəki vuruşlarım!***
***Mübarizəm - tale ilə yarışlarım.***

və ya

***Yaşamaq yanmaqdır, yanasan gərək,***
***Həyatın mənası yalnız ondadır.***
***Şam əgər yanmırsa, yaşamır, demək,***
***Onun da həyatı yanmağındadır.***

Bu hikmətli ömrün, yaşamağın mənasını dəyərləndirən şairin gəldiyi nəticələrdir. Yox, şair təkcə hikmət söyləmir, həm də bu hikməti sənətkar taleyində, vətəndaş mövqeyində yaşadıb, şərəflə ona əməl edir. Ömrün, yaşamağın mənasını gəzən müəllifin fikrinə tədqiqatçı, xalq şairi S.Rüstəmxanlı belə aydınlıq gətirir: "Mənalı yaşamaq! Bu sözlər insana aid olanda - gözəllik, xalqa aid olanda - şərəf və qəhrəmanlıq kimi səslənir. Müxtəlif zaman və yaş bölümlərində də, sevgi sınaqlarında da, borc duyğusunun çağladığı anlarda da bu tələb güclüdür və hər dəfə yeni rənglər, yeni çalarlar qazanır, oxucu fikrini də yeni qatlara, yeni üfüqlərə doğru genişləndirir".*

Göründüyü kimi, B.Vahabzadənin poeziyası həm də fəlsəfi poeziyadır. Bu poeziya ciddi, qlobal fikirlərin həllinə yönəldiyindən, oxucunu düşündürür, onu daim ayıq vəziyyətdə saxlayır. Şair təkcə fəlsəfi mövzulara yox, hətta ənənəvi mövzulara da özünəxas bir duyumla yanaşır. Tarixdə səbəb və nəticə əlaqələrini, inkişafın təzadlarındakı qanunauyğunluqları poetik çalarda oxucusuna təqdim edir. B.Vahabzadənin fəlsəfi yozumunu açmaq tədqiqatçıların qarşısında tələb kimi durursa, bu, həm də yuxarı siniflərdə B.Vahabzadəni tədris edən müəllimlərin də qarşısında mühüm vəzifə kimi qoyulur. Əlbəttə, B.Vahabzadənin lirik yaradıcılığı haqqında geniş məlumat vermək imkan xaricindədir. Odur ki, müəllimlər kitabın birinci və ikinci fəsillərindəki müvafiq materiallardan istifadə edə bilər.

**Şairin poemaları.** B.Vahabzadə poema janrına ən çox müraciət edən Azərbaycan şairlərindən biridir. Şairin **"Şəbi-**

***Bax: Azərbaycanın Bəxtiyarı. "Azərbaycan" nəşriyyatı, Bakı, 1995, səh,118**



**hicran", "Gülüstan" (hər ikisi 1958), "Ağlar-güləyən" (1962), "Yollar-oğullar" (1963), "Həyat-ölüm" (1965), "Təzadlar" (1967), "Dörd yüz on altı" (1970), "Muğam" (1974), "Atılmışlar" (1978), "Mərziyyə" (1984), "Ləyaqət" (1986), "Şəhidlər" (1990)** və s. kimi poemaları çağdaş Azərbaycan poeziyasının nailiyyəti, parlaq səhifələridir. Bu poemalar öncə toxunulan problemlərin aktuallığı, hadisələrin canlı insan taleləri əsasında təqdimi, fikrin bədii-fəlsəfi ifadə kamilliyi, zəngin üslub çalarları və digər sənətkarlıq xüsusiyyətləri ilə yadda qalır. Bu poemalardan bir neçəsi barədə bir və ikinci fəsillərdə söhbət açıldığından burada yalnız **"Şəbi-hicran"** və **"Qiymət"** poemaları haqqında qısa məlumat verməklə kifayətlənəcəyik.

**"Şəbi-hicran"** poeması milli poeziyamızın korifeyi M.Füzuliyə həsr olunub. B.Vahabzadənin bu mövzuda poema yazmağa onun mənəvi haqqı var. Öncə şair milli kökə, ənənəyə sadiq bir sənətkardır. O, müntəzəm tarixə müraciət edir. Mənsub olduğu xalqın keçdiyi həyat yoluna nəzər salır. Bu yolun haradan başlayıb, harada necə getdiyini saf-çürük edir. Onun mədəniyyət, dil və digər sənət səhifələrini vərəqləyir. Xalqın qəhrəmanlıq ənənələrini, faciəli anlarını bütün dəqiqlik və ziddiyyətləri ilə birgə ifadə etməyi bacarır. Təzadlardakı qanunauyğunluqlara, məntiqə özünəməxsus duyumla yanaşır. Bütün bunlar şairin bədii yaradıcılığını zənginləşdirən mənbələrdir.

Füzulidən yazmaq şərəfli olduğu qədər çətindir. Çətindir, ona görə ki, poemanın proloqunda deyildiyi kimi, o, əlçatmaz zirvə, dərin dərya, böyük kainatdır. Bütün bunlara baxmayaraq, B.Vahabzadə özündə güc və qüdrət tapıb, qarşıya qoyduğu vəzifənin öhdəsindən bacarıqla gəlir. Poemada Füzulinin möhnət dolu həyatı bütövlükdə yox, bəzi məqamla-

rı təsvir edilir. Məhəmməd canlı bir insan kimi məhəbbəti, yanğısı və bütün əzəməti ilə təsvir olunur.

1950-ci illərin sonlarında B.Vahabzadə ana dili, Vətən haqqında istək və arzularını, fikir və düşüncələrini Leylanın dili ilə Məhəmmədə müraciətində çox səmimi ifadə edir:

***Sən Odlar yurdunun öz övladısan!***
***Doğrudur, sən indi qürbət eldəsən.***
***Ancaq ürəyində yaşasın Vətən,***
***Vətənin öz dili, öz tarixi var.***
***Ölsün Vətənini tanımayanlar!***
***Qoy sənin şerində dil açsın Vətən! -***
***Onun küləkləri, onun çayları,***
***Biz ayrı düşsək də öz elimizdən***
***Qürbətdə ölməsin dilimiz barı.***

Daha sonra müəllim B.Vahabzadənin ədəbi fəndgirliyini şagirdlərə daha yaxşı başa salmaq üçün Azər Bağırovun aşağıdakı fikir və mülahizələrini şagirdlərə çatdıra bilər: "XVI əsrin dahi klassikinin dili ilə:

***Şəbi-hicran qoca Şərqin varlığı, öz adıdır,***
***Məhkum olan millətlərin "yandım" deyən fəryadıdır.***

- deyəndə, heç şübhəsiz, ilk növbədə, iki yerə parçalanmış, hər parçası bir qəsbkar dövlətin əsarətində inləyən, öz ölkəsinin, millətinin taleyinə ağlayırdı. Sanki uzaq keçmişə isnad edilən:

***Hələ birlik görməmiş mənim böyük Vətənim,***
***Qəsbkarlar əlində didildi, parçalandı,***
***Ancaq sərvəti deyil, ürəyi də talandı.***



- deyən şair sərrast eyhamla Azərbaycanın çağdaş vəziyyətinə işarə vururdu. Şair Füzulinin şerlərini "Hərəsi bir diyara düşən qardaş - bacıları bir-birinə tanıdan", "Qardaşa qardaşın əllərini çatdıran", "Parçalanmış bu eli - Böyük Azərbaycanı birləşdirən" rəmz kimi mənalandırarkən, bu taylı-o taylı milyonlarla həmvətənlərimizin əsrlər boyu ürəklərinin dərinliklərində gəzdirdikləri ən həsrətli arzusunda, diləyindən xəbər verirdi".*

Poemanın sonunda aşağıdakı bəndlər B.Vahabzadənin həyat devizi kimi səslənir:

***Ömrünü ahlarda vermədin bada,***
***Arzu dəryasında bir yelkən oldun.***
***Zaman özgəsini yandıranda da,***
***Alışan o oldu, yanan sən oldun.***
***Ağladın, yayıldı səsin hər yana,***
***Bülbül bağçalarda ötdü, - dedilər.***
***Gələndə, Məhəmməd gəldi cahana,***
***Gedəndə: Füzuli getdi, - dedilər.***

Poemada insan, onun zəka və qüdrətinə sonsuz inam var. Şerdəki sətiraltı mənadan aydın olur ki, əgər həqiqi həyat eşqi ilə yaradırsansa, xalq, Vətən, el üçün yanmağı bacarırsansa, sən əbədi şöhrət qazanmalısan.

B.Vahabzadə müəllim peşəsini həmişə yüksək qiymətləndirib. Şairə görə "Müəllim insan taleyini həll etdiyinə görə, onun işi şərəfli olduğu qədər məsuliyyətlidir. Müəllim ilk növbədə savadlı, mənəvi təmizlik timsalı olmalıdır. Biliksiz

***Bax: Bəxtiyar Vahabzadə. Foto-kitab. Bakı, "Azərbaycan" nəşriyyatı, 1995, səh. 19**

müəllim işıqsız lampa, quruyan bulaq kimidir. Savadsız müəllim olmaq ən böyük cinayətdir. Əsl müəllim öz fənninin vurğunu olmalı, bu sevgini, vurğunluqla yetirmələrinə də aşılamağı bacarmalıdır". Odur ki, B.Vahabzadə müəllim mövzusuna təkcə publisistikasında yox, şer və poemasında da yer verir.

**"Qiymət"** poemasının qəhrəmanı şair-alim müəllifin özüdür. Böyük yaradıcılığı boyu həqiqətin keşiyində dayanan Bəxtiyar öz sənətinin dili ilə bu dəfə də yalan danışmayıb, həqiqəti söyləyir. Əsərdə uzun illər ali məktəblərimizdə təsadüf edilən, az qala fəaliyyətimizin tərkib hissəsinə çevrilən, mahiyyətcə eybəcər bir hal dilə gətirilir. Tapşırıqla tələbəyə qiymət yazmaq; minnətli yaxşılığın törətdiyi fəsadlar...

Bir tanışının etdiyi xahiş şair-müəllimi imtahanın gedişində çıxılmaz hala salır:

***...Müəllim-tələbə... İki sərt baxış***
***Dayanıb ortada müştərək tanış.***

***Salama, xahişə ilişib qələm.***
***Vurur bir yandan da ədalət məni.***
***Düzlük tələb edir məndən vəzifəm,***
***Çəkir əyriliyə vəziyyət məni.***

Yol ayrıcında qalan şair-müəllim istəməsə də, ikincini seçir. Ürəyi, məsləki taxtaya, daşa dəyişir. Nəticədə bilməyən tələbəni yox, öz vicdanını kəsir. Ağır da olsa, bu acı etirafı ilə ortaya çıxır:

***Vicdan,***
***Yazıq vicdan!..***



***Bəzən həyatda***
***Yaşamaq naminə səni əzmişik.***
***Bizdən güclülərin ayağı altda***
***Səni istəmədən qurban kəsmişik.***

Şair-müəllimə görə, inkişaf prosesində şagird ustanı, tələbə müəllimini ötüb keçməlidir. Əgər bu günlər belə neqativ işlərlə məşğul oluruqsa, əlbəttə, biz gələcəyin qurucularını yox, şikəst övladlarını yetişdiririk. Problem olduqca aktual və düşündürücüdür. Çünki əsərin qəhrəmanı hər hansı bədii təxəyyülün məhsulu deyil, müasirimiz, müəllifin özüdür. Başqa əsərlərində olduğu kimi, şair-müəllim burada da əxlaqi qənaətinə sadiq qalır:

***Ucalıq eşqi ilə yaşayanların,***
***Məsləki, düzlükdən od götürməli!***

**Şairin dramaturgiyası.** B.Vahabzadənin pyesləri orta ümumtəhsil məktəblərində ayrıca tədris edilməsə də, müəllimlər şairi həm də görkəmli dramaturq kimi də təqdim etməlidir. Qeyd olunmalıdır ki, B.Vahabzadənin yaradıcılıq uğurlarından biri onun dramaturgiyasıdır. Şairdən yazan müəlliflər onu bu janra üz tutmasını təsadüfi hal yox, hər hansı ehtiyacdan, zərurətdən irəli gəldiyini söyləyirlər. Oxucunun diqqətini cəmiyyətin olduqca aktual mənəvi-psixoloji problemlərinə yönəltmək istəyəndə, çox vaxt şer və poemaların həcmi məhdudluq edir. Belə məqamlarda lirikadan dramaturgiyaya keçid reallaşır. Nəticədə **"Kimdir haqlı?"**, **"Yağışdan sonra"**, **"Yollara iz düşür"**, **"Vicdan"**, **"Dar ağacı"**, **"Fəryad"**, **"Hara gedir bu dünya"**, **"Qızıl alma"**, **"Özümüzü kəsən qılınc"** və s. əsərləri ilə H.Cavid, S.Vur-

ğun ənənələrini layiqli davam etdirərək Azərbaycan dramaturgiyasını xeyli zənginləşdirdi. Şair-dramaturqun fəlsəfi məzmunlu, zəmanəmizin ictimai-siyasi mənzərəsini əks etdirən pyesləri hər dəfə tamaşaçılar tərəfindən rəğbətlə qarşılanır.

**"Kimdir haqlı?"** pyesində dramaturq ailə-məişət mövzusuna müraciət edərək, insan mənəviyyatında gedən psixoloji mübarizələri ictimai-fəlsəfi anlamda araşdırmağa səy göstərir. Bu anlamın özəyində əməl və vicdan durur. Dramaturji-konflikt Arzu və Rəşad surətlərinin bir-birinə qarşılıqlı mənəvi münasibətdə inkişaf edir. Bu inkişaf hər iki qəhrəmanı əsərin kulminasiya nöqtəsində vicdan səsinin mühakiməsinə gətirib çıxarır. Vicdan estetik kateqoriya kimi insanın mənəvi-əxlaqi kamilliyin meyarı hesab edilir.

Mənəvi-əxlaqi təmizlik probleminin həlli müəllifin **"Yağışdan sonra"** pyesində də uğurla davam etdirilir.

Yeri gəlmişkən, onu qeyd edək ki, şair-dramaturq həyatı boyu ancaq vicdanın səsinə qulaq asıb, onu səadətin nur çeşməsi sanmışdır. Odur ki, "Vicdan B.Vahabzadənin dram əsərlərinin əsas qəhrəmanı olub, həm fəlsəfi, həm də publisistik baxımlardan şərh edilir, şair-filosof, şair-publisist həmin əxlaqi-mənəvi kateqoriyanın miqyasını genişləndirir: Fərdin (insanın) Vicdanından cəmiyyətin (millətin) Vicdanına gəlib çıxır".*

**"Dar ağacı"** B.Vahabzadənin tarixi mövzuda yazdığı ilk əsəridir. Pyes 70-ci illərdə yazılsa da, şair 90-cı illərin sonlarında əsəri yenidən işləmişdir. Pyesdə xalqımızın milli-azadlıq və müstəqillik uğrunda ərəb işğalçıları ilə apardığı mübarizəsi ön plana çəkilir. Əsərin qəhrəmanları Babək də, Aqşin də eyni zamanda, eyni mühitdə yaşsalar da, müxtəlif ideoloji cəbhədə dayanırlar. "Cəbhə xətti" Aqşini təkcə öz qardaşından yox, hətta doğma ocağından, doğma xalqından ayrı salıb. Babək xalqının milli azadlıq uğrunda mübarizə aparan qəhrəman, Aqşin isə öz millətinə, Vətəninə xəyanət edən mənəvi ləkədir.

---

***Bax: Cəfərov.N. Bəxtiyar Vahabzadə. Bakı, "Azərbaycan" nəşriyyatı, 1996, səh. 27**



Babək tarixdə mövqeyini, nələrə qadir olduğunu düşmən önündə bir daha təsdiq edir. Dar ağacından asılsa da, ərəblər onun ruhu, teyfi qarşısında sədd çəkə bilmirlər. Əsərdəki bütün hadisələrə bu ölməz ruh və teyfin qəhqəhələri ilə yekun vurulur.

Uzun müddət ərəblərə qulluq edən Aqşin isə bütün hadisələri çılpaqlığı ilə görüb, nəhayət, dar ağacı önündə öz səhvini etiraf edir: "Xahiş edirəm, bu cəlladı dəyişin". Niyə? - sualına o, belə cavab verdi: "Çünki o, ərəbdir. Mən ömrüm boyu siz ərəblərə qulluq, öz millətimə isə xəyanət etmişəm. Buna görə, məni ərəbin asmağa haqqı yoxdur. Məni özümünkü asmalıdır".

Əsərin ifadə etdiyi əxlaqi mahiyyət, tarixi ibrət bundan ibarətdir: millətə xəyanət edənlərin, qənim kəsilənlərin cəzasını millətin özü verməlidir.

B.Vahabzadənin digər tarixi mövzuda yazdığı **"Fəryad"** fəlsəfi pyesidir. Sual olunur: "Fəryad"da əsas fəlsəfi problem nədir? "Əsərdə xalqımızın tarixində ən dramatik məqamlardan biri təsvir olunur: Dünya və gerçəklik iki yerə parçalanıb, həqiqət və saxta dirilik və ehkam, vicdani-mənəvi yaddaş və yaddaşsızlıq üz-üzə durmuşdur" **(Yaşar Qarayev).**

Birinci qütbü xeyir, ikinci qütbü şər qüvvələr təmsil edir. Loğman, I Nəsimi, II Nəsimi, Gənc şair, Rəhman, Dəyanət

və s. obrazların fəlsəfi sosial ədalət fəlsəfəsidir. İnsan ləyaqətinə hörmət, insan qüdrətinə inamı özlərinin ali prinsipi hesab edilən həmin obrazlar, yer üzündə bütün mütərəqqi qüvvələri, saf insanları ədalət adlanan yüksək amal uğrunda mübarizəyə səsləyir. Dəyanətə görə, insanlıq naminə fədakarlıq, fiziki və mənəvi köləliyə qarşı barışmazlıq ən müqəddəs qayədir.

Şər qüvvələri təmsil edən hökmdar Əmir "dünyanın dərdini çəkən axmaqdır", "dünya beş gündür, ye, iç, kef elə" fəlsəfəsi ilə yaşayır. "Onun üçün dünyada eyş-işrətdən, alçaqlıqdan və casusların fitvasını təsdiqləyib, zülm etməkdən, zor gücünə hamıdan yüksəkdə durmağın mümkün olacağına inanmaqdan, bir-birinə uyuşmayan qərəzli hökmlər verib, əzazillik etməkdən başqa bir məqsəd yoxdur" **(Hüseyn Razi).**

Pyesdə tənqid obyekti təkcə hökmdar Əmir deyil. Şair-dramaturq yaltaqlığı yaşayış, "yüksəliş" vasitəsi seçən Zahidə də poetik sillə vurur. Təbiətən çox ziddiyyətli və mürəkkəb xarakterə malik olan bu obraz insana qəsd etməkdən zövq alır. Tanrı və din adı ilə insanı öz "mən"indən uzaqlaşdırıb, azad düşüncəsini boğmağa çalışır. Şəriəti, islamı təmsil edən bu adamın əslində, Allahı, imanı yoxdur. Belə şər qüvvələr müasir dünyada yeni qiyafədə, yeni məzmunda hələ də vardır.

Müasir insan probleminin nəzəri və bədii həllinə nail olmaq üçün şair-dramaturq nə üçün tarixə müraciət etmişdir? Bu suala cavab vermək üçün müəllim şagirdləri akademik Firudin Köçərlinin aşağıdakı açıqlaması ilə tanış edir:

"B.Vahabzadə Nəsimi mövzusuna müraciət etməklə yalnız öz böyük sələfinə dərin hörmətini bildirmək, müasir şerimizin klassik ənənə və irs ilə qırılmaz əlaqəsini nümayiş



etdirmək məqsədini də qarşıya qoymamışdır. Tarixi materiala, Nəsiminin qüdrətli söz və sənət dünyasına, zaman və məkanla məhdudlaşmayan ideyalarına, onun həqiqət, ədalət və insan ləyaqəti uğrunda mübarizədə mərdlik və fədakarlıq rəmzi olan şəxsiyyətinə dramaturq hər şeydən əvvəl zamanın böyük problemlərini fəlsəfi dərinliyi ilə açmaq, insanın varlığının ən mürəkkəb və bu gün də aktual olan məsələlərinə öz münasibətini daha qabarıq və aydın şəkildə bildirmək üçün müraciət etmişdir".*

Nəsiminin yaşadığı dövr, Əmir və Zahidlərin rəzillik dünyası artıq keçmişdə qalmışdır. Lakin Nəsimi və Nəsiminin tərənnüm etdiyi ümumbəşəri ideyalar onların həqiqət, iradə və fikir azadlığı uğrunda mübarizə motivləri bu gün də yaşayır və heç şübhəsiz, bundan sonra da yaşayacaqdır. Çünki Nəsiminin fəlsəfi-estetik konsepsiyasının mərkəzində insan durur. Nə qədər ki, dünya var, insan var, insanlıq uğrunda mübarizə davam edəcəkdir. Odur ki, B.Vahabzadə hürufilik təriqətinin təlqin etdiyi ideyaları ön plana çəkməklə insanın mahiyyəti, insanın mənəvi əxlaqi keyfiyyətləri barədə geniş və ətraflı söhbət açır.

**Şairin publisistik yaradıcılığına bir nəzər.** B.Vahabzadənin poeziya və dram əsərlərində deyə bildiyi və bilmədikləri çox vaxt ən yaxşı ifadəsini publisist yazılarında tapır. Bu baxımdan, publisistika onun yaradıcılığının bir qolunu təşkil edir. Şairin publisist yazıları onun **"Açıq söhbət" (1977), "Vətən ocağının istisi" (1982), "Gəlin, açıq danışaq" (1989), "Şənbə gecəsinə gedən yol" (1991), "Yanan da**

***Bax: Köçərli.F. İnsan qüdrətinə inam. "Azərbaycan gəncləri" qəzeti, 1984-cü il, 12 may**

**mən, yaman da mən" (1995)** və s. kitablarında toplanmışdır.

B.Vahabzadə publisist fəaliyyətə 50-ci illərdən başlasa da, ancaq o, 80-ci, xüsusən də, 90-cı illərdə güclənərək, ictimai-publisist kimi məşhurlaşır. **"Gəlin, açıq danışaq"** kitabında ictimai bəlamızın kökləri açıqlanır, tariximizin araşdırılmamış bir sıra qaranlıq səhifələrinə işıq tutulur. Azərbaycanımızın düşdüyü dəhşətli ekoloji vəziyyət ürək ağrısı, vətəndaş yanğısı ilə ifadə olunur. Respublikanın tarixi, coğrafiyası, etnoqrafiyası ilə səsləşməyən adların dəyişdirilməsi barədə müvafiq təşkilatlar qarşısında məsələ qaldırır. Bir sözlə, ictimai fikri lazımi tərəfə yönəltmək üçün insanların, bütövlükdə respublikanın ən ağrılı problemlərindən daha cəsarətlə söz açılır, qəti mövqe bildirilir.

1990-cı illərin əvvəllərində B.Vahabzadə təkcə Azərbaycanın müstəqilliyi uğrunda mübarizə aparmır, ölkə istiqlaliyyət qazandıqdan sonra da milli mücahid kimi fəaliyyətini davam etdirir. Bu məqsədlə müxtəlif hakimiyyət dövrlərində ayrı-ayrı dövlət, partiya, ictimai-siyasi hərəkət xadimləri ilə polemikaya girir, onlara faydalı nəsihətlər verir, ehtiyac olanda, qarşı tərəfi tənqid və ifşa etməkdən belə çəkinmir.

**"Şənbə gecəsinə gedən yol"**da Moskvanın Azərbaycan xalqına etdiyi təcavüz, düşmənçilik mövqeyi pislənir. Şair bütün xalqı, dövləti "böyük qardaşa" düşmən kimi baxmağa çağırır. Kitabın "Publisistika" bölməsində toplanan **"Vicdan, namus və ləyaqət", "Tarix, dil, ənənə", "Qoşa qanad", "Birliyi əldən verməmək", "Ağrılarımız, dərdlərimiz", "Şənbə gecəsinə gedən yol", "Sabah şənbə idi", "Dərdə dözümlü xalqım", "Ana dili"** və s. məqalələr Vətən tarixinə diqqət, vətən dilinə ehtiram duyğusu ilə yazılıb. Milli kökə, adət-ənənələrimizə min bir tellərlə bağlanan şair oxucunu da bu ruhda kökləyir. Milləti millət edən məsələlər ətrafında düşündürür.



Bu əsərdən sonra B.Vahabzadə publisistikasının ictimai-siyasi kəskinliyi daha da güclənir. **"Yanan da mən, yaman da mən", "Xalqı çörəklə imtahana çəkmək olmaz", "Ədavətə haqqımız varmı?", "Elmimiz nə üçün geri qalır?", "Gəlin, biz də düşünək"** və s. məqalələrdə mövcud sosial, ictimai, mənəvi-əxlaqi problemlər ətrafında düşünmək, həll edilmək üçün yeni məsələlər qaldırılır. Bütün bu deyilənlər B.Vahabzadənin publisist kimi fəaliyyətinin az bir hissəsidir.

**Bir neçə cümlə də şairin elmi yaradıcılığı barədə.** B.Vahabzadənin elmi fəaliyyəti onun yaradıcılığının zənginliyini təsdiq etmək üçün kifayət qədər material verir. Başqa sözlə, şair-alim **"Səməd Vurğun" (1968, 2-ci nəşri 1984) monoqrafiyasının, "Sənətkar və zaman" (1976), "Sadəlikdə böyüklük" (1978), "Dərin qatlara işıq" (1986)** kimi elmi-nəzəri və ədəbi-tənqidi məqalə toplularının da müəllifidir.

B.Vahabzadə Azərbaycan ədəbiyyatının müxtəlif dövr və mərhələlərinə aid araşdırmalar aparsa da, onun fundamental tədqiqat obyekti S.Vurğun olmuşdur. Ədəbiyyatşünas alim **"Səməd Vurğun"** monoqrafiyasında görkəmli şair S.Vurğunun zəngin ədəbi irsi ətraflı tədqiq edilir, onun bədii söz sənətinin rişləndiyi kök və qaynaqlar araşdırılır. Böyük şairin şerlərindəki novatorluğu, fəaliyyətindəki vətənpərvərliyi konkret faktlarla şərh edilir.

Dörd bölmədən ibarət olan **"Dərin qatlara işıq"** kitabı elmi-nəzəri dəyəri, publisist kəsəri, qaldırılan problemlərin aktuallığı ilə diqqəti cəlb edir. **"Gəncəli Nizami", "Yunis İmrə", "Hüseyn Cavid"** və digər yazılarda müasir prob-

lemlərə klassik ədəbi materialların əsasında işıq tutulur. Klassik ədəbi irsə alim-vətəndaş baxışı ilə nəzər salan B.Vahabzadə müasirlərinin də yaradıcılığına həssas münasibət bəsləyir. S.Rüstəmxanlı, C.Novruz, V.Səmədoğlu, Zəlimxan Yaqub və s. kimi şair dostlarının ədəbi uğurlarına sevinir, onların ayrı-ayrı əsər və kitabları barədə öz fikir və münasibətini bildirir.

Gənclərə arzulanan uğurlu yol, kitablarına yazılan ön söz və rəylər də, şair-alimin elmi kitablarının xeyirxahlıq ruhunu, elmi sanbalını artırır.

B.Vahabzadə bədii tərcümə ilə də məşğul olmuşdur. Bu fəaliyyət onun rəngarəng yaradıcılığının əlvan ilmələrindən biridir. O, ingilis şairi Corc Bayronun **"Abidas gəlini"** poemasını, Puşkin və Lermontovun, o cümlədən, keçmiş SSRİ və dünya xalqları ədəbiyyatından bəzi seçmələri ana dilimizdə Azərbaycan oxucularına təqdim etmişdir. Tərcümələr **"Hər çiçəkdən bir ləçək"** (1982) kitabında toplanmışdır.

B.Vahabzadə bir çox görkəmli sənətkarlar, elm və mədəniyyət xadimləri, tarixi şəxsiyyətlərdən söz açdığı kimi, Azərbaycan və dünyanın bir çox şair, yazıçı, alim və musiqiçiləri də şairin bədii yaradıcılığı, elmi, ictimai və siyasi fəaliyyəti barədə dəyərli fikirlər söyləmişlər.

Müəllim həmin kəlamlardan bir neçəsini şagirdlərə çatdırmaqla, şair haqqında onlarda daha dolğun təsəvvür yaratmış olur.

"Şair Bəxtiyarın bəxtiyarlığı onun qibtə ediləcək dərəcədə böyük olan poetik istedadıdır. Bu yaradıcılıq istedadı ona dərin xalq məhəbbəti qazandırmışdır. Onu Vətənin sevimli şairi etmişdir. Belə bir tale səadətdir. Belə bir insan həqiqətən bəxtiyardır. Bu bəxtiyarlıq bir insan, bir vətəndaş, bir nəğməkarın bəxtiyarlığıdır. Mən Bəxtiyarı belə tanımışam, belə duymuşam, belə sevmişəm".

**Rəsul Rza**



"Bəxtiyarı düşünürəm... Əsl istedad sahibi, gözəl şairimizin ilk şerlərindən başlayaraq, onun bütün yaradıcılıq yolu gəlib gözümün önündə durur. Dərin məna, gözəl məntiq, ürək çırpıntıları ilə dolu bədii-fəlsəfi ümumiləşdirmələr Bəxtiyar şerinin özülüdür. Onun hər yeni şerini səbirsizliklə gözləyənlərdən biriyəm. Açığını deyim, şair Bəxtiyar mənə məharətlə mövzu seçən ustad bir rəssamı xatırladır".

**Mikayıl Abdullayev**

"... Bəxtiyar Vahabzadə... Fitri şairlik istedadı sayəsində hələ gənc yaşlarından oxucuları sevməyə başladığı, həmişə diqqətlə izlədiyi və böyük ümid bəslədiyi xoşbəxt sənətkarlardandır... Vahabzadə bu sözün ən yaxşı mənasında narahat şairdir... B.Vahabzadənin qəhrəmanı ilə özü arasında ziddiyyət yoxdur".

**Mehdi Hüseyn**

"Bəxtiyar Vahabzadənin yaradıcılığında mənim xoşuma gələn nədir? Bu suala belə cavab verirəm: ilk növbədə vətəndaşlıq, Azərbaycanlılıq, sonra da cəsarət, dərinlik. Onun respublikamızdan kənarda çap olunan şerlərində imzanın yanında "Azərbaycan" sözünü yazmamaq da olar. Sanki onun bütün yaradıcılığına "Azərbaycan" möhürü vurulmuşdur".

**Süleyman Rüstəm**

"B.Vahabzadənin müşahidə dairəsi, toxunduğu problemlər və düşüncələr axarı çox geniş və vüsətlidir. İnsan qəlbini bir xəritəyə bənzətsək, onun bir çox naməlum guşələrində,

əlçatmaz zirvələrində Bəxtiyar kəlamına məxsus üçrəngli bayraqların sancılmış olduğunu görərik".

**Bəkir Nəbiyev**

"Bir insanın öz xalqını və öz doğma dilini dəlicəsinə sevə bilmək qabiliyyətini mən B.Vahabzadədən öyrəndim".

**Əhməd Şmide**

"Türk ədəbiyyatı üçün Mehmet Akif, Yəhya Kamal, Nəcib Fazil nə isə Azərbaycan ədəbiyyatı üçün də Bəxtiyar Vahabzadə odur... B.Vahabzadə bütün türk dünyasının ortaq səsi, sevən ürəyi, aydınlıq üzü və gözəllik cizgisi, rəmzidir!"

**Yavuz Bülənd Bakilər**

"Başqaları üçün bəlkə də şer mövzusu olmayan mövzular, görüşlər və fikirlər onun şair nəfəsi ilə şerə çevrilə bilir. Bir sözlə, o, şerlə düşünən sənətkardır. Oxucusunu da qələmə aldığı mövzuda özü kimi düşünməyə vadar edə bilir... Bu qüdrətli Azərbaycan şairi türk oxucuları üçün də əzizdir. O, Türkiyədə də sevilir və oxunur".

**Əli Yavuz Akpnar**

"B.Vahabzadə bütün ölkədə tanınan və sevilən bir şairdir. Mən onu həm insan, həm də sənətkar kimi yaxşı tanıyıram. Onun poeziyasında Şərqə məxsus bütün gözəl keyfiyyətlər əksini tapıb. O, xalq şairidir, laureatdır, ən böyük mükafatlara layiq görülüb. Lakin ən böyük mükafatı xalqın sevgisidir".

**Oljas Süleymanov**

"...Həm şair, həm də insan kimi Bəxtiyar müəllimdən mən çox şey öyrənmişəm. Zənnimcə, şairin poeziyası ilə təmasda olan hər kəs bu halı keçirir".

**Rimma Kazakova**



"...Bəxtiyar Vahabzadənin "Bir gəmidə səfərdəyik" kitabındakı yeni şerlər fəlsəfi təfəkkür etibarı ilə seçilir. Onlar planetin taleyi barədə yazıçı narahatçılığını əks etdirir. Həmin əsərlərdə bu günki nitq leksikası ilə ənənəvi aforistik Şərq poeziyası qovuşmuşdur".

**Georgi Markov**

"...B.Vahabzadə sözü ilə əməli bir olan adamdır. Bir insan və şair kimi xarakterinin bu keyfiyyəti təkcə onun kiçik şerlərində deyil, epik əsərlərində, insanları vicdana, igidlik və gözəlliyə çağıran poemalarında da meydana çıxır".

**Yeqor İsayev**

B.Vahabzadənin I-IV siniflərdə **"Əlifba"**, **"Müəllim"**, **"Kitab"**, **"Əlcək"** şerləri tədris edilir. Sinif müəllimi insan həyatında əlifbanın, bütövlükdə kitabların və onu öyrədən müəllimlərin rolu barədə məlumat verir. Qeyd edək ki, "Əlifba bütün elmlərin açarıdır, burada sıralanmış 32 hərfin qüdrətinə minnətdar olmalısınız. Axı, bundan sonra ayrı-ayrı kitabları sərbəst oxuyub, çoxlu biliklər əldə edəcəksiniz. Kitab bilik mənbəyidir, o həyatda sizin ən yaxşı dostunuzdur. Ona görə çoxlu kitab alın, oxuyun. O sizi zənginləşdirəcək. Buna görədir ki, Bəxtiyar kitabı "doğru yol göstərən", "görmək üçün göz verən" vasitə hesab edir. Aqillərdən biri: "Özümdə olan yaxşı cəhətlərə görə bütün kitablara borcluyam" - deyir. Kitablarınızı həmişə təmiz və səliqəli saxlayın.

Müəllim cəmiyyətin etibar etdiyi şəxs olduğundan, B.Vahabzadənin nəzərində və yaradıcılığında ən uca mərtəbə da-

yanır. Şairin öz sözləri ilə desək, "müəllim dünyada ən qiymətli kapital olan insanla işləyir, onun taleyini həll edir". Odur ki, şair ona dərs deyən müəllimləri minnətdarlıqla xatırlayır. "Onlar mənə bir çox bilgilərlə yanaşı, özümə kənardan baxmaq dərsini də öyrətdi", - deyir.

Folklor B.Vahabzadə poeziyasının mayasıdır. Azərbaycan xalqının yaratdığı atalar sözü, məsəllər, nağıllar, bayatılar, tapmacalar və s. janrlar Bəxtiyarın bir şair kimi formalaşmasında müstəsna rol oynamışdır. Xalq yaradıcılığından bəhrələnən şair xalqın ruhundan qopan sözləri deyir, başqa sözlə, xalqdan aldığını xalqın özünə başqa bədii libasda qaytarır. Sizin öyrəndiyiniz **"Əlcək"** şerindəki qışın sərt gələcəyinə aid xalq sınamısının işlədilməsi bu deyilənləri təsdiq edir. Axı, bu cür sınamalar indi də tərbiyəvi əhəmiyyətini itirməmişdir. Bütün bunlarla yanaşı, şair xalq tətbiqi sənətinə də hörmətlə yanaşır, onu bu günlər yaşadanları şerinin qəhrəmanı edir.

Əlbəttə, sinif müəllimi bütün bu deyilənləri nisbətən sadələşdirilmiş şəkildə, şagirdlərin başa düşəcəyi tərzdə onlara çatdırır.

V sinifdə B.Vahabzadənin **"Şəhidlər"** şeri tədris edilir. Müəllim giriş sözündə qeyd edir ki, 1980-ci illərin sonu, 1990-cı illərin əvvəli tarixin zaman kəsiyində Azərbaycanımız üçün ən gərgin, ən ağır məqamlar idi. Belə ki, bir tərəfdən Ermənistanın Azərbaycana elan etdiyi müharibə milləti, xalqı çətin vəziyyətə salmışdır. Bu ağır günlərdə xalqının yanında olan Bəxtiyarın poeziyası da xalqla birgə nəfəs alaraq, onun dərdlərinin tərcümanı olmuşdur. O illərdə şairin poeziyası xalqımızın qaçqın, didərgin taleyi, daha sonra Qara Yanvarla bağlı göynərtiləri ilə səciyyəvi idi. Öz təcavüzkar və işğalçı yürüşləri ilə Azərbaycan xalqının tarixində qara ləkə qalan rus imperiyası 1990-cı ilin yanvarın 20-nə keçən gecə növbəti xəyanətini etdi. Yüzlərlə silahsız, günahsız insanları qətlə yetirdi. Ən dəhşətlisi o idi ki, bu dəfə qırmızı ordunu Rusiyanın müxtəlif bölgələrindən göndərilən cəza dəstələri, qisas briqadası müşayiət edirdi. Bu təcavüzə ona görə xəyanət deyirik ki, uzun illər qırmızı ordu özünü xalqa xilaskar, ədalətin timsalı, sülhün tərəfdarı kimi tanıtmağa çalışırdı. Bir də sinəsi qızıl gülləyə tuş gələnlər heç vaxt bilməyəcəklər ki, onlar niyə öldürüldülər.



Qara Yanvar sözün həqiqi mənasında faciədir. Axı, o gecə iki ordu üz-üzə gəlməmişdi. Qarşı tərəf - qanına qəltan olan kimlər idi? Kiçik yaşlı məktəbli Larisa, tələbə Ələkbər, Baba müəllim, ağbirçək Süreyyə nənə, həkim A.Marxevka və başqaları millətin mənzərəsi, yaş tərkibi müxtəlif olsa da, onların taleyi bir idi. Hamısı Vətənin şəhid övladlarıdır.

O qara şənbə gecəsində "Üçrəngli bayrağı öz qanları ilə Vətən göylərinə çəkən" şəhidlərin şücayətinə şair heyran idi. Çünki:

*O şənbə gecəsi, o qətl günü,*
*Mümkünə döndərdik çox namümkünü,*
*Xalqın qəlbindəki qorxu, hürkünü,*
*O gecə dağıdıb sökdü şəhidlər.*

B.Vahabzadə Qanlı Yanvar hadisələri haqqında konkret obrazlı - emosional təəssüratın yaradılması üçün öncə "Şəhidlər" şerini yazdı. Şer Bakı faciəsinin dəhşətli hadisələrini canlandırmaqla yanaşı, xalqın ruhi-mənəvi oyanışını bütün əzəməti ilə əks etdirdi. Buna görədir ki, şer ədəbi yaradıcılıq nümunəsindən çox, tarixi-bədii sənətdir. V sinfin dərslik kitabının müəllifləri haqlı olaraq yazırlar ki, **"Şəhidlər"**i

oxuyarkən hər sözə, hər misraya, hər bəndə diqqətli olun.

***Tarixi yaşadır diləyimizdə***
***Bir yumruğa döndük o gecə biz də,***
***Yıxıb kökəliyi ürəyimizdə,***
***Cəsarət mülkünü tikdi şəhidlər.***

Əsarətdən, tapdaqdan vəcdə gələn xalq o gecə birlik nümayiş etdirdi. Şərəf və ləyaqəti hər şeydən uca tutaraq kölə həyatına, qul psixologiyasına üsyan etdi. "Dünyada böyük işlərin hamısı cəsarət sayəsində görüldüyündən" **(Smayls)** şəhidlər könüllərdə cəsarət mülkü tikdilər. Başqa sözlə, cəsarətin təcəssüm və ifadə forması olan qəhrəmanlıq və igidlik göstərdilər.

***Onlar susdurulan haqqı dindirər,***
***Qaraca torpağı qiymətləndirər,***
***Donan vicdanları qeyrətləndirər,***
***Axı, el qeyrəti çəkdi şəhidlər.***

El qeyrəti, torpaq qeyrəti çəkən insanlar ölümün şəhidlik zirvəsinə ucala bilər. Ancaq bu yüksəklikdə qərar tutanlar öz isti qanı ilə donan vicdanlara hərarət, qeyrət gətirər. Üstünə örtük çəkilib susdurulan həqiqətləri heç kəsdən qorxmayıb, ölümün ağuşuna atılanlar dindirə bilər.

***Bilirik, bu bəla nə ilkdi, nə son,***
***Ölürkən uğrunda bu ana yurdun,***
***Quzu cildindəki o qoca qurdun,***
***Doğru, düz şəklini çəkdi şəhidlər.***



Müəllim bəndi izah edərkən, öncə birinci misradakı "Bilirik, bu bəla nə ilkdi" işarəsini açır. Qeyd edir ki, Qara Yanvar hadisəsi rus imperiyasının ilk bəlası deyil, onlar XIX əsrdə və XX əsrin əvvəllərində bir neçə dəfə Azərbaycana təcavüz etmişdir. Bu məqsədlə müəllim şagirdlərə xalqımızın qeyrətli oğulları Cavad xana, İbrahim xana edilən xəyanəti, 1813-cü, 1828-ci və 1920-ci illərdəki işğalları xatırladır. "Nə son" deyəndə, müəllim şairin güclü intuisiyaya malik olduğunu qeyd edir. Qara Yanvardan sonra Xocalı faciəsi və torpaqlarımızın dörddə birinin işğal olunmasında erməni daşnakları ilə yanaşı, rusların da rolu bu proqnozu bir daha təsdiq etdi.

Özünü xalqımızın böyük qardaşı kimi qələmə verən, ancaq quzu cildinə girib, qanlar tökən qarı düşmənin maskasını şəhidlər yırtdı və onların əsl mahiyyətini açıb, kim olduqlarını xalqına tanıtdırdı.

Şair tarixi təcrübə və öz müşahidələrinin əsasında gəldiyi poetik-əxlaqi qənaəti belə ifadə edir:

***İnsan insan olur öz hünəriylə,***
***Millət millət olur xeyri, şəriylə,***
***Torpağın bağrına cəsədləriylə,***
***Azadlıq toxumu əkdi şəhidlər.***

Bu hikmətin işığında şair daha inamlıdır. Şəhid cəsədləriylə torpağa səpilən azadlıq toxumları tezliklə göyərəcəkdir. Xalqımızın azadlıq, milli-istiqlal günü çox uzaqda deyil. Şükürlər olsun ki, bu belə də oldu. Məlum olduğu kimi, 18 oktyabr 1991-ci ildə **"Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi haqqında Konstitusiya Aktı"** ilə Azərbaycan Respublikası özünün dövlət müstəqilliyini elan etdi.

Daha sonra müəllim qeyd edir ki, B.Vahabzadə 20 yanvar hadisələri haqqında daha geniş əhatəli təsəvvür yaratmaq üçün bir az sonra **"Şəhidlər"** poemasını yazdı. Şəhidlər Xiyabanı indi xalqımızın ziyarət və qürur yeridir. Hər gün oraya minlərlə insan gəlir. Biz şəhidlərimizin ziyarətinə tam alnıaçıq, üzü ağ onda gedə bilərik ki, Vətən qarşısında buraxdığımız səhvləri bir daha təkrarlamayıb, əsir torpaqlarımızı tezliklə azad edək.

VI sinifdə B.Vahabzadənin **"Bayraq"** şeri tədris edilir. Şagirdlərə izah edilməlidir ki, üçrəngli, aypara və səkkizguşə ulduzlu milli bayrağımızın, cəmiyyətimizdə, dövlətçiliyimizdə tutduğu yeri ölkə vətəndaşlarına izah etmək, o cümlədən, gənc nəsildə milli bayrağa sevgi və məhəbbət, hörmət və qayğı hisslərini daha yaxşı aşılamaq üçün şair "Bayraq" şerini yazmışdır. Qeyd edilir ki, Dövlət Bayrağı Azərbaycan Respublikasının Dövlət atributlarından və Dövlətçilik rəmzlərindən biridir. Azərbaycanın üçrəngli bayrağı millətimizin, dövlətimizin əbədilik və yenilməzliyinin rəmzidir. "Azərbaycan Bayrağı - Azərbaycan vətəndaşlarının namus və qeyrət emblemi olub, dövlətimizin mənəvi-siyasi pasportu, vizit vərəqidir. Qabaqcıl müəllimlərin təcrübəsi göstərir ki, "Bayraq" şerinin ideya və məzmununu şagirdlərə daha yaxşı başa salmaq üçün öncə bayraq sözünün mənşə və tarixini bilmək gərəkdir. Bu məqsədlə müəllim şagirdlərə izah edir ki, "Xalis Azərbaycan sözü olan Bayraq - ümumtürk mənşəlidir və tarixi çox qədimdir. Bu söz türkologiya elminin bahadırı sayılan Mahmud Kaşğarlının məşhur "Divani-Lüğəti-Türk" (XI əsr) əsərində müasir dilimizdəki mənada və bayrak // Bayraq fonetik variantlarında (formalarında) qeydə alınmışdır.

Bayraq sözü istər qədim, istərsə də, müasir türk dillərinin



əksəriyyətində, əsasən, eyni mənadadır. Araşdırıcıların fikrincə, həmin söz "Batirak - Batrak - Bayrak" semantik-struktur təkamül modeli əsasında Batır - ("batırmaq", "sancmaq") felindən **(müqayisə et: müasir türk dilində Bayraq sözü ilə yanaşı, Sancaq sözü də işlədilir ki, o da "sancmaq" felindən yaranıb)** törəmişdir...

BAYRAQ müasir anlamda dövlətçilik termini olaraq dövlətimizin, millətimizin müstəqillik, suverenlik, azadlıq, istiqlal rəmzi, simvolu funksiyasında işlənməkdədir".*

Bayraqdan danışarkən şair nə üçün tarixi yada salır? - sualına cavab vermək üçün müəllim bayrağımızın tarixindən aşağıdakı bilgiləri şagirdlərə çatdırır.

Tarixdən məlumdur ki, 1918-ci il mayın 28-də Azərbaycanın Milli Şurası Tiflisdə Azərbaycanın İstiqlal Bəyannaməsini qəbul edərək, onun müstəqilliyini dünyaya bəyan etdi...

Azərbaycan Xalq Cümhuriyyətinin ilk milli hökuməti və Milli Şurası 1918-ci il iyunun 16-da Gəncəyə gəldi. Gəncə dövrünü ilk günlərində milli dövlətçiliyimiz üçün çox əhəmiyyətli bir sıra qərarlar, o cümlədən, Azərbaycan Xalq Cümhuriyyətinin Dövlət Bayrağının təsdiq edilməsi (24 iyun) haqqında qərar qəbul etdi. Üzərində ağ rəngli aypara və səkkizguşəli ulduz təsvir olan qırmızı rəngli bayraq Azərbaycan Xalq Cümhuriyyətinin dövlət bayrağı kimi qəbul edildi.

Şagirdlərdə tarixi həqiqət haqqında düzgün təsəvvür formalaşdırmaq və 1918-ci ildə altı ay ərzində qəbul edilmiş iki ayrı-ayrı dövlət bayrağının mahiyyətini düzgün izah etmək üçün müəllim tarixə üz tutub, faktların işığında məsələyə ay-

---

***Bax: Quliyev.Ə. Azərbaycan Respublikasının Dövlət Bayrağı. "Azərbaycan Müəllimi" qəzeti, 16 iyul, 1998-ci il**

dınlıq gətirir.

İzah edir ki, 1918-ci il 24 iyunda qəbul edilmiş bayraq III Sultan Səlimin dövründəki Osmanlı imperatorluğunun əski bayrağı idi. Tarixdən o da məlumdur ki, yalnız ayparadan ibarət qırmızı Osmanlı bayrağına III Sultan Səlimin dövründə səkkizguşəli ulduz əlavə edilmişdir. XIX əsrin ortalarında Sultan Əbdülməcidin hakimiyyətinin son illərində səkkizguşəli ulduz beşguşəli ilə əvəz edildi və bugünkü Türkiyə Cümhuriyyətinin milli bayrağı həmin dövrdən mövcuddur.

1918-ci il sentyabrın 15-də Bakı Qafqaz İslam Ordusunun köməyi ilə düşmənlərdən azad olur, üç gün sonra Azərbaycan hökuməti Gəncədən Bakıya köçür. Bakı Azərbaycan Xalq Cümhuriyyətinin paytaxtı elan edilir. Bu hadisədən təxminən iki ay sonra 24 iyunda qəbul edilmiş bayraqdan imtina edilir. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası 1918-ci il noyabrın 9-da hökumətin başçısı Fətəli Xan Xoyskinin məruzəsi əsasında Azərbaycan yeni üçrəngli - mavi, qırmızı, yaşıl zolaqlardan ibarət və üzərində ağrəngli aypara və səkkizguşəli ulduz təsviri olan milli bayrağının təsdiq edilməsi haqqında qərar qəbul edir."*

Deməli, 9 noyabr üçrəngli milli bayrağımızın yaranması günüdür. Daha sonra "Bir kərə yüksələn bayraq bir daha enməz" kəlamı barədə nə bilirsiniz? Bu fikri kim söyləmişdir? - sualına cavab olaraq müəllim şagirdləri Azərbaycan Milli Şurasının sədri M.Ə.Rəsulzadənin 7 dekabr 1918-ci ildə Şərqdə ilk Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin açılışı zamanı üçrəngli milli bayrağımıza xitabən söylədiyi nitqdən aşağıdakı parça ilə tanış edir. Dahi öndər demişdi:

***Bu haqda bax: Fətəli Xan Xoyski. Həyat və fəaliyyəti (sənədlər və materiallar), Bakı, "Azərbaycan" nəşriyyatı, 1998, səh. 32**



"...Müstəqil Azərbaycanı təmsil edən o üç boyalı bayrağı şurayi-milli qaldırmış türk hürriyyəti, islam mədəniyyəti və müasir Avropa iqtisadi - Əhraranəsini **(demokratiyasını - F.X.)** təmsil edən bu üç boyalı bayraq daima başımızın üstündə ehtizaz edəcəkdir. Bir dəfə qaldırılmış bayraq bir daha enməyəcəkdir"*

Çox təəssüf ki, Azərbaycan Demokratik Respublikası cəmi 23 ay yaşadı, 1920-ci il aprelin 28-də Sovet Rusiyasının XI Qızıl Ordusu Azərbaycanı tamamilə işğal etdi. Nəticədə Azərbaycan Xalq Cümhuriyyəti devrildi. 5 gün ondan sonra, yəni 1920-ci il mayın 3-də üçrəngli milli bayrağımız Azərbaycan Parlamentinin binası üzərindən endirildi. Doğrudur, milli bayrağımız Azərbaycanın başı üstündən zorla endirilsə də, bu müqəddəs ideyalı azadlığın, müstəqilliyin nə olduğunu anlayan xalqın ürəyindən endirmək mümkün olmadı. Böyük öndər M.Ə.Rəsulzadə Milli bayrağımızın müstəqil Azərbaycanın səmasında dalğalanacağına inanır və bunu uzaqgörənliklə yazırdı: "Ey gənclik! Sənin öhdəndə böyük vəzifə var. Səndən əvvəlki nəsil yoxdan bir bayraq, müqəddəs bir ideal rəmzi yaratdı, onu min müşkülatla yüksəldərək dedi ki, "Bir kərə yüksələn bayraq bir daha enməz!"

Əlbəttə ki, sən onun ümidini qırmayacağını, bu gün parlament binası üzərindən azərilərin yanıq ürəklərinə endirilmiş bu bayrağı təkrar o bina üzərinə dikəcək və bu yolda ya qazi, ya şəhid olacaqsan!"

70 il sonra olsa da, tarix böyük öndər M.Ə.Rəsulzadənin gələcəyə nikbin inamının doğruluğunu sübut etdi. Belə ki, 1990-cı il noyabrın 17-də Naxçıvanda XX əsrin böyük siya-

***Bax: Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920). Parlament (Stenoqrafik hesabatlar), Bakı, "Azərbaycan" nəşriyyatı, 1988, I cild, səh. 34**

sətçisi və görkəmli dövlət xadimi, ümumilli liderimiz Heydər Əliyevin təşəbbüs və rəhbərliyi ilə üçrəngli milli bayrağımız yenidən Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı kimi qəbul edilərək yüksəkliklərə qaldırıldı.

Bu hadisədən təxminən üç ay sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsadəti və tələbi ilə 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Soveti "Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında Azərbaycan Respublikasının Qanunu"nu qəbul etdi. Bu Konstitusiya qanunu ilə üçrəngli milli bayrağımız Azərbaycan Respublikasının Dövlət Bayrağı kimi təsdiq edildi.

1992-ci il martın 2-dən Birləşmiş Millətlər Təşkilatının Nyu-Yorkdakı iqamətgahının qarşısında dünyanın 180-dən artıq müstəqil dövlətinin bayraqları ilə bir sırada Azərbaycan Bayrağının da dalğalanması müstəqil dövlət kimi varlığımızı bir daha təsdiq edir.

Təcrübə göstərir ki, bu deyilən məzmun və istiqamətdə məlumat verməklə, müəllim milli bayrağımızın tarixi, onun rəng palitrasının və üzərindəki digər simvolların məna və funksiyaları barədə şagirdlərin bilik dairəsinin xeyli zənginləşdirir.

VII sinifdə şairin **"Azərbaycan"** şeri tədris edilir. Əsərdə B.Vahabzadənin Vətənə sonsuz məhəbbəti haqqında ətraflı məlumat vermək üçün müəllim qeyd edir ki, B.Vahabzadə sadəcə nəsihətçi şair deyil, o, həm də sözün həqiqi mənasında icraçıdır. Belə ki, şair dediklərinə birinci özü əməl edir, başqalarına göstərdiyi yolla birinci özü gedir. Azərbaycan əli qələm tutan sənət əhlinin müraciət etdiyi mövzu olsa da, bu proses Bəxtiyarın əməli fəaliyyətində, yaradıcılığında nisbətən fərqli formada özünü göstərir. Şair-publisist M.Aslanın sözləri ilə desək, "O, sanki bütün şablon "Vətən" şerinin üsü-



tündən qara bir xətt çəkmək üçün əlinə qələm almışdır".

Azərbaycan təkcə şairin dünyaya göz açdığı məkan deyil, Azərbaycan həm də şairlərin özü, sözü üçün işıq mənbəyi, and yeridir. Onun ilhamına qüvvət verən ulu bir diyardır. "Bu torpaqdan yarandım, bu torpağa borcluyam" - deyən şair bir an da olsun, yüksək vətəndaşlıq məsuliyyətini unutmur. Vətənə borcunu onu sevməkdən çox, onun uğrunda böyük hünərlər göstərməkdən ibarət bilir.

***O bizi yaradan,***
***Biz ona bəndə,***
***Yaradan uğrunda ölməyə gəldik.***

Fikir verin, Azərbaycan, onu yaradan Allah kimi tərənnüm olunur. Şairin gərgin olduğu qədər şərəfli həyat yoluna bələd olan hər bir oxucu bu sözləri səmimi qəbul edir. Hamı inanır ki, Bəxtiyar və onun kimi şairlər Vətənə baxış və istəyini ancaq bu cür ifadə edə bilər:

***Azərbaycan mənim eşqim,***
***Mənim andım, mənim anam,***
***Biz ikimiz bir torpağıq,***
***Mən də sənin bir parçanam.***

Şairə görə, Vətəni sevmək azdır, ona vurulmaq gərəkdir. "Əgər vurğun olmasaydım, Vətənimin naminə nəğmələrimi qoşa bilməzdim", - deyir. Şair hər zaman, hər yerdə Azərbaycanla onun oğlu olması ilə fəxr edir. Önəmli tərəf odur ki, bu sevginin bütün vətəndaşlara da təlqin edir. Müəllim B.Vahabzadənin Azərbaycana vurğunluğunu şagirdlərə əyaniləşdirmək üçün xalq şairi Süleyman Rüstəmin aşağıdakı məşhur kəlamını dilə gətirir: "Bəxtiyar Vahabzadənin yaradıcılığında mənim xoşuma gələn nədir? Bu suala belə cavab

verərəm: ilk növbədə vətəndaşlıq, azərbaycanlılıq, sonra da cəsarət, dərinlik. Onun respublikamızdan kənarda çap olunan şerlərində imzasının yanında "Azərbaycan" sözünü yazmamaq da olar. Sanki onun bütün yaradıcılığında "Azərbaycan" möhürü vurulmuşdur".

B.Vahabzadə poeziyasında duymaq, duydurmaq, anlatmaq keyfiyyəti var. "Vətən əbədidir, gedəriyik biz" - deyəndə, bir daha diqqətə çatdırırıq ki, "Gəlimli-gedimli qoca dünya" var, ancaq gəlimli-gedimli Vətən yoxdur. Vətən əcdadımız, hazırda özümüz və gələcək nəsillər üçün yurd, ana qoynudur. Hər bir vətəndaş bu ananı qanı bahasına da olsa, varlıq və şöhrətini qoruyub sağ-salamat gələcək nəsillərə təhvil verməlidir.

IX sinifdə şairin **"Latın dili"** şeri öyrədilir. Müəllim şerin izahına keçməmişdən öncə Azərbaycan dilinin tarixi taleyindən bəzi məqamları şagirdlərin nəzərinə çatdırır. Qeyd edilir ki, keçmiş Azərbaycan SSR-də dövlət dili Azərbaycan dili hesab edilsə də, uzun illər kadr seçkisində əsas meydan istedad, bilik, bacarıq yox, rus dili olmuşdur. Çünki bir çox idarə və təşkilatlarda danışıq, sənədləşdirmə işləri rus dilində aparılırdı. Çünki surətdə rus dilinə belə üstünlüyün verilməsi əhali arasında rus dilində təhsilə meyli gücləndirirdi. Bu proses Moskvanın yerlərdəki havadarları 50-60-cı illərdə daha da surətləndirir. İş o yerə çatmışdı ki, nəinki idarə və təşkilatlarda hətta Bakı, Gəncə, Sumqayıt və başqa şəhərlərində minlərlə azərbaycanlılar ailədə rus dilində danışırdı. Ana dilinin belə misgin vəziyyətə düşməsi əlbəttə, qeyrətli ziyalı kimi şair Bəxtiyarı narahat etməyə bilməzdi. Şairin yaradıcılığında dil sevgisi mühüm yer tutur. Dil sevgisi! Bu sevgidə milli qürur da var, qayğı da, narahat bir şair harayı da. Çünki dil zaman-zaman ən çox zərbə dəyən, təcavüzə



məruz qalan milli varlığımız olub.

B.Vahabzadənin həyatı boyu fəal mübarizəliyinin bir qolunu ana dili uğrundakı fədakarlığı təşkil edir. Şair əsrlərlə başı bəlalar çəkən ana dilimizin XX əsrdə də təqib və təcavüzə məruz qalmasına dözə bilmir. Dilimizə ögey münasibətin şiddətlənməsi, başqa sözlə, "öz güllƏmizlə özgənin dilinə ov olması", "öz sacında qovrulması" şairin milli qüruruna toxunur. Odur ki, ana dilinin "vətəndaşlıq hüquqlarını" qorumaq üçün poetik və leksik imkanlarını genişləndirmək üçün əməli mübarizəyə qoşulur. O, ilk növbədə millətin çörəyini yeyib, dilinə xor baxanların səhv yolda olduqlarını diqqətə çatdırırdı. Anladırdı ki, ana dili əcdadımızın bizə qoyub getdiyi ən qiymətli mirasdır. Bu xəzinəni itirsək, gələcəyə əliboş gedərik. Ana dili bizim varlığımız, canımızdır. Bu günlər biz onu dəfn ediriksə, demək, dünənimizdən, sabahımızdan məhrum oluruq.

Şair hiss və düşüncələrə tez çatsın deyə, ana dilinin sehrini, onun güc və qüdrətini poeziyanın ecazkar dili ilə səsləndirirdi:

***Hər ulusun***
***Ən qiymətli sərvətidir ana dili.***
***Övladları yer üzünə səpələnsə,***
***Pərən-pərən düşmənlərin***
***Vətənidir ana dili.***
***Bu dünyanın***
***Hansı uzaq bucağında səslənərsə,***
***O bucağı mənim üçün***
***əzizlədən ana dilim,***
***Qürbəti də Vətən edən ana dilim!***
***Sözlərinin nəğməsində***

*Ruhumuzu cingildədən ana dilim!*
*Məni ana Vətənimin*
*Bütün oğul-qızlarıyla*
*Qohum edən ana dilim!*
*Sən gözlərə görünməyən*
*Bir telsən ki,*
*Yol açmısan keçmişimdən gələcəyə.*
*Ana yurdun öz ruhunu*
*Keçirirsən -*
*Bu nəsildən o nəsilə*
*Bu ürəkdən o ürəyə*
*Öz dərdimi, sevincimi*
*Dodağında çağladanım,*
*Məni ana vətənimə*
*Bu günümü*
*Sabahıma, dünənimə*
*bağladanım!*

Milli ruhlu belə çıxışlarına görə şairi dəstəkləmək əvəzinə, onu bəzi qüvvələr millətçi damğası ilə ləkələməyə çalışırdı. Bəzi qətiyyətli, ittihamedici çıxışları Bəxtiyarı həbsxana qapılarına bir addım da yaxınlaşdırırdı. Ancaq hər cür təhdidlər və ideoloji təqiblər onu öz yolundan döndərə bilmədi. Belə təhlükələrdən sovuşub, mübarizəsini davam etdirmək üçün şair bəzi xüsusi fəndlər, bədii manevralar edərək, mövzunun məkanına tənqid obyektini dəyişdirirdi. Məsələn, 1967-ci ilin aprelində səfər təəssüratı əsasında yazdığı **"Latın dili"** şeri özgələrinin fitvasıyla doğma dilini daxmalar küncünə sıxanlara sözünü demək üçün şair əlinə girəvə verir.

Müəllim şerin ideya-məzmununu daha yaxşı mənimsət-



mək üçün hazırda milləti, vətəni olmayan latın dili haqqında aşağıdakı məzmunda qısa məlumat verir.

Latın dili Hind-Avropa dillərinin italik dilləri qrupuna daxildir. Bu dil bir neçə inkişaf yolu keçərək, Mərkəzi və Cənubi İtaliyada yayılmışdır. Tədqiqatçılar latın dilinin son dövrünü 200-800-cü illərə təsadüf etdiyini söyləyir. Bu dövrdə latın dili canlı dil rolunu itirmiş, xalq danışıq dili əsasında roman dillərinin yaranması başa çatmışdır. XVI əsrdən Latın dilindən elmi terminologiyada istifadə edilir.*

Hind Avropa dilləri qrupuna daxil olan latın falisk, umbr dilləri, ölü dil hesab edilir. Çünki bu günlər o dillərdə danışan milləti yoxdur.

Müəllim şagirdlərə izah edir ki, **"Latın dili"** şerində şair üzünü adsız, ünvansız bir natiqə tutsa da, əslində, tənqid özümüzük. Şairin dediyi kimi, doğma dilini "möhürlü, hüquqlu idarələrdən daxmalar küncünə qovan"lardır:

*Söylə, necə azadsan ki,*
*Komalarda dusta qolub*
*ana dilin?*
*Böyük-böyük məclislərdən*
*İtirilib ilim-ilim?*
*İclaslarda, bir kəlməsi sözü yoxdur.*
*Bəlkə... onun böyük, rəsmi məclislərə*
*Çıxmaq üçün üzü yoxdur?*
*Söylə, bəlkə - bic doğulub,*
*Atasından yox xəbəri?*
*Bəlkə bu dil çox kasıbdır,*

***Bax: Azərbaycan Sovet Eksiklopediyası. VI cild, Bakı, 1982, səh.169**

*Qucağına sığışmayır*
*Əsrin böyük fikirləri?..*
**- *Sən dərdə bax,***
***Vətən də var,***
***Millət də var,***
***Ancaq onun dili yoxdur.***
***Elə bil ki,***
***Gücgü kimi, hamar, şəffaf royalı var,***
***dili yoxdur...***

Şair dilimizi latınla müqayisə etməklə, o illər Azərbaycan dilinin aqibətinin daha pis olmasını deyirdi. Ana dilimiz üçün yaranmış təhlükəni Bəxtiyar və onun kimi digər qeyrətli ziyalılarımız vaxtında görüb xalqına xəbərdarlıq etməsəydi, əlbəttə, Azərbaycan dilinin gələcək taleyi uğursuz olacaqdı. Şükürlər olsun ki, Azərbaycanımız müstəqillik qazandıqdan sonra onun dilinin hüquqları özünə qaytarıldı. İndi hadisələr əksinə cərəyan edir. Azərbaycan dilini bilməyənlər rəhbər vəzifələrə çəkilmir. Bu dilimizə qoyulan ən böyük qiymət və hörmətdir.

Mərhum prezident Heydər Əliyevin dəfələrlə Azərbaycan dilin pis bilən rəhbər şəxsləri tənbeh edib, öyrənmək üçün onlara qısa vaxt verməsi deyilənlərin bir daha təsdiqidir. İndi Azərbaycan dilinin səsi nəinki respublikada, hətta dünyanın ən nüfuzlu təşkilatlarından, məclislərindən gəlir.

XI sinifdə şairin **"İki qorxu"** poeması tədris edilir. Əsərin tədrisi prosesində müəllim aşağıdakı materialdan istifadə edə bilər.

Aqillər, düha sahibləri qorxunun insan həyatında törətdiyi fəsadlardan çox yazıblar. Qorxu insanlarda inamsızlıq, mütilik psixologiyası yaradır. İllah da zülm, işgəncə, təzyiq insan



həyatına təhlükədən dönüb ictimai qorxuya çevrilə. İctimai qorxu ayrı-ayrı şəxsləri deyil, bütöv bir cəmiyyəti əhatə edir. Necə ki, ötən əsrin 30-50-ci illərində SSRİ adlı məkanda olduğu kimi. Tədqiqatçılar haqlı olaraq yazırlar ki, "50-ci illərin əvvəllərində baş qəhrəman Qorxu idi". B.Vahabzadə ol illərdən xeyli sonralar, yəni 1989-cu illdə şair B.Vahabzadə mərhum bəstəkar Qənbər Hüseynlinin xatirəsinə yazdığı **"İki qorxu"** poemasında Qorxunun klassik obrazını yaratmaqla, onun insanı necə şikəst etməsindən söhbət edir. Poema poetik emosiyadan yox, daxili mənəvi ehtiyacdan yaranıb. Çünki bir zamanlar o hiss, həyəcan və təşvişi şairin özü keçirib. Görün, iş o yerə çatıbmış ki, despot Stalin haqqında bir-iki söz deyən iki dost - bəstəkar və şair gecəni səhərə qədər yata bilmir: birdən dostu onu satar? Bu inamsızlıq haradan idi? Qorxu şüurlu insanları kütləyə çevirmişdi. Satqınlıq o illərdə adi hal idi. Şair demişkən: "Dədəsini satan az olmamışdı". İnamsızlıq, güman - şübhə baş alıb gedirdi. İnsanlar dövlət nəzarəti orqanlarından çox bir-birlərindən: qardaş-qardaşdan, qaynana-gəlindən, ata oğuldan çəkinirdi. Yerlərdə satqınlıq və xəyanətin məcmusu despotun insanlığa vurduğu ağır zərbələrin sayını artırırdı. Despotizm mexanizminin yaradıcısı Stalin və onun yerlərdəki qolubəyləri xalqın qeyrətini, ləyaqətini qoruyan, kişiliyin xarakterini saxlayan adamları sındırdılar. "Yalanı üzlərdə gülüşə döndərən" bir cəmiyyətdə haqq, ədalət tapdandı, əvəzində yalan baş qaldırdı. Bayağı tərənnümçülük, məddahlıq məktəblərdə inşa yazılarımızın mövzusu, sənət əsərlərinin obyekti oldu. "SSRİ sülhün dayağıdır", "SSRİ mənim vətənimdir" - sənətdə bu məhəbbət yeknəsəkliyi, bu şablon, bu trafaret repressiya və istibdad illərinin məhsuludur. Vətən və xalq məhəbbəti kimi təbii insani hisslərdən, bəşəri sərvətimizdən gü-

nahsız qanları ört-basdır etmək üçün istifadə edirdilər.

Stalin və onun partiyası bu əzəli və əbədi məhəbbət qaynağını da sosialist humanizmi (?) deyilən hisslər, duyğular həbsxanasına salmışdı. İnsanlar yalnız onların iradəsi ilə kiminsə, nəyi isə sevə bilərdilər. Daha konkret desək, sovet adamları bu geniş dünyada ancaq bu sovet vətənini sevməlidirlər. Çünki bu vətən dünyada ən ədalətli, ən azad ölkədir. Ona görə azaddır ki, Stalin və onun partiyası bu ölkənin heç bir vətəndaşını həyatın işığından məhrum etmir. Sibir sürgününə göndərilmir. Onlar özlərinin qanlı, qara əməllərinə vətən və xalq məhəbbətindən belədə don geydirdikləri üçün tarixdə misli görünməmiş zülm aparatını yaratmağa nail olmuşdular"*.

Bununla da:

***Səhrada göyərən bir qanqal təki***
***Bizim içimizdə kök atdı qorxu.***
***Yalanla həqiqət arasındakı***
***Halal sərhədləri dağıtdı qorxu.***

***Boğub həqiqəti yalan öyündü,***
***Əsl mənasını itirdi söz də,***
***Yalan üzümüzdə gülüşə döndü,***
***Həqiqət ağladı ürəyimizdə.***

Bütün pisliklərin başı yalana bağlıdır. Yalanla idarə olunan cəmiyyətdə pak insanlar da yalan danışmağı öyrənir. Nəticədə əxlaqsız siyasət əxlaqsız cəmiyyəti yaratmış olur.

*** Bax: Azərbaycanın Bəxtiyarı. "Azərbaycan" nəşriyyatı. Bakı, 1995, səh. 292.**



Qorxuya geniş prizmadan baxan şair onun törətdiyi faciələrini əsərinin predmetinə çevirə bilmişdir. Qorxu iliyə, sümüyə işləyəndə, bəzən şair də susarmış, nəinki susmaq, hətta "dünyadan həqiqət uman şerlərini", "kişi sözləri"ni, əqidə və məsləkini yandıra bilirmiş:

***"Yanır haqsızlığa qarşı yüksələn,***
***Əqidəm, məsləkim, xeyirim-şərim,***
***Yanır rəzalətlə döş-döşə gələn***
***Qorxmaz sətirlərim, kişi sözlərim.***

***Yanır gileylərim, şikayətlərim,***
***Yanır, zəmanəyə üsyanım yanır,***
***Yanır arzularım, xoş niyyətlərim,***
***Düşüncəm, xəyalım, vicdanım yanır.***

***Yanır bu dünyada ayaq izlərim,***
***Yanır arzuların qışqırıqları,***
***Yanır o həqiqi dobru sözlərim.***
***Yanır ürəyimin hıçqırıqları,***
***Yanır hədəfini düzgün bəlləyən***
***Açıq məhəbbətim, açıq nifrətim.***

Müəllim şagirdlərə izah edir ki, şair despot, milli əsarət və köləlik əleyhinə yazılmış şerlərinin hamısını məhv etməyib, onların bir qismini gizlədə bilmişdir. Həmin şerləri sonralar **"Nağıl həyat" (1991), və "Yeni şerlər" (1993)** kitablarındakı **"Sandıqdan səslər"** bölməsində təqdim etmişdir.

**"İki qorxu"** poemasının məziyyətlərindən danışarkən yazıçı-publisist Sabir Azəri şairin vətəndaşlıq narahatlığını belə dəyərləndirir: "Bəxtiyar Vahabzadə ilk baxışdan çox sadə

görünən bir hadisənin timsalında bütün bu mərəkkəbliyi, ziddiyyətləri - dempotizmin insan təbiətini necə deformasiya etməsini, ürəkləri, vicdanı korroziyaya uğratmasını ustalıqla açır, həm də emosional-psixoloji təsiri gücləndirmək üçün poetik formalar vaxtarışı, yəni məqamında dəyişdirilir. Misralar gah həyatın özü kimi sərtləşir, gah da yenə də obrazın əhvalı ilə bərabər dərinləşir, üsyankar ricətlər artır".*

*Azadlıq adına meydan oxuruq,*
*Fikrin, düşüncənin azadlığına.*
*Susduq... bəxtimizə asi deyildik.*
*Bəli, dərd budur ki, biz elə bildik.*

*Belədir qayda.*
*Bizdən bəxtəvəri yoxdur dünyada.*
*Mahnı da oxuduq! "Bəxtəvərik biz,*
*Gül kimi açılıb diləklərimiz".*
*"El azaddır,*
*Tel azaddır,*
*Ana vətəndə*
*Dil azaddır".*

*Hansı dərdimizi demişdik ki, biz,*
*Üstəlik, azaddır - dedik, dilimiz!*
*De, hara sığışar, hara, ey zaman,*
*Bu boyda təhqirə xalqın dözməsi -*
*Dədə Qorqud kimi dədəsi olan*
*Millətin özünə dədə gəzməsi?"*

***Bax: Sabir Azəri. Qorxu. "Ədəbiyyat və incəsənət" qəzeti, 1989-cu il, 17 noyabr.**



Misraların səfində əbədiləşən bu haqsızlıqlar bütöv bir xalqın həyatında ağrılı nöqtələri, tarixin dərdli məqamlarıdır. Bu deyilənlər fiziki və mənəvi itkilərimizin çox az bir hissəsidir. Acı da olsa, həqiqətdir. Bir də bu həqiqət idi ki, o illər adamlar qanuna deyil, qanun bir adama - mütləq hakimə tabeydi. Belə bir cəmiyyətdə hansı normal yanaşmaq ehtirasından əxlaqi məsuliyyətdən danışmaq olar. İnsana milli əxlaqın, mənəviyyatın məhsulu kimi baxan şair Bəxtiyar ömrü boyu insanlığı alçaldan, ona ləkə gətirən hər hansı siyasətlə, despotla razılaşmayıb, ona qarşı çıxmışdır. Şair bir daha təsdiq edir ki, totalitar diktatura rejimi nə qədər ağır olsa da:

*Kölgədə yatan olmadıq*
*O vaxtlar qəhrəman olmasaq da, biz*
*Hay-küyə aldanan nadan olmadıq!*

Bu deyilənlər işin bir tərəfidir, digər tərəfdən o faciələr haqqında həqiqətləri müxtəlif vasitə və yollarla insanlara çatdırmaq, nəticə çıxarmaq, ibrət götürmək, nöqteyi-nəzərindən də əhəmiyyətlidir. Axı, dünənki həqiqətləri bilmək bugünkü insanlara çox lazımdır.

B.Vahabzadənin təkcə proqram və dərsliklərə daxil edilmiş əsərləri üzərində iş aparmaqla kifayətlənmək olmaz. Çalışmaq lazımdır ki, şagirdlərdə şairin ədəbi irsini dərindən öyrənməyə güclü meyl və maraq oyansın. Bu məqsədlə dərsdənkənar və sinifdənxaric tədbirlərin imkanlarından da səmərəli istifadə etmək olar.

Bütün bu deyilən məziyyətlərdən sonra belə bir pedaqoji qənaətə gəlirik ki, görkəmli şair, milli mücahid Bəxtiyar Vahabzadənin həyat və yaradıcılığı sözün həqiqi mənasında milli tərbiyə məktəbidir. Şairin poeziyası, pyesləri, publisis-

tikası və bütövlükdə zəngin yaradıcılığı bu məktəbin ən gərəkli, ən mükəmməl tədris vəsaitidir.

Bəxtiyarı oxuyanda, hiss edirsən ki, özündə məğrurluq, alicənablıq və xeyirxahlıq meylləri güclənir, milli mənlik duyğusu inkişaf edir.

Bəxtiyarı oxuyanda, Azərbaycanı qarış-qarış gəzirsən, onun keçmişinə baş vurub yaddaşları dolaşırsan, tarixin səhifələrində əbədiləşən faciə və zəfərlərimizlə qarşılaşırsan. Özünə qayıdıb, kökünü yaxşı dərk edirsən.

Bəli, Bəxtiyar Vahabzadənin mənalı ömür yolu, zəngin yaradıcılığı, ardıcıl ictimai-siyasi və elmi-pedaqoji fəaliyyəti müasir və gələcək nəsillər üçün örnək, həyat məktəbidir.



MÜNDƏRİCAT

Müəllifdən....................................................3

*I fəsil*

Bəxtiyar Vahabzadə yaradıcılığı şagirdlərin milli şüurunun formalaşdırılması məsələləri..........................................................6

*II Fəsil*

İnsan və insanlıq uğrunda mübarizə yollarında..................................................69

*III Fəsil*

Bəxtiyar Vahabzadənin həyat və yaradıcılığını tədris edərkən..........................112

15.000

Fərhad XUBANLI
*(Fərhad İslam oğlu Xubanov)*

# Bəxtiyar Vahabzadə yaradıcılığı və şagirdlərin milli ruhda tərbiyəsi məsələləri

(Azərbaycan dilində)
Bakı, "Adiloğlu" nəşriyyatı, 2005

**Yığılmağa verilib:** 27.06.2005
**Çapa imzalanmışdır:** 25.07.2005
**Kağız formatı:** 84x108 1/32
**H/n həcmi:** 8 ç.v.
**Sifariş:** 357
**Sayı:** 300
**Qiyməti:** müqavilə ilə

Kitab "ADİLOĞLU" MMC-nin mətbəəsində hazır diapozitivlərdən istifadə olunmaqla ofset üsulu ilə çap edilmişdir.

*Ünvan: Bakı şəh., Ü.Hacıbəyov küç., 38/3*
*Tel.: 498-68-25; faks: 498-08-14*



*Xubanlı Fərhad İslam oğlu 1950-ci ildə Gürcüstan Respublikası Qaraçöp mahalında anadan olmuşdur. Gəncə Dövlət Pedaqoji Universitetinin dil-ədəbiyyat fakültəsini bitirmişdir. 30 ildən artıqdır ki, pedaqoji sahədə çalışır. Azərbaycan Müəllimlər İnstitutu Qazax filialının dosenti, pedaqoji elmlər namizədidir. Çoxlu folklor araşdırmalarının elmi-pedaqoji məqalənin, xalq şairləri Xəlil Rza Ulutürk və Zəlimxan Yaqubun yaradıcılığı haqqında metodik tövsiyələrin müəllifidir.*

ADİLOĞLU